Bu bir xalq qəzetidi
ƏDALƏT

## Polislər mülki formada obyektlərə daxil olub yoxlamalar aparacaq



**Monitorinq həyata keçirən şəxslər mülki və polis formasında ticarət obyektlərinə daxil olacaqlar.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin şöbə rəisi Elşad Hacıyev Nazirlər Kabineti yanında Operativ Qərargahın dünən keçirilən brifinqdə deyib. E.Hacıyev bildirib ki, həmin obyekt sahibləri bilsinlər ki, onlar barələrində görülən tədbirlərdən nəticə çıxarmayıblarsa, həmin obyektin fəaliyyətinin dayandırılması və qanunvericiliklə nəzərdə tutulmuş digər ağır cəzaların verilməsi nəzərdə tutulur.

## *İŞĞALDAN AZAD OLDUQ, KALONLARDAN AZAD OLUNA BİLƏCƏYİKMİ?*

**Bu millət Ali Baş Komandanın sərkərdəliyi ilə cəmi 44 günə 30 illik işğala son qoydu və torpaqlarını azad elədi. Amma başqa bir işğal altındayıq, bu işğaldan necə azad olacağımıza və nə vaxt azad olacağımıza kimsə dəqiq proqnoz verə bilməz.**

Bu Azərbaycanda fəaliyyət göstərən kalonlardı. Adətən həmişə beşinci kalondan danışırlar, amma beşinci nədi ey, altıncı var, yeddinci var, səkkizinci var, doqquzuncu var…, on üçüncü var və sair:

Sorosun kalonu, ABŞ-ın kalonu, Fransanın kalonu, İranın kalonu, Nurçuların kalonu, FƏTÖ-çuların kalonu, Vəhhabilərin kalonu, qəttəzə biri də çıxdı Əfqan kalonu. Bir də ermənilərin kalonu. Bu kalonu Avropadakı bəzi soydaşlarımız təşkil edir və bir də içimizdən onlara ağ verən kərtənkələlər…

Beşinci kalon adətən Rusiyaya aid edilir, amma bir də görürsən ki, bütün bu saydığım kalonlar lazım olanda Beşinci kalonun altında cəmləşirlər.

Bu kalonların hamısının demək olar ki, özlərinin saytları, youtube kanalları, sosial şəbəkələrdə qrupları və trolları var.

Bu kalonlar dövlətçiliyimizə, millətçiliyə qarşı və eləcə də böyük şəxsiyyətlərimizə, ziyalılarımıza elə bir savaş açıblar ki, ermənin Qarabağda açdığı savaş bunun yanında muştuluqdu. Ermənilərin cavablarını verdik və veririk, çıxdıqları deşiyə qədər qovduq və qovuruq, amma bu kalonların qarşısında aciz olmuşuq.

Bu günlərdə İranla bağlı bir açıqlama vermişdim. İlahi, İran kalonunun Azərbaycanda nə qədər trolu varmış və yaxud tulası varmış? "Trol" sözu əslində elə "tula" deməkdi.

**Bəli, torpaqlarımızı işğaldan azad elədik, bəs, ölkəmizi bu kalonlardan nə vaxt azad edəcəyik?**

## YAŞASIN RESTORANLAR, NƏYİMİZƏ LAZIM TEATRLAR VƏ KİTABXANALAR?!



**Bizə restoranlar, kafelər, çayxanalar lazımdır, yığışaq, yeyək-içək, çalıb-oynayaq, qeybət eləyək və sair və ilaxır.**

**Neyniyirik ey kitabxanaları? Kitab oxuyanlar ağ günə çıxıb ki, biz də oxuyaq ağ günə çıxaq? Uzaqbaşı oxuyub savadlanacağıq, dünyanı daha yaxşı dərk edəcəyik və Hüseyn Arif deyir ey: ”Dünyanı dərk edən zaman dünyanı tərk edəcəksən!” İndi biz niyə dünyanı dərk edib, dünyanı tərk edək? Hayıf deyil qabağında pivə, noxud, qurudulmuş balıq, dostlarla oturub Əfqanıstanı müzakirə eləmək.**

**Və yaxud teatr nəyimizə lazımdır ey, gedib Mirzə Cəlilin ”Ölülər”inə baxıb görək ki, bizim onlarla heç bir fərqimiz yoxdur. Şeyxnəsrullahlar yenə öz işindədi və yaxud ”Dəli yığıncağı”na baxaq, görək elə biz dəli yığıncağında yaşayırıq.**

**Və yaxud Bəxtiyar Vahabzadənin ”Özümüzü kəsən qılınc”ına tamaşa eləyək, görək elə özümüz-özümüzü kəsirik, dilxor olaq.**

**Əsas məsələ kənddə hamam məsələsidir ki, ona da Operativ Qərargah yasaq qoyub.**

**Nəimi necə deyirdi:**

**Çirkli bədəndə, çirkli də ruh olar.**

## ŞUŞA TƏXRİBATININ ARXASINDA NƏ DURUR?

**Deməli, bir neçə gündür ki, Rusiyanın sülhməramlı yengələrinin müşayiəti ilə hələ də Qarabağdakı Ermənistan silahlı qüvvələri təxribatlar törətməkdədirlər. Bu təxribatlarda da Şuşa hədəf götürülüb.**

Bəlkə də çoxları bilmir, biz yazaq, bilməyənlər də bilsin. Niyə məhz Şuşa ətrafındakı postlarımızı atəşə tuturlar?



Şuşada "Xarı bülbül" festivalı keçirildi. Və çox möhtəşəm, bütün dünya da izlədi. Möhtərəm Prezidentimiz İlham Əliyevin ailə üzvləri ilə birlikdə dediyi sözləri də bütün dünya eşitdi.

Sayın Ərdoğan sayın İlham Əliyevlə birlikdə Şuşada açıqlamalar verdilər və sair və ilaxır.

Bu təbii ki, erməniləri, eləcə də erməniləri müdafiə edən kərtənkələləri məhv elədi.

İndi bu ay Şuşada "Vaqif poeziya günləri"nin keçirilməsi gözlənilir. Daha möhtəşəm bir tədbir, Azərbaycanın şair və yazıçıları Şuşada Vaqif məqbərəsi önündə şeirlərini söyləyəcəklər, fikirlərini bildirəcəklər və sonra da "Yallı" gedəcəklər. Bu təxribatlar ondan ötəridir ki, Vaqif poeziya günlərinin keçirilməsinə mane olsunlar. Həm hökumət, həm də şair və yazıçılar belə bir möhtəşəm tədbirin keçirilməsindən çəkinsinlər.

**Heç bir şair və yazıçının canı üç min şəhidin canından əziz deyil. Biz gedəcəyik, həmin tədbiri də keçirəcəyik və dünyada da bizi sevənlər fəxr edəcək, bizi sevməyənlər də, qarabağlılar demiş, filan yerlərini yeyirlər.**

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *Gündəlik hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 76 (5908) 21 avqust 2021-ci il | Qiyməti 30 qəpik

## *SEYRAN SƏXAVƏT NİYƏ ƏFQANISTANA GETMƏK İSTƏMƏDİ?*



**Yazıçı Seyran Səxavət bildiyiniz kimi (və yaxud bilmədiyiniz kimi), ixtisasca şərqşünasdır, bir müddət də İranda tərcüməçi işləyib. Sonra uzun müddət işsiz qalıb. Hökumətə müraciət edir ki, mən şərqşünasam, niyə məndən istifadə etmirsiniz?**

Həmin vaxt Sovet ordusu Əfqanıstanı işğal etmişdi. Seyran Səxavəti dəvət edirlər aidi təşkilata və deyirlər ki, gəl səni göndərək Əfqanıstana.

Seyran Səxavət gülür və deyir:

**- Mənim Əfqanıstanda nə işim var? Orda Sovet hökuməti kolxoz qurur, gedən kimi məni qoyacaqlar kolxoz sədri. Ondansa gedib Füzulinin katibinə iyirmi min manat verib gedib Yağlıvənddə kolxoz sədri işləyərəm də. Pulu pul, hörməti hörmət.**

# Sentyabrın 15-də dərslərin bərpası nəzərdə tutulur



**“Sentyabrın 15-də dərslərin bərpa olunması nəzərdə tutulur”. Bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının (PA) İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov Nazirlər Kabineti yanında Operativ Qərargahın avqustun 20-də keçirilən brifinqində çıxışı zamanı deyib. Onun sözlərinə görə, valideynlərin vaksinasiya olunması ilə bağlı hər hansı bir tələb yoxdur.**

**“Ancaq təhsil işçilərinin 80 faizinin peyvənd olunması ilə bağlı tələb var”.**

## KAMİL VƏLİ NƏRİMANOĞLU



**Türk dünyasının parlaq simalarından biri, görkəmli dilçi-alim, professor Kamil Vəli Nərimanoğlunun ad günüdür.**

**Təbrik edirik. Doğma Cəbrayılda görüşənədək.**

## *GOP ELƏMƏKDƏN YORULMADIQ DA*



***Hansı saytı açırsan, hansı qəzetə baxırsan hamısı yazır ki, Xankəndindəki ermənilər evlərini satırlar və qaçırlar. Bəsdir də özümüzə yalan təsəlli verməyimiz. Onlar evlərini necə və kimə satırlar ki, separatçı rejimin başçısı Araik Aratunyan Xocalıda 400 yeni mənzil tikir. Bu suala kimsə cavab verə bilərmi?***

***Nə isə, bir az məsələlərə diqqətli olaq.***

## BAYDEN SƏXAVƏT KİSƏSİNİN AĞZINI AÇDI



**ABŞ Əfqanıstanı məhv elədi - həm fiziki mənada, həm də elə ideoloji mənada. Nəinki Əfqanıstanda yaşayan müxtəlif xalqları, həm də bir kökə söykənən milləti iki-üç yerə bölüb bir-birinə düşmən elədi.**

Və sonra da qoşunlarını çıxartdı və əfqan xalqını buraxdı taleyin ixtiyarına, daha doğrusu, Talibanın ixtiyarına. İndi ölkədə milyonlarla insan qaçqın vəziyyətinə düşüb. Hətta təyyarədən sallaşıb qaçmaq istəyənlər var.

İndi ABŞ-ın prezidenti Bayden səxavət kisəsini açıb və bildirib ki, əlacsız vəziyyətdə qalan əfqanlara 500 milyon dollar yardım edəcək.

**Sağ olsun, hətta bildirib ki, 22 min əfqan qaçqını da ölkəsinə qəbul etməyə hazırdı.**

## ƏFQANISTANIN PREZİDENTİ ARADAN CIRDI



***Deməli, Taliban Kabili də götürdü, Əfqanıstanın da girdirmə prezidenti (adı nə bilim ey nə) aradan cırdı, xalqı da buraxdı Talibanın əlinə və uçdu Tacikistana.***

***Əldəqayırma prezidentlərin sonu belə olur.***

## AY ZIRT, GİRDİM HA!..

**Sovetlər dönəmində keqebedə bütün yazıçıların dostu Aydın Abdullayev adlı (Nəriman Qasımoğlunun dayısı) bir polkovnik çalışırdı və yazıçıları da keqebedən qoruyurdu. Ürəyiaçıq, əliaçıq, qeyrətli bir insanıydı. Ən yaxın dostu da həmyerlisi şair Eldar Baxış idi ki, bir yerdə zəhərlədilər, bir-iki ay fərqlə də dünyalarını dəyişdilər. Aydın müəllim qeyri-adi, səmimi və zarafatcıl adam idi. Heç kəs inanmazdı ki, o, keqebenin polkovnikidi. Keqebe haqqında ən gözəl anekdotları da özü danışardı.**

> *Çox təəssüf ki, belə bir kişinin şəklini internetdən tapa bilmədik...*

İsfəndiyar Vahabzadəyə 50 il Rusiyaya daxil olmaq qadağası qoyulanda onun məşhur bir anekdotu yadıma düşdü. Bunu da sabah oxuyarsınız.

Deməli, belə. Rəhmətlik Aydın Abdullayev danışırdı ki, bizim bir eloğlu (Aydın müəllim Qubadlıdan idi) gəlir Bakıya. Şəhəri gəzərkən qarşısına bizim idarə çıxır. Görür iri hərflərlə idarənin qapısındakı lövhəyə yazılıb: "DÖVLƏT TƏHLÜKƏSİZLİK KOMİTƏSİ. GİRİŞ QƏTİ QADAĞANDIR".

Baxır, baxır, baş barmağını iki barmağının arasından çıxarıb deyir:

**- Ay zırt, girdim haa!**

## *ƏNTİQƏ RƏŞİD ÜSYAN ETDİ*



*Qəzetimizin əməkdaşı Əntiqə Rəşid hələ müharibə başlamamışdan cəbhə xəttindəydi, daha dəqiq desək, Ağdamdakı cəbhə xəttində. Qarabağ qazilərinə qoşulub səngər möhkəmlədirdi. 44 günlük müharibə zamanı da o səngərlərdən çıxmadı, əsgərlərimizlə, qazilərimizlə bir yerdə vuruşurdu. Təbii ki, o, qələmi ilə, reportajları ilə, əsgərlərimizin qəhrəmanlıqları, şəhidlərimizlə, qazilərimizlə bağlı yazdıqları yazıları ilə. Amma bu günədək azad olunmuş ərazilərə təşkil olunmuş turların heç birinə adı salınmır. İndi üsyan edir və deyir ki, "məni qoymasanız da, qeyri-qanuni yollarla Ağdama gedəjəm".*

*Əntiqə Rəşidin üsyan püskürən yazısını bugünki saytımızda və "Ədalət"in şənbə nömrəsində oxuya bilərsiniz.*

## AY CAMAAT, HEÇ OLMASA AİLƏNİZİ QORUYUN DA

**Ölkədə koronavirusa tutulanların sayı demək olar ki, sürətlə artır. Bunu toylar və yaslarla bağlayırlar. Təbii ki, təkcə bu deyil, insanların laqeydliyi əsas rol oynayır.**

Həkimlər çağırır, hətta az qala yalvarır, ziyalılar yalvarır, hökumət xahiş-minnət edir ki, Covid-19-a qarşı peyvənd olunun.

Peyvəndə qarşı da əks-təbliğat aparırlar.

Sovet hökuməti vaxtı da müəyyən xəstəliklərə qarşı insanları təmənnasız peyvənd edirdilər, orta məktəb uşaqlarını da. Yadımdadır, dörddə, ya beşdə oxuyanda bizi iki dəfə peyvənd elədilər. Gərək ki,sarılığa və çiçəyə qarşı, qollarımızda hələ də nişanı durur.

İndi dünyanın özündənrazı dövlətləri laboratoriyada belə bir xəstəlik yaradıb bəşəriyyətə bəla kimi sırıyıblar.

Bunun da qarşısı yalnız peyvənd olunmaqla alına bilər.

**Buyurun, heç olmazsa öz ailənizin xatirinə peyvənd olunun.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## ERMƏNİLƏR CIDIR DÜZÜNÜ DƏ DAĞIDIBLAR



***Cıdır düzü bizlər üçün həm tarixdi, həm muzeydi, həm də müqəddəs bir yerdi. Ermənilər bunu da çox gözəl bilirlər. Və onlar bilirlər ki, Cıdır düzü bizim üçün nə qədər müqəddəsdir, ona görə də bütün məbədlərimizi, məscidlərimizi, tarixi abidələrimizi dağıtdıqları kimi, Cıdır düzünü də dağıdıblar. Yəni Şuşa azad olunandan sonra Cıdır düzündə olmamışam, amma Cıdır düzündə keçirilən tədbirləri həm izləmişəm, həm də incələmişəm.***

***Cıdır düzü çox böyük əraziyə malik idi, hətta Sovet hökuməti bu ərazidə nəsə tikməyi və nəsə etməyi qadağan etmişdi.***

***Bax: səh.3***

## ABŞ-dan TALİBANA 100 MİLYARD DOLLARLIQ HƏDİYYƏ

**ABŞ Əfqanıstanın əldəqayırma hökumətinin silahlı qüvvələrinə 87 milyard dollarlıq silah-sursat vermişdi və 300 minlik bir ordu yaratmışdı.**



Talibana da altdan-altdan nə qədər silah-sursat bağışlamışdı, bu barədə dəqiq rəqəm yoxdur. Hər halda Talibanın 70 minlik ordusu oxkamanla, xəncərlə silahlanmamışdı, ən müasir silah-sursata malik idi.

Bundan başqa, ABŞ qoşunları çıxanda özlərinin də xeyli texnikasını və silah-sursatını qoyub çıxıb.

**Bundan sonra Əfqanıstanda hadisələrin necə inkişaf edəcəyini heç Allah da bilmir, təkcə ABŞ bilir.**

## GÜNÜN LƏTİFƏSİ

Vəli Xramçaylı 1-ci mərtəbədəki yeməkxanada oturub söhbət edirlər.

Anar:

**- Vəli, iki aydı Qazaxda dincəlib gəlmisən. İndi 3 dənə 100 qramı 3 dilim duzlu xiyarla içə bilərsən?**

Vəli:

**- Hə, içərəm.**

Anar:






**- Bəs 5 dənə yüz qramı, 5 dilim duzlu xiyarla içə bilərsən?**

**- Ayə niyə içmeyrəm, gətir içem.**

Anar:

**- Bax indi durub 15 dənə yüz qramlığı gətirirəm. Onu da 15 dilim duzlu xiyarnan içəcəksənmi?**

Vəli:

**-Ayə Anar, dəlisənmi, 15 dənə yüz qramlığı işməyinə içərəm, amma 15 dilim duzlu xiyarı yeməkmi olar?**

# Enerji effektivliyi fondu yaradılır



**Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) enerji effektivliyi fondu yaradır.**

Bu barədə Prezident İlham Əliyevin tədiqlədiyi ”Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” qanunda əks olunub.

Qanuna əsasən. enerji effektivliyi fondu aşağıdakı mənbələr hesabına maliyyələşir:

enerji resurslarının tarif və qiymətlərində fonda ayrılması nəzərdə tutulan vəsait (enerji resurslarının satışından əldə olunan vəsait);

kreditlər və qrantlar;

hüquqi və fiziki şəxslərin könüllü ianələri;

beynəlxalq təşkilatların və digər donorların ayırmaları;

fondun vəsaitinin idarə olunmasından əldə olunan gəlirlər;

qanunla qadağan olunmayan digər mənbələr.

Enerji effektivliyi fondunun vəsaiti bu Qanunun 15.2-ci maddəsində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi üçün istifadə olunur.

Enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması və istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

# Cavid Qurbanov Prezidentə müraciət etdi



**Möhtərəm cənab Prezident.**

2020-ci il sentyabrın 27-də düşmən təxribatlarına cavab kimi başlayan və Sizin sərkərdəliyinizlə, tarixi zəfərlə bitən Vətən müharibəsindən sonra bölgədə yeni reallıqlar yaranmış, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil, qüdrətli Azərbaycan dövləti daha da güclənmiş, regionda söz sahibinə çevrilmişdir. 44 günlük Vətən müharibəsi günlərində olduğu kimi tarixi zəfərdən sonra keçən dövr ərzində də xalqımız Sizin sayənizdə tarixi anların, günlərin şahidi olmaqdadır. Sizin rəhbərliyinizlə Qarabağda başlayan misilsiz bərpa və quruculuq işləri bu gün hər bir azərbaycanlının qəlbini fərəh və qürur hissi ilə doldurur. Vətən müharibəsindəki parlaq qələbəmizin ardınca Sizin rəhbərliyinizlə qazandığımız diplomatik qələbələr, azad edilmiş ərazilərdə keçirilən tədbirlər ölkəmizin qüdrətini bir daha sübut etdi. Tarixi ”Şuşa Bəyannaməsi”nin, ”Bakı Bəyannaməsi”nin imzalanması, minalanmış ərazilərin xəritələrinin bir hissəsinin alınması, Sizin mədəniyyət paytaxtımız elan etdiyiniz Şuşa şəhərində ”Xarıbülbül” musiqi festivalının keçirilməsi xalqımızın qələbə sevincini daha da artırdı.

Möhtərəm Prezident, Sizin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanımın işğaldan azad edilmiş ərazilərə birgə səfərləriniz zamanı verdiyiniz mesajlar xalqımızın sabaha olan inamını günbəgün möhkəmləndirir, bizi daha böyük qələbələrə və uğurlara səsləyir.

Bu günlərdə Sizin Mehriban xanımla Kəlbəcər və Laçın rayonlarına etdiyiniz tarixi səfəriniz, Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq tunelin və Laçın Beynəlxalq Hava Limanının təməlini qoymağınız, Kəlbəcər şəhərində Sizin Dövlət bayrağımızı ucaltmağınız, məşhur ”İstisu” sanatoriyasına getməyiniz, İstisu-Minkənd yolunun çəkilməsi işləri ilə tanış olmağınız həmin bölgənin insanlarında özlərinin dədə-baba yurdlarına dönəcəkləri günün, 30 illik Vətən həsrətinə əbədilik son qoyulacağı anların lap yaxında olduğu müjdəsini verir.

Möhtərəm Prezident, bu gün Azərbaycanın qazandığı bütün uğurlar ulu öndər Heydər Əliyev siyasətinin nəticəsidir və ilk növbədə Sizin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Xalqımız hər zaman Sizə güvənmiş və arxalanmışdır. Müzəffər Ali Baş Komandan kimi Sizin rəhbərliyinizlə aparılan və şanlı qələbə ilə başa çatan Qarabağ zəfərimiz xalqımızın Sizə olan inamının və etimadının növbəti təntənəsidir.

Bütün bunlara görə Sizə Türk dünyasına üç böyük söz sənətkarı bəxş etmiş Miskin Abdal, Ağdabanlı şair Qurban və Dədə Şəmşir nəslinin, həmçinin 88 yaşlı ağsaqqal atamın, 83 yaşlı ağbirçək anamın, bu nəslin torpaqlarımızın azadlığı uğrunda qurban verdiyi on üç şəhidin, o cümlədən yaxın qohumum olan iki Milli Qəhrəmanın ailələri və Kəlbəcər ziyalıları adından dərin hörmət, ehtiram, sevgi və məhəbbətimi bildirirəm. Sizin adınız Kəlbəcər torpağına qədəm qoyan yenilməz sərkərdə kimi hər zaman Kəlbəcərin uca zirvələri ilə qoşa çəkiləcəkdir. İllərdən bəri əlçatmaz xəyal kimi görünən arzumuzu gerçəyə çevirdiyiniz üçün bir daha Sizə minnətdaram.

**Allah Sizi, dövlətimizi, xalqımızı, ailənizi qorusun. Uca Tanrı daim Sizə yar olsun.**

**Dərin hörmət və ehtiramla,**
**Cavid Qurbanov**
**”Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri**
**Kəlbəcər sakini**
**Azərbaycan Respublikası, Bakı şəhəri.**

# İLHAM ƏLİYEV: "BİZ BURAYA QAYITMALI İDİK VƏ QAYITDIQ"

## “Ermənilər burdan getməli idilər və getdilər”

**Adalet.az xəbər verir ki, 44 günlük Zəfər Qələbəsindən sonra, İşğaldan azad edilmiş ərazilərdə quruculuq- pərpa işlərinə başlanılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu regiona səfərləri artıq ənənəvi xarakter alıb. Prezidentin növbəti səfəri Kəlbəcər və Laçın rayonlarına olub.**




Prezident İlham Əliyev 30 illik işğal dövründə erməni quldurları tərəfindən tamamilə vəhşicəsinə dağıdılmış şəhər və kənlərin, ilkin olaraq infrastrukyur sahələrinin yenidən qurulması ilə bağlı verdiyi tapşırıqların yerinə yetirilməsi işləri ilə yerində tanış olub. ***”Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş -gəliş çox rahat olacaq. Kəlbəcərin mənzərəsi indi daha da gözəldir. İndi yolumuza davam edirik. Bu aşırımın hündür bir hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm”*** - deyə Azərbaycan Respublikasının Prezidenti əlavə edib ki, artıq Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veiləcəkdir. Dövlət başçısı və birinci xanım Toğanalı- Kəlbəcər avtomobil yolunun üzərində Murov dağında inşa olunacaq 11, 6 kilometrlik tunelin təməlqoyma mərasimində iştirak edib. Basarkeçər -Kəlbəcər yolunun üzərində dayanan Prezident İlham Əliyev, bu yolun Ermənistanı Qarabağla birləşdirən alternativ yol kimi ermənilər tərəfindən çəkildiyini, artıq qənimət kimi bizim tərəfimizdən istifadə ediləcəyini vurğuladı.



Basarkeçərin əslində Azərbaycan torpağı olduğunu, bu ərazilərdə həmişə azərbaycanlıların yaşadığını bildirən Prezident, sonradan rayonun adı dəyişilərək ”Vardanes” adlandırıldığını bildirdi: ***”Xahiş edirəm ki, Azərbaycanda bu bölkə ilə bağlı hazırlanan reportajlarda və ümumiyyətlə, bizim ümumi leksikonumuzda ”Vardanes” yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə çağrılmalıdır. Misal üçün, Naxçıvan - Ermənustan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın ”Yerazx” kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir”.***

İşğal dövründə demək olar ki, tamamilə dağıdılmış ”Kəlbəcər -1” Su Elektrik stansiyasının yenidən qurulması işlərilə tanış olan İlham Əliyev bildirdi ki, ***”Lev çayı üzərində 4,4 MVt gücündə Kiçik Su Elektrik stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik borusu 1.3 kilometr məsafədə metal borularla əvəz edilir. Stansiyanın maşın zalı və 110/6 kilovoıtluq yarımstansiyadında işlər tamamlanıb. Beləliklə, ermənilər tərəfindən dağıdılaraq yandırılan ”Kəlbəcər -1” Kiçik Su Elektrik Stansiyası tam yenidən tikilir və işlərin qarşıdan gələn aylarda başa çatdırılması planlaşdırılır”.***

İşğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda bərpa olunmasında enerji sisteminin bərpa edilməsi mühüm rol oynayır. Ona görə də ilk növbədə erməni quldurları tərəfindən tamamilə dağıdılmış enerji infrastrukturunun yenidən qurulması əsas vəzifələrdən biridir. Artıq Qarabağ və Şərqi Zəngəzur bölgələrində elektrik stansiyaları yenidən qurularaq istifadəyə verilir. Dövlət başçımız istifadəyə verilən stansiyaların açılışında şəxsən iştirak edir. Azərbaycanın ümumi enerji infrastrukturuna qoşulacaq elektrik stansiyaları sayı 20-yə, bəlkə də 30 -a çatdırılacaq. ***”Biz artıq Lev çayının kənarında çay içəcəyik armudu stəkanda. Bu, onu bir daha göstərir ki, nə qədər ermənilər calışsalar da bizim xalqımızın iradəsini qıra bilmədilər. Biz bura qayıtmalı idik və qayıtdıq. Onlar burdan getməli idilər getdilər.***

***Tarixi ədalət bərpa olundu bə biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq. Bundan sonra da tədbirlər olacaq. Hələlik isə çayımızı içək və təbiətdən zövq alaq. Yaşasın Azərbaycan!”***

**Rüstəm Hacıyev**

# Abutalıb Səmədov- "İranın buna göz yumması qəbuledilməzdir"...

**Prezident İlham Əliyev ”CNN Türk” televiziya kanalına müsahibəsində həmişə dost və qardaş adlandığı İranla bağlı gözləntilərini açıq şəkildə ifadə edib. Təbii ki, son vaxtlar baş verən proseslər fonunda Azərbaycanın İrandan gözləntiləri daha çoxdur və Prezident ikitərəfli münasibətlərə, həmçinin regiondakı sülhə xələl gətirə biləcək davranışların üzərində xüsusi dayanmalı olub.**

Məsələnin mahiyyətinə keçməzdən öncə vurğulamaq vacibdir ki, Azərbaycan dövləti özünün xarici siyasətində həmişə regional əməkdaşlığa, təhlükəsizliyə və nəqliyyat-logistik infrastrukturun inkişafına üstünlük verib və reallıq budur ki, işğalçı Ermənistan istisna olmaqla, bütün digər qonşu dövlətlərlə strateji əməkdaşlıq qura bilib.

Ölkəmizin təşəbbüsü, yaxından iştirakı ilə formalaşan yeni əməkdaşlıq formatları regionun iqtisadi inkişafına, qarşılıqlı səmərəli əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verib və verməkdədir. Ən əsası çətin zamanlarda Azərbaycan ən etibarlı qonşu dövlət, strateji tərəfdaş olduğunu əməli olaraq sübut edib. Qlobal güclər İrana qarşı təzyiq və təcrid siyasəti həyata keçirdikdə müstəqil siyasət yürüdən Azərbaycan bütün cəhdlərə rəğmən heç bir platformada bu siyasətə qoşulmayıb. Tam əksinə, İranla qarşılıqlı maraqlara söykənən əməkdaşlıq əlaqələrini, dostluq və mehriban qonşuluq siyasətini möhkəmləndirib. Azərbaycanın dəyişməyən, davamlı mehriban qonşu və etibarlı dostluq prinsipinə söykənən siyasətinə İranın da hazırda analoji münasibət bəslədiyini əminliklə vurğulamaq mümkündürmü? Təəssüf ki, yox!

Prezident İlham Əliyevin gerçəkləşdirdiyi uğurlu siyasətin nəticəsidir ki, Qarabağ münaqişəsi Azərbaycanın milli maraqları çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapıb. Müharibədən sonra İranın bu reallığa uyğun davranması, rəsmi Tehranın öz ənənəvi siyasətini bir daha nəzərdən keçirəcəyi gözlənilirdi. Fəqət son vaxtlar Azərbaycan-Ermənistan sərhədində baş verənlər xoş olmayan mənzərə ortaya qoyur.

Prezident digər qonşu dövlət İranla bağlı suala cavabında isə rəsmi Bakının gözləntilərini qısa şəkildə ifadə edib: ”Bu ölkədə indi yeni rəhbərlik hakimiyyətə gəlib.

Onların bölgə ilə bağlı siyasəti formalaşmaqdadır. Hələ ki, təyinatlar olmayıb. Əlbəttə ki, həm Azərbaycanla, həm də qonşu ölkələrlə bağlı ilkin bəyanatlar müsbətdir. Ancaq əlbəttə, vaxt lazımdır ki, yeni rəhbərlik bu məsələ və Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı öz siyasətini ortaya qoysun. Biz bunu gözləyirik”.

Təbii ki, İranla bağlı jurnalistin sualı təsadüfən ortaya çıxmayıb. İrandan Ermənistana silahların ötürülməsi ilə bağlı həm müharibə dövründə, həm də son zamanlar yenidən məlumatlar dövriyyəyə buraxılmaqdadır. İranın tutarlı, bütün söz-söhbətə nöqtə qoyan mövqeyi isə ortada yoxdur. Bütün bu məlumatlara ən tutarlı cavab rəsmi Tehranın Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı öz qəti siyasətini ortaya qoyması ola bilər və rəsmi Bakının gözləntisi də bu istqamətdədir.



Azərbaycan Naminə Alyans Partiyasının sədri, siyasi-ekspert Abutalıb Səmədov ”Adalet.az”-a verdiyi açıqlamada bildirdi ki, Prezident İlham Əliyev ”CNN-Türk” kanalına müsahibəsində İranla olan münasibətlərin dostluq və qarşılıqlı əməkdaşlıq istiqamətində olması üçün Azərbaycanın hər şeydən istifadə etdiyini dedi.

”İranda rəhbərlik təbii ki yeni seçilib və müəyyən təyinatlardan sonra bölgəyə münasibətdə siyasətin müəyyənləşəcəyini qeyd etdi. Amma Xoşagəlməz məqamlar üəzrində dayanmadı. Təəssüf ki, son günlər İranla münasibətlərimizdə xoşgəlməz məqamlar üzə çıxdı. Baxmayaraq ki, Prezident İlham Əliyev üstüörtülü şəkildə qeyd etmişdi ki, müəyyən avtomobillərə Ermənistan nömrələri vuraraq Xankəndinə getməsi barədə dəqiq məlumatlara malikdir. Onda da konkret ölkə adı çəkməmişdi. Sonradan Xarici İşlər Nazirliyi bu barədə İrana şifahi xəbərdaqlı etdi. Bir nəticə çıxmayandan sonra Azərbaycan İrana nota verdi. Təbii ki, iki ölkə arasınnda qarşılıqlı əməkdaşlığa və mehriban qonşuluq siyasətinə zərbə vuran hərəkətlərdi”.

Azərbaycanın həmişə qoşu ölkələrlə mehriban münasibətin tərəfdarı olduğunu bildirən partiya sədri əlavə etdi ki, maşınlarına Ermənistın nömrəsi taxıb Qarabağa gedənlərdən İran hökümətinin xəbəri olmamasına inanır:

**”Ola bilsin, hansısa işbazların əməlləridir. Yaxşı qazanc yeri tapıblar və bunun üçün hər yola əl atırlar. Mən inanmıram ki, maşınlar Qarabağa silah daşısınlar.Amma bütün hallarda İranın buna göz yumması qəbuledilməzdir. Ona görə də, düşünürəm ki, Prezidentimizin dediklərindən İran tərəfi bir nəticə çıxaracaq və ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin inkişafı üçün çalışacaqlar. Çünki bu daha çox İranın maraqlarına cavab verir, həm də bizim marqlarımıza uyğundur”.**

**İltifat HACIXANOĞLU**

*İlqar RƏSUL*

# Ağdamın gerbi - Xanzadəlikmi, Xanəndəlikmi?



***DİQQƏT!***

***Azərbaycanımızın dəyərli rəssamları, dizaynerləri (və ağdamlılar)!***

***Bildiyiniz kimi, bu günlərdə dövlət Ağdamın gerbinin hazırlanmasına start verib. Təbii ki, bir çoxunuz bu müsabiqədə iştirak edəcəksiniz. Bu həvəsinizə və cəhdinizə görə sizə indidən minnətdaram. İşinizin uğurlu alınması və ağdamlıların rəğbətini qazanması üçün sizə bir qardaş tövsiyəsi verirəm. Müsabiqəyə təqdim etmək üçün gerb təsvir edərkən bir şərti unutmayın: Ağdamın simvolu tar, qabal, dağdağan ağacı deyil.***

***Ağdamın əsas simvolları AT, İMARƏT və ŞAHBULAQ QALASIDI.***

***Gerbi hazırlayarkən bu elementlərdən istifadə etməyə çalışın lütfən.***

***P.S. Əziz ağdamlılar, unutmayın: Bir şəhərin gerbi zamanla onun əhalisinin xasiyyətinə də təsir edir. Qüdrətdisə, qüdrət, məsumiyyətdisə, məsumiyyət aşılayır.***

***Loru dildə desək: Rəmz atdırsa əhalini zirvələrə aparacaq, tardırsa mütəkkədə mürgülədəcək.***

*Aqil ABBAS*

# QARABAĞLILAR YAXŞI TAR DINQILDADIRLAR



***Mətbuatda gedib ki, Ağdam şəhərinin rəmzi ilə bağlı (bildiyiniz kimi, dünyada bütün böyük şəhərlərin rəmzi var) müsabiqə elan ediblər. Çox yaxşı. Və bu müsabiqə ilə bağlı dostumuz İlqar Rəsulun çox maraqlı və ciddi bir statusunu oxudum. Həmin statusunu bugünki saytımızda və şənbə günü nömrəmizdə oxuya bilərsiniz.***

***Mən də Ağdamın rəmzi ilə bağlı təsdiq olunacaq layihə ilə əlaqədar bir tərəddüd hissi keçirirəm.***

***Təxminən bir 20 il bundan əvvəl ölkənin ən yüksək məmurlarından biri (bu gün də yüksək vəzifədədir) qarabağlılar haqqında demişdi ki, onlar yaxşı tar dınqıldadırlar, getsinlər tarlarını dınqıldatsınlar.***

***Mən də onun fikrini qəzetin manşetinə çıxarmışdım və bircə cümlə də şərh vermişdim: "Sizin kimi filosof olmaqdansa tar dınqıldatmaq min dəfə daha şərəflidi". Yeri gəlmişkən, bizdə filosofla fəlsəfə elmləri doktorunu qarışdırırlar. Fəlsəfə elmləri doktoru olmaq hələ filosof olmaq deyil, uzaqbaşı fəlsəfə müəllimi olmaqdı.***

***Azərbaycanda fəlsəfə elmləri doktorları çoxdu, amma filosof çox azdı, barmaqla sayılacaq qədərdi: Asif Əfəndiyev, Ziyəddin Göyüşov, Camal Əhmədov, Firudin Köçərli.***

***Bir dəfə televiziya kanallarının birində Ağdamdan çıxmış məşhur adamlar haqqında veriliş verirdilər. Həmin verilişdə nə Xudu Məmmədovdan danışdılar, nə Rafiq Əliyevdən, nə Ziyəddin Göyüşovdan, nə Bayram Bayramovdan, nə Adilə Namazovadan, nə Şahmar Əkbərzadədən, nə Famil Mehdidən… siyahını çox uzatmaq olar. Veriliş yalnız tanınmış xanəndələrə, "tar dınqıldadanlara", bir sözlə, musiqiçilərə həsr olunmuşdu.***

***Professor Qurban Bayramov haqlı olaraq bu verilişə etiraz eləmişdi və onun etiraz məktubunu da "Ədalət" qəzetində çap elədim, təbii ki, bir-iki kəlmə də özüm yazdım.***

***İndi qorxuram ki, İlqar Rəsulun yazdığı kimi, Ağdamın rəmzi tar, qaval və kamança ola.***

***Ağdamın rəmzi heç Şahbulaq qalası da deyil, İmarətdəki sərdabədi, 6 min şəhiddi, Qarabağ atlarıdı! Təbii ki, bu da mənim subyektiv fikrimdi. Hər halda yaxşı olar ki, rəssamlar bir Ağdamın tarixini oxusunlar.***

***İlqar Rəsul, yeri gəlmişkən, sən bilirmisən ki, Bayraq muzeylərinin heç birində Qarabağ xanlığının bayrağı yoxdur?! Yəni, mən gəzdiyim muzeylərin heç birində görməmişəm.***

***Onu da qeyd edim ki, Pənah xanın bayrağında şahin quşu təsvir edilmişdi, ov üstünə şığıyan şahin quşu.***

## *Lukaşenko: Qərbin bizə qarşı savaşı bitməyəcək*



**Qərbin Minskə qarşı kulis arxasındakı müharibəsi heç vaxt bitməyib və bitməyəcək.**

**Bunu Belarus Prezidenti Aleksandr Lukaşenko deyib.**

**”Kulis arxasında Belarusa qarşı kollektiv Qərb tərəfindən aparılan gizli müharibə bitməyib və bitməyəcək.**

**Siz bunu məndən yaxşı bilirsiniz, çünki tam olaraq bu hadisələrə cəlb edilmisiniz”, - deyə o hüquq mühafizə orqanları ilə görüşü zamanı deyib.**

**MEHRİBAN**

Aqil ABBAS

# ERMƏNİLƏR CIDIR DÜZÜNÜ DƏ DAĞIDIBLAR

**Cıdır düzü bizlər üçün həm tarixdi, həm muzeydi, həm də müqəddəs bir yerdi. Ermənilər bunu da çox gözəl bilirlər. Və onlar bilirlər ki, Cıdır düzü bizim üçün nə qədər müqəddəsdir, ona görə də bütün məbədlərimizi, məscidlərimizi, tarixi abidələrimizi dağıtdıqları kimi, Cıdır düzünü də dağıdıblar. Yəni Şuşa azad olunandan sonra Cıdır düzündə olmamışam, amma Cıdır düzündə keçirilən tədbirləri həm izləmişəm, həm də incələmişəm.**

**Cıdır düzü çox böyük əraziyə malik idi, hətta Sovet hökuməti bu ərazidə nəsə tikməyi və nəsə etməyi qadağan etmişdi.**

**Uzaqbaşı, raykomun bir Qonaq Evini tikmişdi, o da Cıdır düzünün ərazisinə daxil deyildi, bir az kənardaydı.**

**Cıdır düzündə bir çayxana fəaliyyət göstərirdi ki, gələn qonaqlar bir stəkan çay içə bilsin.**

**İndi baxıram, həmin çayxananın olduğu ərazidə villalar tikiblər, bağlar salıblar və Cıdır düzü kiçilib əl içi boyda bir yer olub.**

**İndi Şuşa "qoruq şəhəri" elan edilib. İnanıram ki, orda tikilən villalar da söküləcək, burda əkilmiş ağaclar da çıxarılıb Şuşanın başqa səmtində əkiləcək və Cıdır düzü əvvəlki görkəminə qayıdacaq.**

**Cıdır düzü niyə müqəddəsdir, növbəti yazımızda.**

## *Babəkin heykəli*



**Babək prospektində, daha doğrusu, Yeni Günəşliyə yaxınlaşan yerdə çox gözəl bir yaşıllıq yaradıblar. Orda qazon otlar, güllər və çiçəklər əkiblər. Və hər gün də bu otu, gülləri və çiçəkləri suvarırlar. Ortada isə bir postament qoyulub. Deyirlər ki, burda Babəkin heykəli qoyulacaq və camaat da o günü səbirsizliklə gözləyir.**

Amma gərək bu heykəl də elə heykəl olsun ki, Babəkə layiq olsun. Odur ey, Koroğluya heykəl qoyublar, amma Koroğludan çox başqa şeyə oxşayır. Altındakı atsa Qıratdan çox qatıra bənzəyir. Heç belə heykəldənsə qoymamaq yaxşıdır. Çünki zay sənət əsərləri qəhrəmanları ucaltmaq əvəzinə, daha da gözdən salır. Kiyevdə Baqdan Xemernitskinin çox möhtəşəm bir heykəli var. Bu heykələ baxanda həm onun atına heyran qalırsan, həm də qəhrəmanın özünə. Bizdə isə bəzi heykəllər qəhrəmanı ucaltmaq əvəzinə, bayaq dediyimiz kimi, bir az da balacalaşdırır.

## *Deyirlər çimmək olmaz...*

**Yay mövsümü gələndə davamlı olaraq Bakı Şəhəri Gigiyena və Epidemiologiya Mərkəzi Xəzər dənizinin bütün çimərliklərindən bakterioloji çirklənmə ilə bağlı su nümunəsi götürür və onu laboratoriyada analiz edir. Həmişə də bu proses başa çatandan sonra hansı çimərlikdə çimmək olar və hansında çimmək olmazla əlaqədar olaraq əhaliyə ətraflı məlumat verilir. Bu il də götürülən analiz nümunələrindən sonra məlum qurum bir daha əhaliyə bildirdi ki, Xəzərin Şıx, Sahil, Hövsan çimərliklərində dəniz suyunun normadan artıq çirklənməsinə görə çimmək olmaz.**



Təəssüf ki, məlum qurumun bu xəbərdarlıqlarına adını çəkdiyimiz çimərliklərdə insanlar məhəl qoymurlar. Məsələn, şənbə-bazar günləri bu çimərliklərin hər üçünə baş çəkdik və hər üçündə də qadağan olunduğuna baxmayaraq, çoxlu sayda insanlar gördük. Şıx çimərliyində olanlar isə həddindən artıq çox idi. Görünür, biz sağlamlığımız haqqında bir o qədər də düşünmürük. Bilmirik ki, o çirklənmiş sudan bir qurtum boğazımızdan keçsə, ən ağır mədə-bağırsaq xəstəliyinə yoluxa bilərik.

## *Dayanma, durma qaydalarını pozanlar*



**Abşeron Rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsi Xırdalan şəhərində sürücülərin dayanma, durma qaydalarına əməl etməsi ilə bağlı reyd keçirib. Reyd zamanı yol polisi əməkdaşları aşkar edib ki, onlarla sürücü Xırdalan şəhərinin müxtəlif küçə və prospektlərində dayanma və durma nişanları olsa da, buna məhəl qoymayıblar. Ona görə də yol polisi əməkdaşları belə sürücülər barəsində inzibati protokol tərtib edib və onlar 20 manat məbləğində cərimə olunublar.**

Təbii ki, bütün bu tədbirlər hərəkətin təhlükəsizliyinin təmin edilməsinə yönəlib. Çünki harda gəldi avtomobilləri saxlayan sürücülər qanunu pozmaqla yanaşı, həm də bu ünvanlarda sıxlıq yaradır və eyni zamanda digər hərəkət iştirakçıları üçün təhlükə törədirlər. Ona görə də sürücülər zəhmət çəkib, yol hərəkəti qaydalarına əməl etməlidilər.

## *Endirim, yoxsa adam aldatma?*

**Yeni Günəşli yaşayış sahəsinin "D" massivində təzə bir eynək mağazası açılıb. Orda da iri hərflərlə yazılıb ki, eynəklərə 50 faiz endirimdi.**




Alıcılar da bu reklama inanıb, mağazaya girərək eynək almaq istəyiblər. Satıcılar da deyib ki, bəli, qiymətlər ucuzlaşıb. Eynəyin korpusu 50 faiz ucuzlaşıb, şüşələr isə əvvəlki qiymətədir. Eynəyin əvvəlki qiyməti isə 50 manat olub. Guya korpus ucuzlaşıb, şüşə bahalaşıb. Eynəyin indiki qiyməti də elə həmin qiymətə çatır. Yəni, 50 manata. Bunun harası ucuz oldu? Bax, ona görə də camaat belə endirimlərə tay inanmır.

**Emil FAİQOĞLU**

# İmam Hüseynə ağlayan iki gənc yazar

## AŞURADAN REPORTAJ

**Bu səhər iş yerimə çatanda yolun sağındakı "Hacı Cavad" məscidinin qarşısında xeyli adamın toplaşdığını gördüm.**



Məscidin yan-yörəsində iki-iki, üç-üç polislər dayanmışdı. Qulaqcığımda musiqiyə qulaq asırdım, özü də yüksək səslə. Ətrafdakı səs-küydən qulaqlarım azad olmuşdu. Amma məscidin önündəki izdiham mənə qulaqcığımı çıxartmağı əmr etdi. Qulaqcığı çıxaranda mərsiyə səsini eşitdim. Sonra yadıma düşdü ki, bu gün Məhərrəm ayının onuncu günüdür. Hə, deməli, insanlar bu gün bu məscidə sinə vurmağa, əzadarlıq etməyə yığılıblar.

Diqqətimi çəkdi, telefonumu çıxarıb uzaqdan bu izdihamın şəklini çəkdim. Amma içimdəki bir hiss deyirdi ki, get, gir məscidə. İçimdəki səsə qulaq asdım. Yolu keçib məscidin qapısına yaxınlaşdım. Qapıda polis dayanmışdı, insanları bir-bir yoxlayıb içəri buraxırdı.



*- Komandir, olar keçim içəri, şəkil çəkməliyəm.*

*- Niyə?*

*- Jurnalistəm.*

Polis çiynimdəki çantanı yoxladı. Sonra əlimdəki poşetdə olan yemək qabımı gördü. " Bəs, o nədir?" deyə soruşdu. Dedim, dolmadı, günorta naharımdı, istəyirsən, ayaqüstü bir-iki dənəsinin dadına bax. Polis gülümsəyib məni içəri buraxdı.

Adamların içindən sivişib məscidin giriş qapısına yaxınlaşdım. Bir xeyli ayaqqabı var idi. Adamlarını itirmiş ayaqqabılar. Amma bir o qədər özünü güvəndə hiss edən ayaqqabılar.

Qapının ağzına kimi adam var, içəri keçmək mümkün deyil. Məscidin içində sinəyə çırpılan əl səsləri qəribə bir əks-səda verir. Fonda da kədərli bir səs. Yuxarı qalxıb sinəyə dəyən əllər sinxron şəkildə baş verir. Və bu mənzərini seyr eləmək məndə qibtə hissi oyatdı.

***"Kəsilən qollarına qurban, Ya Əbəlfəzl!"***

İçimdəki ikinci mən dilləndi:

"Dəfələrlə bu cür sinə vurma, baş yarma mərasimlərini tənqid etsən də, oradakı izdiham, hamının bir-birini bu cür dəqiqliklə izləməsi, sinxron şəkildə ritualları yerinə yetirməsi, yenə deyirəm, əslində qibtə olunasıdı da". Bu cümlə təkrar-təkrar məscidin minarəsinə qədər ucalır.

Qəfil əynində seçilmək üçün geyinilən yaşıl jiletli adamlar "Yol açın" deyə-deyə izdihamı Musanın dənizi yardığı kimi yardılar. Yuxarı qalxıb enən əllər də dəniz dalğalarını xatırladırdı.

Durduğum yerdən bir addım da qabağa gedə bilməmişdim. Həm boş ayaqqabılar, həm də girişdəki adamlar imkan vermirdi. Birdən bir-iki nəfər bu ayaqqabıları oradan yığışdırdı. Özümü qapının kandarında tapdım. Amma hələ də məscidin içinə girə bilməmişdim.

Sağ əlimi göyə qaldırmışam ki, yuxarıdan kameraya düşsün bu izdiham.

***"Gəl haraya, hardasan, Ya Hüseyn".***

Ortadan ikiyə ayrılmış izdiham, əllər yuxarı, əllər sinəyə.

Elə bildim, bu dəqiqə İmam Hüseyn izdihamın ortasındakı cığırla keçəcək məscidin başına. Özü də başlayacaq ağlamağa. Yanımda 5-6 yaşlı bir qız uşağı da dayanmışdı. Üzündən görünürdü ki, ətrafda baş verənlərə mat-məəttəl qalmışdı. Bəlkə İmam Hüseyn burada olsaydı, yaxınlaşıb o uşağın gözlərindən öpərdi.

Diqqətim yayındı və bir-birini qucaqlayıb təsəlli verən, "başımız sağ olsun" deyən iki oğlanı gördüm.

İndi bildim ki, əslində "başımız sağ olsun" cümləsi İmam Hüseyndən sonra meydana gəlib. Bundan gözəl arzu varmı?

Mərsiyəxan deyirdi:

***" İmam Hüseynin boğazını kəsmək üçün qılıncı yaxınlaşdırdılar. Amma qılınc kəsmədi. Bir də cəhd etdilər. İmam Zaman, məni bağışla, nooolar. Heyvanın başını kəsəndə bıçaq necə çətin kəsər, bax elə kəsirdilər Hüseynin başını. Gördülər, alınmır. Hüseyni üzü üstə çevirdilər. Boynunun arxasından kəsməyə başladılar. Heyvanı kəsəndə necə çapalayar, ayaqları necə silkələnər, Hüseynin də ayaqları elə silkələnirdi. Çağırdılar, onun ayaqlarını tutdular. İlahi, o boğazı necə kəsmək olar, ordan Zeynəb öpüb, ilahi, onun sinəsindən Peyğəmbər özü öpüb".***

Mərsiyəxan danışdıqca yan-yörəmdəkilərin həqiqətən də gözlərindən yaş gəldiyini gördüm. Öz içimdə bir anlıq bu hadisəyə olan kədərimin atamı itirdiyim günün kədəri bir-birinə qarışdı. İçimdə qəribə bir hüznün bədənimə yayıldığını, ətimin ürpəndiyini hiss elədim. Bacısının gözləri önündə Hüseynin başını kəsirdilər e. Bu hadisə insanı necə ağlatmaya bilər? Bir anlıq təsəvvür edin də, elə bilin ki, İmam Hüseyn sizin qardaşınızdı.

Bu misralar yaddaşımın dərinliklərindən qulağımda canlandı:

"Bu Hüseyn kimdi görən,
aləmi heyran eləmiş,
Çəkib Adəm də adın göz
yaşın giryan eləmiş..."

**Və qəfil bayaq göyə qalxıb insanları telefonla çəkən əlimin yanıma düşdüyünü gördüm. Artıq mən də biixtiyar sağ əlimlə sinəmə vururdum, gözlərimsə dolmuşdu.**

**Arxama çevrildim, gördüm ki, iş yoldaşım Ayxan Ayvaz da gözləri dolmuş halda əllərini dizlərinə çırpır.**

**Eminquey**

# Ceyhun Məmmədov: "Əfqan xalqı öz taleyinə sahib çıxmalıdır"

**Dünən Əfqanıstanda bütün bölgələri ələ keçirən Taliban rəsmən ölkənin yeni hakimiyyəti olduğunu bəyan etdi. Beləliklə, ABŞ hökümətinin 2001- ci ildən başladığı Əfqanıstan hərəkatı yenə də fiaskoya uğradı. 20 il ərsində Amerika Birləşmiş Ştatları nəinki Əfqanıstanı talibançılardan təmizləyə bildi, hətta ölkəni onlara buraxıb qaçdı. Taliban höküməti dünən paylaşdığı bəyanatda əvvəli hakimiyyət dövrü ilə müqayisədə daha loyal olacağını elan etsə də, bunun yalnız boş vəd olduğu deyilir.**

Milli məclisin deputatı, tanınmış şərqşünas Ceyhun Məmmədov "Adalet.az"-a açıqlamasında Əfqanıstanda baş verənlərin bütövlükdə bölgəyə və bir sıra müsəlman ölkələrindəki ictimai-siyasi duruma təsirsiz ötüşməyəcəyini dedi. Onun sözlərinə görə, nu ölkədə baş verənlərdə digər müsəlman ölkələri üçün ciddi mesajlar var.

"Bu gün elə müsəlman ölkələri var ki, müstəqillik tarixinin 50, 100 və daha çox olmasına baxmayaraq hələ də nə dövlət nə də ordu qıra biliblər. Azərbaycan 30 ildə böyük inkişaf yolu keçib. Bu gün Azərbaycan ordusu dünyanın 50 güclü ordusu sırasındadır. Azərbaycan ordusu işğal altında olan torpaqlarını düşməndən azad edib".



Millət vəkili açıqlamasında onu da əlavə etdi ki, hazırda bölgədə də çox ciddi proseslər gedir. Onu fikrincə, bu hadisənin Orta Asiya ölkələrinə və digər müsəlman dövlətlərinə ciddi təsiri olacaq. Bunun da əsas səbəbi ABŞ-ın yenə də Şərqdə fiaskoya uğramasıdır.

"Amerika Əfqanıstanda başlatdığı işi davam etdirməliydi, yarım qoymamalıydı. Amma baş verənlər göstərdi ki, ABŞ sonacan getmədi. Əfqanıstan layihəsinə ABŞ külli miqdarda pul ayırmışdı. Əfqanıstandan geri çəkilməsi onu göstərdi ki. həmin vəsait boş yerə sərf edildi. ABŞ-ın özündə də siyasətçilər Əfqanıstanla bağlı qəbul edilən son qərarı ciddi çəkildə tənqid edirlər. Hətta Baydeni istefaya səsləyənlər var. Bölgədə ciddi siyasi oyunlar cərəyan edir. Bilirsiniz ki. bir müddət əvvəl Taliban Rusiya rəsmiləri ilə görüş keçirdilər və burada müəyyən mövzuda uzun müzakirələr getdi. Hesab edirəm ki, burda ən böyük məsuliyyət daşıyan da xalqdır. Əfqan xalqı öz taleyinə sahib çıxıb, düzgün yol tutmalıdır. Təəssüf ki, uzun yol keçməsinə baxmayaraq əfqan xalqı bu prosesi tam mənada tənzimləyə bilmədi. Ona görə də, hesab edirəm ki, görüləcək işlər çoxdur. Radikalizmlə bağlı müsəlman ölkələri öz siyasətlərini düzgün qurmalıdırlar. Elə etməlidirlər ki,. gənclər sağlam ruhda, sağlam mənəviyyatda yetişsinlər",- deyə C.Məmmədov qeyd etdi.

**İLTİFAT**

# Fuad Əliyev: "Jirinovskinin müəyyən məbləğdə pul xahişini..."

**"Jirinovskinin rəhbərlik etdiyi Rusiya Liberal Demokrat Partiyası liberal və demokratik dəyərlərdən uzaq millətçi partiyadır. Ümumiyyətlə, Azərbaycan Liberal Demokrat Partiyası ilə Rusiya Liberal Demokrat Partiyası arasında hazırda hansısa əlaqə mövcud deyil".**

Bu sözləri Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev "Adalet.az" saytına açıqlama verərkən deyib.

Partiya sədri bildirdi ki, rəhbrlik etdiyi partiyanın Rusiya LDP ilə 2004-2008-ci illər arasında əməkdaşlıq edib:

"Bu dövrlər arasında Jirinovski bir kəlmə də olsun Azərbaycan xalqının əleyhinə danışmayıb.

Hətta erməniləri həmişə söyüb, təhqir edib. Amma





2008-ci ildə bu əməkdaşlıq bizim tərəfimizdən bu əməjdaşlıq dayandırıldı, o vaxtdan da onunla heç əlaqəmiz olmayıb.

O dövrdə, mən onun bizim hakimiyyət ilə görüşmək, həmçinin müəyyən məbləğdə pul verilməsi ilə bağlı xahişini, həmçinin Rusiya-Azərbaycan münasibətləri ilə bağlı bəzi təkliflərini mən yuxarı instansiyalara çatdırdım.

Təbii ki, bizim hakimiyyət də o təklifləri qəbul etmədi. Ondan sonra Jirinovski oldu bizim düşmənimiz". F.əliyev onu da vurğuladı ki, Jirinovskinin 2014-cü ildə Bakıya səfərindən xəbərsiz olub: 2014-cü ildə Azərbaycana səfərə gələndən sonra güman edirdik ki, V.Jirinovski ölkəmizə qarşı sərsəm fikirlərindən əl çəkəcək. Təəssüf ki, bir qədər sonra V.Jirinovski öz ampluasına qayıtdı.

Onun sonuncu fikirləri ikrah hissi və hiddət doğurur. Belə ki, V.Jirinovskinin bu şəkildə fikirlər bildirməsi kimliyindən asılı olmayaraq, bütün Azərabycan vətəndaşlarını qəzəbləndirir".

**İLTİFAT**

Aqil ABBAS

# GET ONUN ÇORTUNA, GÖR NƏ GÖRƏRSƏN?!

*Avqustun 16-sı Azərbaycanın dahi şairi...*

*... Ulu Öndər Heydər Əliyev Məmməd Arazla görüşü zamanı təxminən belə demişdi ki, Azərbaycanı müstəqilliyə gətirən onun şairləri, sənətkarları olub. Düzdür, sərkərdələrin də rolu olub, amma şairlərinin, sənətkarlarının rolu daha çoxdu...*

*... Yəni biz bu gün müstəqiliksə, borclu olduqlarımızdan biri də Bəxtiyar Vahabzadədir. İndi Nizami ilidir, gün gələcək Səməd Vurğun ili, Rəsul Rza ili, Bəxtiyar Vahabzadə ili,*



*Məmməd Araz ili, Söhrab Tahir ili, Xəlil Rza ili keçiriləcək. Mən keçmiş şairləri yazmadım, mən İstiqlal şairlərini yazdım. Və bura Nəriman Həsənzadəni də əlavə edirəm. Bilirsiniz də, bizdə ölməyənə qədər şairlərin böyüklüyü bilinmir. Cabir Novruzun ruhu bağışlasın ki, onu yadımdan çıxarmışdım...*

*... Bəxtiyar Vahabzadənin anadan olmasının 96-cı ildönümüdür.*

*Bəxtiyar müəllim şəxsən mənə iki il dərs deyib, özü də Azərbaycan Sovet ədəbiyyatından. Heç vaxt bizə Azərbaycan Sovet ədəbiyyatından mühazirə oxumadı. Deyirdi ki, kitabları da çap olunub, haqlarında məqalələr də yazılıb, namizədlik, doktorluq da müdafiə olunub, gedin tapın, oxuyun.*

*Bəxtiyar müəllim bizə XX əsrin 20-ci illərinə qədər və daha ondan əvvəl yazarlardan mühazirə oxuyurdu: Əli bəy Hüseynzadədən, Əhməd bəy Ağayevdən, Ömər Faiq Nemanzadədən, Ziya Göyalpdan (hərçənd ki o, Osmanlı Türkiyəsinə aid idi), Üzeyir Hacıbəyovun çap olunmamış əsərlərindən...*

*... sonradan Şirməmməd Hüseynov Üzeyir bəyin həmin əsərlərini tapıb "525-ci qəzet"də nəşr etdirdi...*

*... Hüseyn Cavidi (bizim bilmədiyimiz Hüseyn Cavidi), Cəfər Cabbarlını (bizim bilmədiyimiz Cəfər Cabbarlını, məsələn, "Ədirnənin fəthi", "Trablis müharibəsi")...*

*... bunlardan mühazirə oxuyardı.*

*Bir tələbə dostumuz Müslüm kurs işi yazır və müdafiə edir. Kurs işi də Müsavat və sonrakı dövrlə bağlıdır. Təbii ki, Müslüm (indi professordu və həqiqətən çox savadlı və ağıllı oğlandı) Müsavat hökumətini söyür. Söydü, söydü... Bəxtiyar müəllim də siqaret çəkə-çəkə auditoriyada gərdiş eləyir. Birdən dayandı və Müslümdən soruşdu:*

*- Oğlum, sən harda oxuyursan?*

*- Başa düşmədim, Bəxtiyar müəllim?*

*- Niyə başa düşmədin, soruşuram harda oxuyursan?*

*- Azərbaycan Dövlət Universitetində.*

*- Oğlum, bu universiteti min doqquz yüz on doqquzuncu ildə sənin o söydüyün Müsavat hökuməti yaratmışdı ki, sənin kimi yetim-yesir övladları gəlib oxusunlar. Söy oğlum, söy, yaxşı edirsən.*




*Bu, auditoriyada bomba effekti yaratdı. Müslümü yendirdi aşağı, özü keçdi önə və Müsavat hökumətinin necə bir hökumət olduğunu biz Müsavatsöyərlərə anlatdı. Düzdür, anlayan anladı, anlamayan yenə indi də Müsavatı söyür.*

*Bəxtiyar müəllim "baba" demirdi, "boba" deyirdi: "Bizim bobalarımız..." sonradan bizim "boba"larımızdan danışardı. Və bizi həmin babaların üstündə kökləməyə çalışardı. Hərdən də belə bir sözü vardı:*

*- Bir kərə yüksələn bayraq bir daha enməz!*

*Sonra da deyərdi ki, gedin bunun "çortuna", gör nə görərsiz?*

*"Gedin bunun çortuna, gör nə görərsiz?" bu ifadəni tez-tez işlədərdi.*

*Deməli, avqustun 14-də durdum xanımımı da vurdum qoltuğuma, getdik Şəkiyə. Dostumuz Murad Nəbibəyovu da götürdük və dahi şairimiz Bəxtiyar Vahabzadənin Şəkidəki ev muzeyini ziyarət etməyə yollandıq.*

*Muzeyin direktoru Elşən müəllimlə birlikdə qeyri-adi bir gün yaşadıq.*

*Onu da qeyd edim ki, biz orda olanda muzeyin bir neçə əlavi qonağı vardı. Muzeyin yolu Kəlbəcər yolundan daha ağırdı. Doğrudanmı bu böyük dahi şairin ev müzeyinə gedən yolu səliqəyə salmaq mümkün deyil?*

*Nə isə, çox çətinliklə getdik ev muzeyinə, Bəxtiyar müəllimin doğulduğu bu evin həyətində bir çay içdik, muzeyin direktoru Elşən müəllimlə xeyli dərdləşdik. Həmin vaxt muzeydə olan qonaqlar "jivoy" deputat görüb şəkil çəkdirmək istədilər və şəkil də çəkdirdik.*

*Bizdə uzun yazıları oxumurlar. Ona görə də vəziyyət uruscadı. Trolların şərhlərini oxuyurlar və sair və ilaxır. Deyəsən, mənim də bu yazım uzun çıxdı, oxumayacaqlar. Amma biz, Mirzə Cəlil demiş, hamamda yatanlar üçün yazmırıq, oxuyan oxuyacaq.*

*Mən də bu həftəni Bəxtiyar Vahabzadəyə həsr edirəm. Çalışacam ki, mənim Aqil Abbas olmağımda xüsusi rolu olmuş Bəxtiyar Vahabzadə haqqında xatirələrimi oxuculara çatdırım.*

*Bunun İsfəndiyar Vahabzadənin Jirinovskiyə söyməyinin heç bir dəxli yoxdur. Jirinovski bizə söymüşdü, İsfəndiyar da cavabını verib. Açıqlamalarımda demişəm, "söymə mənim rəiyyət dədəmi, söyməyim sənin bəy dədəni".*

*Saytımızı və qəzetimizi izləyin.*

*Aqil ABBAS*

# KƏLBƏCƏR BALI BELƏ REKLAM OLUNMAMIŞDI

***Azərbaycanda dörd bal brendi var: Gədəbəy, Daşkəsən, Şahbuz və Kəlbəcər balı. 30 ildir ki, hamı Kəlbəcər balına həsrətdir. Uşaqlığım və gəncliyim Kəlbəcər dağlarında, İstisuda, Taxtada, Yüzbulaqda, Dəlidağda keçib. Bu dağlarda bəlkə min bir çiçək bitir. Arılar da şirələrini bu min bir çiçəkdən çəkir. Kəlbəcər və Şahbuz balını fərqləndirən bir əlaməti də var, təkcə mədə-bağırsaqdakı yaraları təmizləmir, həm də dərinizə düşən yaranın üstünə və yaxud kəsilmiş bir yaranın üstünə həmin baldan bir balaca sürtsəniz çox qısa zamanda sağalır. Körpə uşaqların ki bədəni səpir, allergiya olur ha, Kəlbəcər və Şahbuz balından bir çay qaşığı ona dadızdırın bir neçə saatın ərzində görəcəksiniz ki, allergiyası da getdi, səpməsi də.***

***Kəlbəcər balı belə reklam olunmamışdı.***

***Möhtərəm Prezident İlham Əliyev xanımı, birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə Kəlbəcərə və Laçına səfəri zamanı Kəlbəcərdə arıçıların qonağı oldu. Çox mehriban söhbət elədi arıçılarla. Arıçılar da Prezidentə bir çərçivə bal bağışladılar. Və Kəlbəcər balı Prezidentin çox xoşuna gəldi.***

***Və bütün dünya da bunu izlədi. Və Azərbaycanda brend olan Kəlbəcər balı indi dünyada bir brendə çevrildi.***

# Ümidi üzülən vətəndaş millət vəkilinə üz tutdu

***Azərbaycan Respublikası Milli Məclisinin deputatı cənab Aqil Abbasa***

Binəqədi rayonu Biləcəri 2y/y mas, dön 2, ev 32-də yaşayan Sadıqova Solmaz Mirpaşa qızı tərəfindən

**Ərizə**

Bildirirəm ki, mən ali təhsilli, 40 il iş təcrübəm, 33 ilini eyni müəssisədə (peşə təhsili sahəsində) II qrup əliləm, himayəmdə 2 övladım var. Həyat yoldaşım I Qarabağ Müharibəsi başlayanda işini, vəzifəsini qoyaraq könüllü olaraq müharibəyə yollanmışdır. Ağır Artileriya komandiri olaraq düşmənin qaynar nöqtələrinə ağır zərbələr endirmişdir. Canından, qanından keçərək II qrup əlil olmuş və dünyasını dəyişmişdir. Tənha anayam. II qrup əlilliyim də kəsilmişdir. Çox acınacaqlı durumda yaşayıram. Oğlum magistraturada təhsil alır. Ödənişin vaxtı yaxınlaşır. Heç kimdən təmənnam yoxdur. Sadəcə olaraq haqq ədalətin bərpa olunmasını istəyirəm.

Mən Sənaye və İnnnovasiyalar Üzrə BDPT mərkəzində işləyirdim. Heç bir xəbərdarlıq, töhmət və tənbeh tədbiri almamışam. İşimdə vicdanla çalışmışam. Lakin 2019-cu ildə mərkəzə təyin olunmuş direktor müavini Xalidə Hümbətova ayrı seçkilik salaraq, məni qanunsuz olaraq işdən çıxartdı. (2020-ci ildən). 1 ildir ki, işsizəm.

Pandemiya dövründə Prezidentimizin çıxışlarına məhəl qoymayaraq işdən çıxarıldım. Tənha Anaya qoyulan hörmət budur?

Dəfələrlə xahiş etdiyimə baxmayaraq, inadkarlıq edərək məni pis duruma saldı. Stresdən ürək kateterizasiyası olundum. Var olsun! Heydər Əliyev Fondunun Prezidenti, Birinci xanım Mehriban Əliyeva. Onun sayəsində,işdən çıxarılmağımla əlaqədar 17.11.2020-ci ildə Respublika Həmkarlar Təşkilatına müraciət etdim. Müraciətim əsasında sənədlərim araşdırılıb, yoxlanıldıqdan sonra məhkəməyə müraciət etməyim bildirildi (sənədə əsasən).

07.12.2021-ci ildə Binəqədi rayon Məhkəməsinə müraciət etdim.

Sənədlərim yoxlanıldıqdan sonra məhkəmə qərara aldı ki, ayrı seçkilik salınaraq qərəzli şəkildə, qanunsuz olaraq işdən çıxarılmışam və öz işimə bərpa olunmalı, əmək haqqım ödənilməlidir. Direktor müavini Xalidə Hümbətova inadkarlıq edərək işə qayıtmağıma (bərpaya) maneçilik törədir. Mərkəzin direktoru da mənəm, naziri də mənəm, kimə istəyirsən şikayət et! Mənə nə edəcəksən? Sənin yoldaşını müharibəyə mən göndərməmişəm, getməzdi deyərək, məhkəmənin qərarını saymır. (sənədə əsasən)

Növbəti dəfə sənədlərim Apellyasiya Məhkəməsinə göndərilmişdir. Təşəkkür edirəm Apellyasiya Məhkəməsinə, sənədlərimi araşdırıb yoxladıqdan sonra qərara almışdır, işimə bərpa olunmalı və əmək haqqım ödənilməlidir. (sənədə əsasən)

Lakin X.Hümbətova məhkəmənin qərarlarını saymır.

Hörmətli millət vəkili. Sizin bu işə qarışıb kömək etməyinizi xahiş edirəm.

İmza: Sadıqova Solmaz

Redaksiyadan: Solmaz Sadıqovanın işi ilə bağlı iş hazırda Ali Məhkəmənin icraatındadır. Solmaz xanımın Azərbaycan Milli Məclisinin deputatı Aqil Abbasa ünvanladığı ərizəsini aidiyyatı üzrə baxılması üçün Ali Məhkəmənin sədri cənab Ramiz Rzayevəyə göndəriləcək. Ümid edirik ki, rayon məhkəməsinin və Appelyasiya Məhkəməsinin cıxardığı ədalətli Qətnamələri Ali Məhkəmədə də təsdiqini tapacaq.

Sənaye və İnnovasiyalar Üzrə BDPT Mərkəzinin direktor müavini Xalidə xanım Hümbətovaya isə xatırlatmaq istəyirik ki, Azərbaycan Məhkəmələrinin çıxardığı Qətnamələr vəzifəli şəxslər tərəfindən mütləq icra olunmalıdır. Əks halda məsuliyyət daşıya bilərsiniz.

**Hüquq şöbəsi**

# POLİSƏ ARXA DURAQ

**Bu gün ölkəmizdə narkomaniyaya qarşı çox güclü mübarizə gedir. Və bu da təsadüfi deyil. Çünki "ağ ölüm" milyonlarla insana fəlakət, faciə, göz yaşı gətirir. Bir çoxları düşünmürlər ki, onların qurşandıqları pis vərdişlər cəmiyyəti və mühiti qaranlığa, cəhalətə sürükləyir. O pis vərdişlərin də günbəgün aludəçisi çoxalmaqda davam edir. Elə ən narahatedici fakt da məhz bunlardır.**

Ona görə də artıq xeyli vaxtdır ki, Daxili İşlər Nazirliyinin Narkotiklərə Qarşı Mübarizə İdarəsi bəşəriyyətin faciəsi olan bu bəlaya qarşı əsl mücadiləyə və mübarizəyə başlayıb. O mübarizəyə ki, minlərlə insan yenidən bu bəlaya tuş gələ bilər, çoxlu sayda ailələr ağır faciə yaşayır. Əlbəttə, DİN-nin bu mübarizəsi ölkə əhalisi və geniş ictimaiyyət tərəfindən alqışlanır, dəstəklənir. Çünki millətin əxlaqi dəyərlərinin və gənc nəslin vətənpərvərlik uğrunda yetişməsi üçün bu mübarizə çox əhəmiyyətlidir. Ən azından ona görə ki, "ağ ölüm" aludəçiləri həmişə digər yeniyetmələri və gəncləri bu bataqlığa sürükləyir.

Təsəvvür edin, bir məhlədə, bir yaşayış binasında bir-iki gənc bu bəlaya düçar olubsa, onlar öz əhatə dairəsini genişləndirmək üçün çoxlu sayda insanları o mühitə cəlb edirlər. Xüsusən də, o insan varlı ailənin övladıdırsa, bu narkomanların daha böyük maraq dairəsindədi.

Dünyanın hər yerində bəşəriyyət üçün böyük təhlükə olan "ağ ölüm"ə qarşı birmənalı olaraq yüksək səviyyədə mübarizə təşkil edilir. Bu gün də tam məsuliyyətlə deyə bilərik ki, Azərbaycan ərazisində Daxili İşlər Nazirliyinin narkotiklərin yayılması və qeyri-qanuni satışı ilə bağlı çox möhtəşəm əməliyyatlar gerçəkləşdirilir. Artıq bu əməliyyatlar respublikamızın bütün ərazisini əhatə edib. Sosial şəbəkələrdə və



eləcə də müxtəlif şəhər, rayon və qəsəbələrdə onun satışı ilə məşğul olanlar polis tərəfindən axtarılıb tapılaraq məsuliyyətə cəlb olunub.

Son vaxtlar neçə-neçə belə narkotiklə məşğul olan və onun satışını təşkil edən şəbəkələr ifşa edilib. Onların sayı 100-lərlədir.

Qeyri-qanuni narkotiklə alver edənlərin arasında qocalar da var, orta yaşlılar da, gənclər və yeniyetmələr də.

Hətta onların sırasında məktəbli uşaqlar da gözə dəyir. Bu isə o deməkdir ki, yeni böyüyən yeniyetmələrin və gənclərin bu pis vərdişə cəlb etməyə çalışan qüvvələr mövcuddur. Təbii ki, DİN-nin Narkotiklərə Qarşı Mübarizə İdarəsi zaman-zaman bu qüvvələri müəyyənləşdirir, aşkarlayır və üzə çıxarır. Ən qəribəsi odur ki, "ağ ölüm"lə oynayanların əksəriyyəti uzun müddətdir onun satışı ilə məşğuldur. Hətta neçə-neçə yaxalanmış narkotika alverçisi sonradan məlum olur ki, əvvəllər onun alveri ilə məşğul olduğu üçün məhkumluq həyatı yaşayıb.

Bu bəlaya qarşı bütün dünya mübarizə aparır. Amma onun qarşısını hələ də tamamilə almaq mümkün deyil. Çünki dünyada üç sahədə böyük qazanc əldə edən kriminal elementlər həmişə narkotikanın satışına böyük maraq göstəriblər.

Bu sahələrdən biri silah alveri, digər insan alveri, bir başqası isə narkoticarətdir. Ona görə də bir çox kriminal şəbəkələr varlanmaq üçün narkotikin satışına daha çox maraq göstərirlər. Amma nə yaxşı ki, bu gün Azərbaycanda DİN tərəfindən bəşəriyyətin böyük bəlası olan "ağ ölüm" ə qarşı belə sistemli bir mübarizə təşkil edilib.

Təbii ki, təkcə polisin gücü ilə cəmiyyətimizdə bu bəlanın qarşısını tamamilə almaq mümkün deyil. Bu işdə Azərbaycan polisinə bütün xalqımız, dövlətimiz və millətimiz kömək etməlidir. Bütün cəmiyyət və ziyalı mühit birmənalı olaraq əhali arasında maarifləndirmə işə aparmalıdır ki, hər bir yeniyetmə, hər bir gənc və hər bir insan bu bəlanın faciəsini anlamalıdır. Bu bəlanın faciəsini və kökünü anlayan adam heç vaxt narkotika satışı ilə pul qazanmaq istəməz və bir də müqəddəs kitabımız olan "Qurani-Kərim"də narkotikadan istifadə etmək və yaymaq çox haram sayılır.

Sözümüzün canı ondan ibarətdir ki, necə Qarabağ uğrunda 44 gün savaş aparıb ərazilərimizi erməni işğalından azad elədik, bax, indii də hamılıqla ayağa qalxıb xalqımızı və millətimizi bu bəladan qurtarmağa çalışmalıyıq. Kütləvi İnformasiya Vasitələri, televiziyalar, saytlar əhali arasında maarifləndirmə işlərini genişləndirməlidi.

Televiziyalarda əttökən və düşük verilişlərdənsə, bu cür maarifləndirici sujetlərə və çəkilişlərə daha çox ehtiyac var. Üstəlik də, tanınmış ziyalıların, məktəbin və eləcə də cəmiyyətin bu prosesdə üzərinə çox böyük yük düşür və bu yükün altına biz hamılıqla çiyin versək, inanın, bəşəriyyətin böyük bəlası olan "ağ ölüm"dən də çıxış yolu tapa bilərik.

**Sadəcə olaraq hamı bir yumruq kimi birləşməli, dövlətin və xalqın arxasında durmalı, narkotikanın yayımı ilə məşğul olan bütün şəbəkələrə qarşı mücadilə edən Azərbaycan polisinə dəstək olmalıyıq. Əgər belə etsək, biz istəyimizə nail olacağıq. Yaxamızı qırağa çəkib, hər şeyi polisin üstünə atsaq, övladlarımızı, nəvələrimizi və nəticələrimizi daha böyük faciələr gözləyə bilər.**

**Faiq QİSMƏTOĞLU**



*EMİN PİRİ*

# VİRUS QULDARLIĞI

**Filləri bir çoxunuz bilirsiniz necə əhilləşdirirlər. Öncə filin keçəcəyi yerdə quyu qazılır, üstü yarpaqlarla və.s örtülür ki, fil burada quyu olduğunu bilməsin. Fil o quyuya düşdükdən sonra qara rəngə boyanmış adamlar fili nizələrlə, daşla incidir, onları quyuda günlərlə ac-susuz saxlayır. Bir neçə gündən sonrasa həmin qara rəngə boyanmış adamlar ağ rəngə boyanır. "Ağ"a çevrilən adamlar bu dəfə fillərin yarasını sarıyır, onları müalicə edir, su və yem verir. Beləliklə, həmin fillər bu "ağ"ları özlərinin xilaskarı bilir və ömür boyu onlara qul kimi xidmət edir. Bəli, bizi bir çox hallarda xilas edən "ağ"lar elə "qara"lardır. Bu virus əgər insan əməliylə yaradılıbsa, elə həmin adamlar da bizi xilas edəcək. Bizsə onları bütün dünya mükafatalarına boğacağıq, xilaskarımız kimi görəcəyik. Azad olduğumuzu düşündüyümüz halda onların rifahı üçün çalışdığımızı, əslindəsə onların qulu olduğumuzun fərqində olmayacağıq. Bəli, bu müasir kapitalist quldarlığıdır.**

Terror təşkilatları, ölkələrdə çaxnaşmalar, gözümüzün önündə qurulan radikal, terror dövlətləri…

Sanki hamısı bir əldən çıxmış və ya bir nəfər tərəfindən redaktə olunmuş layihələrdir. Bizlərsə o layihələrin qurbanları.

Bizə xilas vəd edirlər. Bu xilası vəd edənlər də bizi həmin çirkaba bulaşdıranlar, dünyanının müasir rəsmini çizənlərdir. Eynən fillər kimi.

Bizə azadlıq vəd edirlər. Amma öncə bu "vəd"çilər bizi tərübə siçanları kimi yoxlayır…

Bizə azadlıq verirlər, amma öncə azadlığı alırlar. Beləliklə, müasir dünya bizi elə "müasir qullar"a çevirir. Klassik quldarlıqdan fərqi odur ki, biz qul olmağımınızın fərqində deyilik. Və qul ola-ola özümüzün azad olduğumuzu düşünürük. Çünki beynimizə belə yeridiblər.

Virus tanrı deyil ki, onun var olub-olmaması haqqında illərlə fikir yürüdəsən. Hər iki tərəf də bir-birini ittiham edə. Bu elmin təsdiqləyəcəyi və inkar edəcəyi işdir. Ya var, ya yoxdu. Problem onda yaranır ki, elm də cibi zorluların sözüylə hərəkət edir. Bax, onda əsl həngamə başlayır. Tanrının varlığı bu qədər mübahisəli olmur. Koronavirus pandemiyasına görə dünyada karantin rejimləri uzanacaq kimi görünür. Niyə uzadılır, niyə qarşı çıxılır, niyə bu qərarı müdafiə edənlər var-hər birinin ayrı arqumenti, düşüncələri və mənafeləri var.

Məhz mənafe! Bu mənafenin altında siyasi, iqtisadi, biznes maraqları yatır desək yanılmarıq. Məhz maddi və siyasi maraqlar!İstər qarşı çıxanlar, istərsə müdafiə edənlər. Kütlə nə deyir? Kütləni boş verin, hər biri bu qrupların dediyi fikirlərin hipnozunda bir-birini ittiham edən qurbanlardı. Virus var, sadəcə virusun yazdığı deyil, özlərinin yazdığı ssenarini təqdim edirlər. Hər iki tərəf. Bəlkə dünyada gedən karantin formaları zənginləri kasıblardan qorumaqçündür? Onsuz da karantin qaydalarının varlılara aidiyyatı yoxdur. Şəxsi təyyarə, şəxsi istirahət guşələri və əlaqələrin yaratdığı karantini pozmaq qaydaları. Daha dəqiq baxsaq, kasıbları izolyasiya edirlər.

Dünyanın bir çox yerində karantinin yaratdığı stres, psixoloji təsirlər kokain və digər narkotik alışını 12 qat artırıb. Insanlar karantinin yaratdığı stresi, psixoloji problemlərini süni vasitələrlə həll etməyə çalışır. Təsəvvür edin, 12 dəfə artıq narkotik milyardları. Məsələn, 1 milyard gəlir əldə edən narkobaron bu əsasda gəlirini 12 milyarda çıxardır. Həmin sahənin gizli maqnatları( onların maliyyələşdirdiyi və ya himayə etdiyi media, siyasətçilər, "ziyalılar" və.s) niyə də bu pandemiya zamanının uzanmasını istəməsin? Niyə də qorxu təbliğatı aparmasın? Belədə gəlir də artır, yeni siyasi kadrlarını yerləşdirməyə, yüksəltməyə şərait də. "Xaç atası" filmində mafiya başçısının dediyi kimi, bizim mediada çoxlu dostlarımız var. Bu təbliğatlar, daha doğrusu ssenaridə qeyd edilmiş yalanlar zaman keçdikcə beyinlərdə həqiqətə çevrilir. Müasir dövrdə bu illuziyanı yaratmaqçün Göbbels olmağa ehtiyac yoxdur.

Himayəçi qardaşların cibi bəs edir. Onlayn biznes, kazinolar, yeni formatlanmış bank sektoru bazarı ələ keçirə bilirsə, bu dünya karantin dövrünü uzatmaqda, təbliğat aparmaqda niyə maraqlı olmasın? Niyə özlərinin himayə etdiyi ziyalılar, həkimlər, media vasitəsilə qorxulu pandemiya havası əsdirməsin?

Korona bitəcək də. Amma indi yox, hamının yoluxma qorxusu( bununçün hələ bir neçə milyon dünya əhalisinin ölməsi lazımdı) tam beyinlərə yeridiləndə, bütün ölkələri və rəhbərliyini adambaşı ( ya da daha böyük həcmdə)vətəndaşına dərman, vaksini almağa razı salanda və qazandıqlarından daha artıq qazanmaq mümkün olmayanda. Bu o zaman bitəcək ki, insanlara virus tam olaraq adiləşəcək. Bundan daha artığını qazanmaq mümkün olmayacaq. İnsanlar bunu adi qəbul etdikdən, vecinə almadıqdan sonra yeni layihələrə , ideyalara ehtiyac yaranacaq.

Daha artıq narkotik gəliri əldə etmək, terror və özlərinin yaratdığı bu terror dövlətlərinin hesabına yeni silahların yoxlanış poliqonuna sahiblənmək, orqan, insan, muzdlu ordulara sahib olmaq... Və.s nələri demək olmazki?!

Hə eynilə bizim xilaskarlarımız...

**Məşhur bir film var, "Vendetta". Nədənsə yadıma düşdü. Eynilə bugünkü olayları xatırladır. Dünya üzərində siyasi və iqtisadi hökmranlığa iddia edənlər yeni virus yaradır. Insanlar virusdan ölməyə başlayır. Hamı qorxu içində... Pandemiya yayıldıqdan sonra öncədən məlum olan dərman, vaksinlərini isə "xilaskar"lar bazara çıxarırlar. Bu zaman xilaskarların siyasi kadrları da hakimiyyətləri ələ keçirir. Axı, onlar dünyanın xilaskarıdır. Yeni dünya düzənlərini yaradırlar... Həm də adama arada elə gəlir ki, ölkələri test edirlər. Hər hansı belə bir müharibə və çaxnaşma yaratmaq lazım olarsa, xalqların, onların birləşmə gücü, potensialı, hakimiyyət, media, güc orqanlarının bir-birinə inam və onları kontrol gücü və.s. Sanki təcrübə siçanlarıyıq. Hə, bu virus doğrudan da var, qorunmaq da lazımdı, amma təcrübə siçanı olmağa və filə çevirməklərinə imkan verməyək deyərdim. Amma bu dünya üçün başqa nəyə yarayırıq? Hansı üstün meyarlarımıza görə təcrübə üçün istifadə edilə bilmərik? Elə ən yaxşısı bizi təcrübə siçanı kimi yoxlasınlar. Bəlkə o zaman dünyaya, elmin inkişafına bir töhfəmiz olar.**

*Aqil ABBAS*

# CIDIR DÜZÜ NİYƏ MÜQƏDDƏSDİR?

*Axırıncı dəfə Cıdır düzündə 91-ci ildə olmuşam. Üstündən 30 il keçir, yəqin bu gündən sonra Cıdır düzündə istədiyim vaxt olacam.*

*91-ci ildə niyə Şuşaya və Cıdır düzünə getmişdim, bu ayrı bir yazının mövzusudur, onu da ayrıca yazacam. Yəni sizi yormaq istəmirəm. Hərçənd ki siz də uzun yazıları oxumağı xoşlamırsınız və daha çox hansısa iki qadın müğənninin dodaq-dodağa öpüşməsi sizi daha çox maraqlandırır, nəinki Cıdır düzü.*

*Bəli, axırıncı dəfə 91-ci ildə Cıdır düzünə ayağım dəyib, Şuşaya silah-sursat aparmışıq.*

*Nə isə...*

*Təbii ki, insanların çoxunun Cıdır düzünün müqəddəsliyi, tarixiliyi haqqında məlumatı yoxdur. Çünki bu barədə az yazılıb, onu da indiki nəsil oxumayıb. Mənim bu yazdığım yazını da uzaqbaşı 3-5 min adam oxuyacaq. Amma bunu yazmaq lazımdı, o 3-5 min adam üçün yazmaq lazımdı.*

*Mirzə Cəlil yazır ki, sözünü o kəslərə de ki, onlar sənə qulaq asmır, ya hamamda yatırlar, ya da xoruz döyüşdürürlər və sair və ilaxır.*

*Şükürlər olsun ki, indi hamamda yatan yoxdur, çünki Operativ Qərargah hamamı qadağan edib, xoruz döyüşdürmək də yasaqdır. Deməli, bizim yazımızı heç kim oxumur.*

*Oxumasınlar, biz təkcə bu gün üçün yazmırıq, həm də sabah üçün yazırıq. Necə ki, Mirzə Cəlil, Haqverdiyev, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Ömər Faiq Nemanzadə yazıblar, oxumayıblar, amma bir əsr sonra onların yazdıqları bestseller olub.*

*Qayıdaq Cıdır düzünə. Dedim axı, axırıncı dəfə bu düzdə 91-ci ildə olmuşam. Allaha şükür ki, indi yollar açılıb və insanlar gedib Cıdır düzünü görür. Amma görən həmin Cıdır düzünə gedənlər hara getdiklərini bilirlərmi? Səmimi deyirəm, 90 faiz bilmir. Gedənlərin 90 faizi şəkil çəkdirməyə və sair və ilaxıra gedir və Cıdır düzü haqqında məlumatları yoxdur.*

*İndi mənim yazımı oxuyub deyəcəklər ki, bilirdik. Və əgər bilirsinizsə niyə indiyə qədər biriniz Cıdır düzünün tarixi bir məkan, muzey və müqəddəs bir yer olduğu haqqında bircə kəlmə yazmamısınız? Yazmısınızsa, göstərin görək.*

*Cıdır düzü həm tarixdi, həm muzeydi, həm də müqəddəs bir yerdi.*

*Tarixdi ona görə ki, orda Pənah xan olub, İbrahim xan olub, Mehdiqulu xan olub, Məmməd bəy Cavanşir Batmanqılınc olub, Natəvan olub...*

*Cıdır düzündə Pənah xanın, İbrahim xanın, Mehralı xanın, Məmməd bəy Cavanşir Batmanqılıncın, Mehdiqulu xanın həm özlərinin, həm də atlarının ayaq izləri var.*

*Bir dəfə oxudum ki, Luvrda müəyyən yerləri qızıl çərçivəyə alıblar ki, Napoleonun bu yerlərə ayağı dəyib. Mən demirəm Cıdır düzündə də haralarısa qızıl çərçivəyə alaq ki, bura Pənah xanın özünün və yaxınlarının ayağı dəyib. Hələ bizdə o hiss yaranmayıb.*

*İnşallah, Şuşanın azad olunmasında verdiyimiz 3 min şəhidin bir gün ayaq izlərinin dəydiyi yer də belə müqəddəsləşə bilər.*

*Cıdır düzü adi düz deyil, yenə deyirəm, bir tarixdi, bir muzeydi və müqəddəs bir yerdi.*

*Burda Qarabağın igidləri at oynadıblar, cıdır keçiriblər, qurşaq tutublar, üzüyün halqasından ox keçiriblər.*

*Burda Qarabağın igidləri sevdikləri qızı gözaltı ediblər.*

*Burda Pənah xandan başlayaraq çox gözəl tədbirlər keçirilib. Həmin tədbirlərdə xanımlar da qalib igidlərə gözaltı baxıblar.*

*Qala camaatı burda "Yallı" gedib, Qala camaatı ən xoş günlərini burda keçirib. Bura Qala camaatı üçün ən müqəddəs yer olub.*

*Qala camaatının ən çox sevdiyi, ibadət etdiyi şəxslər Cıdır düzünün aşağısında dəfn olunub və hər zaman bura ziyarətə gəliblər, başda Molla Pənah olmaq şərtilə.*

*Qalanın girəcəyi Ərimgəldidən başlayır. Xanımlar həm döyüşə gedən ərlərini, oğullarını, həm də ümumiyyətlə, səfərə gedənlərini bu Ərimgəldi deyilən yerdə oturub gözləyərdilər.*

*İsa Hüseynovun "Tütək səsi"ndə olduğu kimi, savaşdan qayıdan hər bir kəs bütün ana və bacıların ümidi idi. Və Ərimgəldidən yuxarıda, Cıdır düzünün aşağısında böyük bir qəbiristanlıq vardı və indi də var. Düzdür, ermənilər dağıdıb, amma var. Vaqifin də qəbri ordadı, Mir Möhsün Nəvvabın da, Müctehidzadənin də və sair və ilaxır.*

*Və sən həmin o məzarlığı ziyarət etməmiş Cıdır düzünə qalxa bilməzsən.*

*Olar ardı qalsın gələn nömrəyə?*

*(Ardı var)*

## *Müəllimlərdən və şagirdlərdən COVİD pasportu tələb olunmalıdır*



*Yay tətilinin bitməsinə az qalıb. Buna paralel olaraq koronavirusa yoluxma halları da artıb. Məktəblər açılmalıdırmı? Təhsil jurnalistləri bu vəziyyətdə hansı yolu məqbul hesab edir?*

*AzEdu.az portalının əməkdaşı Şükufə Süleymanlı hesab edir ki, belə məqamda əyani təhsilə qayıtmaq təhlükəli ola bilər.*

*"Son günlər koronovirusa yoluxmada ciddi artım müşahidə olunur. Lakin ən üzücü məqam isə ölüm hallarının yüksəlməsidir. Belə bir vəziyyətdə məktəblərin tam şəkildə əyani tədrisə qayıtmasının tərafdarı deyiləm. Hibrit formanı daha məqsədə uyğun hesab edirəm. Çünki belə olduqda həm təmas halları çox olmayacaq, həm də əyani tədrisdən geri qalmayacağıq. Qarşıdan payız fəslinin gəldiyi və infeksion xəstəliklərin arta biləcəyini nəzərə alaraq əyani təhsilə qayıtmaq təhlükəsizlik baxımından da düzgün deyil. Həmçinin, müəllimlər, təhsil işçiləri və valideynlərdən COVİD pasportu tələb olunmalıdır. Bu şagirdlərin bütövlükdə əyani tədrisə qayıtmasına yol açacaq."*

*Emin Piri*

# O zirvədən Yer kürəsi görünür

**...Dünyada elə insanlar, elə kişilər və elə ziyalılar var ki, onlar yeni bir tarix, yeni bir səhifə yazırlar və belələri dünyaya gəlişləri ilə, öz qeyri-adi əməlləri ilə həmişə insanları təəccübləndirir və sevindirir. Biz onlara böyük kişilər də deyə bilərik. O böyük kişilər ki, həmişə elmi, əxlaqı və vətəni hər şeydən üstün tutublar. Oturuşları, duruşları və ağayanalıqları ilə digərlərindən seçiliblər...**

Dünya şöhrətli alim, böyük ziyalı və böyük insan Əli Məhərrəm oğlu Hüseynov da belə kişilərdən biridir. O, 1935-ci il dekabrın 5-də Gürcüstanın Lüksenburq (indiki Bolnisi) rayonunun Faxralı kəndində anadan olub. Orta məktəbi bitirəndən sonra bir müddət həmin kənddə kolxozda çalışıb. 1954-cü ildə isə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə daxil olub və oranı bitirərək doğma kəndi Faxralıya dönüb. O, burada kimya-biologiya müəllimi olaraq pedaqoji fəaliyyətə başlayıb və eyni zamanda dərs hissə müdiri vəzifəsində çalışıb.

Elmi işlərlə məşğul olan Əli müəllim Bakı Dövlət Universitetinin biologiya fakültəsinin nəzdində biokimya ixtisası üzrə aspiranturaya daxil olub. Elmi-tədqiqat işlərini Leninqrad (indiki Sank-Peterburq) şəhərində apararaq namizədlik dissertasiyasını müdafiə edib, biologiya elmləri namizədi, alimlik dərəcəsi alıb. O, həmin dövrdə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunda dərs deməklə yanaşı, həm də AMEA-nın Botanika İnstitutunda kiçik elmi işçi kimi fəaliyyət göstərib. Bir sözlə, Əli Hüseynov harda çalışıbsa, harda işləyibsə, orda özünəməxsus iş metodu olub, təcrübəyə yiyələnib və böyük izlər qoyub.

Əli Hüseynov Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) dosent vəzifəsində çalışaraq həm də pedaqoji fəaliyyətlə məşğul olub. Daha sonra Bakıda fəaliyyət göstərən Naxçıvan Özəl Universitetinin biologiya kafedrasında professor vəzifəsinə dəvət olunub. Bir müddətdən sonra o, Azərbaycan Dövlət Pedaqoji Universitetində biologiyanın tədrisi metodikası kafedrasına müdir vəzifəsinə təyin olunub. Böyük alim öz elmi axtarışlarını və yaradıcılığını daim davam etdirib. Belə ki, o, "orta məktəbdə biologiya tədrisinin nəzəri və metodik əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Universitetin professoru seçilən Əli müəllim 150-dən çox elmi və elmi-metodik məqalənin, kitabın və dərsliyin müəllifidir. Orta və ali məktəblər üçün 37 dərslik və dərs vəsaiti, 32 proqram yazıb hazırlayıb.

Onun təhsildəki uğurları daim yüksək qiymətləndirilib. "Təbiətşünaslıq" orijinal dərsliyinə görə, Təhsil Nazirliyinin mükafatına və akademik Xudu Məmmədov adına mükafata layiq görülüb. Bununla yanaşı, böyük alim Beynəlxalq Biologiya Cəmiyyətinin diplomunu da alıb. Elə həmin ildə İngiltərənin Kembric Universitetində nəşr etdiyi "Kim kimdir" Beynəlxalq Ensiklopediyasında dünyanın 500 məşhur alimləri içərisində professor Əli Hüseynovun da adı vardır. Onun o qədər mükafatları, təltifləri və diplomları var ki, saymaqla qurtarmaq olmur. Amma bunların arasında "Əməkdar müəllim", "İlin müəllimi", "İlin alimi" fəxri adları çox müqəddəs və ucadır. Çünki bu adları Əli müəllim alın təri ilə, yuxusuz gecələri ilə və bir də elmə olan sonsuz məhəbbəti ilə qazanıb.

Bir faktı da qeyd edək ki, onun elmi-metodik fəaliyyəti xarici ölkələrdə də yüksək dəyərləndirilib.



Belə ki, Əli Hüseynov Amerika Bioqrafiya İnstitutunda beynəlxalq Nobel mükafatı müsabiqəsində iştirak etmək üçün dəvət alıb. Təbii ki, bunun özü də Azərbaycan elminin dünyada tanınmasına və böyük nüfuz qazanmasına bir işarədir.

Professor Əli Hüseynov Azərbaycan dövlətinə və dövlətçiliyinə ümummilli lider Heydər Əliyevə sadiq olan çox böyük ziyalılardan biridir. Daha doğrusu o, Ulu Öndəri Bakıya dəvət edən "91-lər"dən biridir. Əli Hüseynov, M.Əsgərov, Z.Bünyadov, N.Xudiyev, Z.Qaralov, Ş.Mikayılov və başqa vətənpərvər ziyalılarla birgə fəaliyyət göstərib. Biz həmişə Əli müəllimi çox sadə və səmimi ziyalı kimi tanımışıq. Onun şirin danışığından, lətifələrindən, yumorlarından heç vaxt doymaq olmurdu. O qədər sadə və səmimi idi ki, adam məəttəl qalırdı. Dünya şöhrətli alim uşaqla uşaq, böyüklə böyük idi. Bizimlə dəfələrlə Naftalandakı sanatoriyada bir yerdə olub. Şəxsi maşınımızla Naftalanın görməli, gözəl yerlərini, sərin bulaqlarını bir yerdə gəzmişik. Hətta sərhəd kəndimiz Tapqaraqoyunluda da dəfələrlə olmuşuq.

Bəzən Əli müəllim əsəbiləşər, deyərdi ki, ay Səməndər, gəlsənə adama bir silah götürək, dığaların dərsini verək. O yerlərdə çox gəzdik, şəhidlərin məzarını ziyarət etdik, ruhlarına dualar oxuduq. Sonra Daşaltıda, Dost Qapısında oturub çay dəstgahı arxasında söhbət elədik. Bir dəfə də qərara gəldik ki, yığışaq gedək Ağcakəndə. Kəlbəcərin sərhəddidi. Gözəl təbiəti var. Dağ çaylarının şırıltısı, oxuduğu nəğmə adama ləzzət eləyir, mənəvi zövq alır insan. Orda gözəl, amma dağın o üzündə keçilməsi çətin bir yer var ki, cənnətməkan istirahət guşəsidir. Təklif elədik Əli müəllimə ora getməyə. Getdik. Dupduru bulaq suyundan içdik. O səfərə ailəvi çıxmışdıq. Özümüzə də, ailəmizə də ləzzət elədi. Bizimlə bərabər gedən İlham müəllim də, həyat yoldaşı da çox məmnun qaldı. Belə ziyalılarla ünsiyyətdə olanda adamın ruhu qanadlanır.

Əli müəllim mən Səməndərə qarşı xüsusilə diqqətli olub. Məktəbdə direktor işləyəndə dəfələrlə onun görüşlərini təşkil eləmişəm. Bu görüşlər nəinki şagirdlərimin, mənim yaddaşımda silinməz izlər buraxıb. Mən Prezident Təqaüdü alanda da "Cümhuriyyətin 100 illiyi" medalına layiq görüləndə də o mənə birinci telefon açıb və təbrik edib. Təbii ki, mən də bu böyük alimin, bu böyük ziyalının və bu böyük eloğlunun təbrikindən qurur duymuşam.

Bizim ömür yolumuza işıq salan Əli müəllim kimi dünya şöhrətli alimlər və ziyalılardır. O həmişə deyərdi ki, mən öləndən sonra haqqımda yazı yazarsınız. Biz də deyirdik ki, Əli müəllim, hələ tezdir. 80-də yazı yazmışıq, bir də 100-də yazacayıq. Amma bu yaxınlarda bəd bir xəbər aldıq. Eşitdik ki, böyük alim, professor, ziyalı Əli Məhərrəm oğlu Hüseynov Allahın dərgahına qovuşub. Amma bizə təsəlli olan odur ki, Əli müəllim elmin və insanlığın elə bir zirvəsinə ucalmışdır ki, o zirvədən baxanda Yer kürəsi görünürdü.

**Çünki Əli müəllim kimi işıqlı insanlar, nurlu ziyalılar bizdən uzaqlaşdıqca gün işığı kimi bir qədər də bu millətə, bu xalqa yaxınlaşır. Onu hərarətinə, nuruna qərq edir. Bir fikri də demək istəyirik ki, Əli müəllim tək Faxralının ziyalısı deyildi, o, Azərbaycanın, bu millətin, bu xalqın, bu dövlətin çox böyük oğlu, çox böyük alimi, çox böyük ziyalısı idi. Bu millət, bu xalq yaşadıqca Əli müəllim kimi böyük ziyalılar da yaşayacaq və öz xalqının yaddaşında, ömründə əbədi iz qoyacaq.**

**Səməndər MƏMMƏDOV,**
**Faiq QİSMƏTOĞLU**

Telman Ağdamski - 85

# Ömür yollarının kəsişməsində

## Mən yenə də onu təbrik etməyə tələsdim

**Həyat özünün qəribəlikləri ilə həmişə diqqəti çəkir, gah könül oxşayır, gah ürək ağrıdır, gah da adamın əlindən tutub balaca uşaq kimi özü ilə götürüb aparır dünənə və o dünəndə nələr olduğunu, nələr baş verdiyini, ən vacibi isə o dünəndən gələn yolun dolanbacları, qalın bir xatirə dəftəri kimi vərəqlənibdi. Vərəqlər çevrildikcə də, o saralan kağız parçaları ömrün yarpaqlarına bənzəyir. Axı hər ötən il ömrün bir yarpağıdı. Tumurcuqdan yarpağa yol gəlir. Deməli, yazdan keçib üz tutur payıza. Qış qapını döyəndə də düşür o yarpaq. Deməli, biz bir il itiririk. Ömrümüzün bir ili tarixləşir, ya da xəzəl olub ovunub gedir...**

Şükürlər ki, onun ömründən qopan həmin o illər xəzəl yox, tarix olub. Bir ailənin, bir nəsilin və bir elm dünyasının. Təbii ki, ailənin, nəslin, tarixin bu həm də şəcərədi. Yaşananlar yaşanmışların içindən yaşayacaqlarını seçib ötürürlər bir-birilərinə. Buna hərdən elmi dildə dinastiya da deyirlər. Təbii ki, bunu ağıllı, özünü oxumuş kimi göstərmək istəyənlər deyirlər. Mən isə bildiyim qədər şəcərənin bütün mahiyyətində gerçəyin dayandığına əminəm. Ona hansı adın verilməsi, hansı terminlə ifadə edilməsi mənim üçün önəmli deyil. Önəmli olan...

Bəli, illər öncə tanıdım onu. Və soyadını eşidən kimi kənd adamlarının dediyi kimi "dalağım" sancdı. Axı, Ağdamski soyadı mədəniyyətimizdə kifayət qədər özünü təsdiq etmiş və sayılıb-seçilən aktyorlarımızdan olmuşdur. Azərbaycan teatr sənətində ilk qadın obrazını yaradan məhz bu soyadın daşıyıcısının olduğu tariximizə də yazılıb, yaddaşımıza da. Hətta bununla bağlı çoxlu elmi, bədii əsərlər də qələmə alınıb. Onlardan birini dəyərli yazıçı-publisistimiz Mustafa Çəmənli qələmə alıb. Bax, bu bilgilərin içərisində bir elm adamının, özü də kimyaçının mövcudluğunu heç təsəvvür etməmişdim. Amma gerçəyi danmaq mümkün deyil və mən də professor Telman Ağdamski ilə tanış olanda bu gerçəklə birmənalı şəkildə razılaşdım. Onun söylədiklərindən, eləcə də barəsindəki yazılardan, xüsusilə bioqrafiyasından öyrəndim ki, Telman Ağdamski səhnəmizin ilk Leylisinin övladıdır. Yəni, Telman Əhməd oğlu Ağdamski dünyaya Azərbaycan aydınının, Azərbaycan ziyalısının ailəsində gəldi. O, uşaqlığını Ağdaşda keçirtdi. Bu şəhərdə 1936-cı ilin avqust ayının 6-da doğulan Telman müəllim burada da 1-ci sinifə yollanldı. İlk məktəb illərindən özünün fəallığı, güclü yaddaşı və qavraması ilə müəllimlərin diqqətini çəkdi. Doğrudur, genetik olaraq o musiqinin, ədəbiyyatın, incəsənətin içərisində doğulsa da, amma daha çox elmin digər sahələrinə, kimyaya, riyaziyyata meyl göstərirdi. Ona görə də orta məktəbi bitirib, sənədlərini ali məktəbə təqdim edəndə içindəki ən böyük istəyi onun ilk kimya müəllimi, Ağdaşa təyinatla gəlmiş Muraday Abdullayevin yolunu davam etdirmək idi. Çünki həyatını dəyişən o müəllim onun üçün ideala çevrilmişdi.

Aqillərin dediyi kimi, istəyin hara, mənzilin də ora. Bax, Telman müəllim də istəyi ilə məqsədini birləşdirdi. 1953-cü ildə Şuşaya atası ilə birlikdə yola düşdü. Gəlib aid ollduğu elin, obanın yaşadığı, doğulduğu cənnəti gördü, ziyarət etdi. Ağdamda, Şuşada, bu ailəyə mənsub olan ünvanları tanıdı. Görünür, bu da bir alın yazısı idi. Çünki bu ziyarətdən bir il sonra Əhməd Ağdamski, yəni Telman müəllimin atası Tanrı dərgahına köçdü.

Orta məktəbi uğurla başa vuran Telman müəllim də 1958-ci ilin kimyaçı ixtisasına yiyələndi və o hələ institutu bitirməmiş, AMEA-nın Kimya Problemləri İnstitutunda laborant kimi fəaliyyət göstərirdi. Deməli, institutu bitirmək barədə aldığı diplom əslində obrazlı desək, bir il gecikmişdi. Yəni, Telman Əhməd oğlu tələbə ola-ola kimya elminin laboratoriya şəraitində dərinliklərinə baş vurmaq imkanı qazanmışdı. Aldığı diplom onun gələcək elmi fəaliyyətinə, sözün bütün mənalarında təsdiqedici sənəd idi.

Bu sənəd, yəni bu vəsiqə onun həyatında bir açar, bir yaşıl işıq rolunu oynayırdı. Və Telman müəllim də bu yaşıl işığın izinə düşüb böyük elmə gedən yolun ipucunu çözməyə başladı. Həyat ona seçdiyi yolda nə qədər problemlər yaratsa da, onun inamı, inancı, xüsusilə, özünə ideal seçdiyi kimya müəlliminə verdiyi söz yorulmağa, usanmağa, meydanda çəkilməyə imkan vermədi. Onu dözümlü və mübariz olmağa səslədi. Çünki bu meydanda mübarizlər, qoç döyüşündə qoç kimi atılanlar qalib gəlir. Telman Ağdamski də elə laborant olduğu ildən hər kəsdən seçilməyi, hər kəsdən önə çıxmağı bacardı. Bu gün həmin o arxada qalan xatirələrin əlindən tutub dünənə baş çəkən Telman müəllim mənimlə hər söhbətində müəyyən nüansları dilə gətirir. Bu nüansların içərisində ən önəmlisi Telman Ağdamskiyə yol göstərən, ona dayaq duran, onu elm aləmində öz layiq olduğu nöqtəsində dayanmasına şərait yaratmış şəxslərin hər biri haqqında sevgi və sayqı ilə danışmaqdan, onlara rəhmət diləməkdən doymur. Axı, istedada dayaq durmaq, yol göstərmək yalnız böyük ürək sahiblərinə məxsus keyfiyyətdir. Onlardan biri də Azərbaycanda, hər kəsin adını fəxarətlə çəkdiyi, Azərbaycan elmini dünyaya bağışladığı böyük alim, unudulmaz Yusif Heydər oğlu Məmmədəliyevdir. Məhz Yusif Məmmədəliyev Telman Əhməd oğlu Ağdamskinin elmi dünyasının formalaşmasında ən böyük söz sahibi olubdur. Bununla bağlı xatirələrin birində Telman müəllim qeyd edir ki, "Yusif müəllimin dərslərində mən həmişə ön cərgədə oturar və o, lövhəni yazıb dolduranda yavaşca ayağa qalxıb təmizləyərdim. O da mənə asta səslə "sağ ol, oğlum" deyirdi. Bax, onun pedaqoji təcrübəsini mən özüm üçün mənimsədim və gələcək müəllimlik fəaliyyətimdə bir növü onu təkrar etməyə başladım. Bu gün də auditoriyada olanda özümü həmin adətdən kənarda saxlaya bilmirəm".

Öz müəllimi ilə bağlı yazdığı ürək sözlərində Telman müəllim vurğulayır ki, məhz Yusif müəllimin xeyirduası ilə 1960-cı ildə aspiranturaya daxil olub.

Onun xeyir-duası ilə də təhsilini 1961-ci ildə davam etdirib. Qısa desək, bir böyük ziyalı yetişməkdə olan başqa bir ziyalıya ƏSL İNSAN diqqəti yetirib. Çünki o böyük alim birmənalı şəkildə Telman Əhmədoğlu Ağdamskinin Azərbaycan kimya elmində söz sahibi olacağına inanıbdı. Deməli, inam da, inanc da öz təsdiqi tapıb.

Mən Telman müəllim ilə bağlı onun dostlarının fikirləri ilə tanış olanda bir məqam xüsusi olaraq diqqətimi çəkdi. Bu məqam da Telman müəllimin səmimiyyəti ilə bağlı idi. Yazıçı-publisist, araşdırmaçı Vasif Quliyev bizi tanış edəndə mənə dedi ki, Telman müəllim təkcə alim, təkcə qarabağlı, təkcə müəllim deyil, o, həm də son dərəcə həssas və səmimi bir insandı. Onunla söhbət etmək adamın ruhunu təzələyir, könlünü oxşayır. Hiss edirsən ki, sözün yaxşı mənasında, bir ağsaqqal ilə həmsöhbətsən, fikir bölüşürsən, səni düşündürən məsələlərə münasibət öyrənirsən. Deməli, ömrün boyu ən böyük önəm verən və insanlarda günbəgün azalan səmimiyyətin bir ümmanı kimi, Telman müəllim ilə həmsöhbətlik mənə bir şəcərənin tarixi ilə yanaşı, bir alimin ömür yolunu da öyrənməyə imkanı verdi. Sənətlərdən, mənbələrdən, eləcə də Telman müəllimin özünün dediklərindən öyrəndim ki, Telman müəllim 14 dərs və-



saitinin, 150-dən artıq elmi məqalələrin, 2 dərsliyin müəllifidir. Həmin o 150-yə qədər olan elmi məqalələr elə həmin sayda da elmi əsərlərdə işıq üzü görüb. Onun elmi konfranslarda, simpoziumlarda iştirakı, simpoziumlardakı çıxışları dünyanın ən nüfuzlu institutların, universitetlərin diqqətini özünə çəkib. Təkcə bir faktı xatırlatmaq yerinə düşər ki, Telman Ağdamski çox gənc yaşlarından universitetin "analitik və fiziki-kimya" kafedrasında dosent, sonra isə professor kimi fəaliyyət göstərmişdir. 9 ilə yaxın müddətdə həmin universitetdə dekan olmuşdur. O, 1985-2001-ci illərdə kimyəvi elementlərin iki sahəsi üzrə beynəlxalq simpoziumlardakı maraqlı çıxışları ilə elmi ictimaiyyətin diqqətini özünə çəkə bilmişdi. Həmçinin, İsveçrədə, Yunanıstanda, Avstriyada, Portuqaliyada, Almaniyada, Yaponiyada, Kanadada, Amerikada və digər ölkələrdə keçirilən ən mötəbər beynəlxalq tədbirlərdə Telman Ağdamski yaxından iştirak etmişdir.

**...Bu gün 85 yaşını tamamlamış dəyərli alimimiz, səmimi insan, gözəl ailə başçısı, təkcə övladlarının və nəvələrinin yox, həm də tələbələrinin də varlığı ilə fəxr etdiyi Telman müəllim Allahın ona verdiyi ömür payını xalqımıza, elmimizə həsr edib. Xatırlatmaq yerinə düşər ki, o 15 il, yəni 2004-2019-cu illərdə Prezident yanında Ali Attestasiya Komissiyasında Kimya elmləri üzrə Ekspert Şurasının üzvü olub. Hətta bu gün , yəni pandemiya şəraitində olsa belə, o yenə tələbələri ilə onlayn əlaqə saxlayır, onlara tövsiyələrini, məsləhətlərini verir. Çalışır ki, ömrün qalan illərini də öz müqəddəs işinə, ideyasına həsr etsin. Çünki bu həyata onu hər kəsdən daha çox bağlayan bir müqəddəs ünvan var - o da öz peşəsi, öz ixtisasıdı. Üstəlik, Telman müəllim üçün 85 yaş 30 il həsrətini çəkdiyi yurd-yuvanın işğaldan azad olması ilə də əlamətdardır. Neçə illər öncə mən Telman müəllimin 80 yaşı ilə bağlı yazı yazarkən onun gözlərində kədər görmüşdüm. Həmin o kədər Ağdamla, Şuşayla, itirilmiş torpaqlarımız ilə bağlı idi. Bu gün isə Telman müəllimin gözlərinin dibində də təbəssüm var, çöhrəsində də. Çünki Şuşası qayıdıb, Ağdamı qayıdıb. Bircə bir nüans qalıb. O da özünü Şuşaya, Ağdama baş çəkəcəyi, gedəcəyi gündür. Gedib doğmalarının, soy kökünün aid olduqları ünvanları ziyarət edəcəyi, baş çəkəcəyi məqamlardı. İnşallah, bu arzu da çin olar. Və mən Telman müəllimlə ilk tanışlığımdan yadda qalan bir məqamı oxuculara çatdırmaq istəyirəm. O məqam mənim tez-tez övladlarıma, dostlarıma xatırlatdığım bir özəl hadisədir. Belə ki, Telman müəllimin ideyalı olan kimya müəllimi Muraday Abdullayev müəyyən zamandan sonra yenidən təhsil almaq üçün imtahan verməli olur. Həmin imtahanda şagird yerində Muraday müəllim, imtahanı götürən müəllim yerində isə professor Telman Ağdamski əyləşmişdi. Bu həyatın təzadı yox, həm də inkişaf qanunudur. Sizin hər birinizə tərəqqi, inkişaf, Telman müəllimə isə bundan sonra daha mənalı, daha gözəl illər arzu edirəm. Düşünürəm ki, elmimizin bu cəfakeşinin xidmətləri ən yüksək səviyyədə yəqin ki, qiymətləndiriləcək.**

**Əbülfət MƏDƏTOĞLU**

*Aqil ABBAS*

# QURD ÜRƏYİ YEYƏNLƏRİN NƏSLİ

*Azərbaycanda igid oğullar haqqında belə deyirlər: "Qurd ürəyi yeyib". Təbii ki, bu türklərin Qurda tapınmasından və Qurddan törəməsindən irəli gəlir.*

*Təxminən 79-80-ci illər idi. Ağdamda bir qəribə cinayət işinin şahidi oldum. İşi tələbə dostum, prokurorluğun müstəntiqi Abbas Abbasov aparırdı. Cinayət işini verdi ki, al oxu, heç bilmirəm neyləyim.*

*Abdal-Gülablı kəndindən Abbasov soyadlı (təəssüf ki adı yadımdan çıxıb, görün üstündən neçə illər keçib) bir ovçunu həbs etmişdilər. Dəqiq hansı cinayətə görə həbs olunduğu da yadımda deyil, çoxlu da fotoşəkillər vardı. Qəribə olan nədir?*



*Heç demə, bu ovçu indiyədək 56 canavar vurubmuş. Sovet hökuməti o vaxt vurulan hər canavara görə ovçulara 50 manat mükafat verirdi...*

*... İndi canavar gəlsin, qoyun-quzunu aparsın, vursan, cərimə olunarsan...*

*... Tülkünün, çaqqalın da qiyməti vardı. Deyəsən, tülkü 30 manat, çaqqal 40 manat. Ən bahalısı isə canavar idi. Bəli, bu Abbasov 56 canavar vurubmuş. Deyəcəksiniz burda qəribə nə var ki?*

*Var.*

*Məsələ ondadır ki, bu Abbasov vurduğu canavarların ürəyini çıxarıb kabab bişirir və onu oğlanlarına yedirdirmiş ki, Qurd ürəkli olsunlar. Övladlarının şəkilləri də var cinayət işində. Yəqin ki, Atatürkün, eləcə də Alparslan Türkeşin şəkillərini çox görmüsünüz: Qurda oxşayırlar. Həmin Abbasovun oğlanları da Qurda oxşayırdılar.*

*Abdal-Gülablı Müşfiq Abbasov da iki oğlunu götürüb Vətən müharibəsinə yollananda onların şəkilləri mənə doğma gəldi. Və yadıma həmin hadisə düşdü. Və mənə elə gəldi ki, onlar həmin Ovçu Abbasovun nəslindəndirlər. Təbii ki, bunu araşdırmağa imkanım yoxdu.*

*Dostum , 44 günlük müharibədə savaşın ən isti yerlərindən reportajlar yazan, Murovdan tutmuş Cəbrayıladək bütün döyüşlərin canlı şahidi və hazırda Ağdama buraxılmayan Səxavət Məmmədə telefon açdım. Xahiş etdim ki, bunu araşdırsın. Bildirdi ki, həm şəhid Müşfiq Abbasovu, həm də onun övladlarını çox yaxşı tanıyır və onlarla əlaqə saxlayar.*

*Ola bilər ki, mən səhv edirəm, Müşfiq Abbasov və oğlanları Ovçu Abbasovun nəslindən deyillər, amma hansısa Qurd ürəyi yemiş bir kişinin nəslindəndirlər.*

*Necə ki 3 min şəhidimiz Qurd ürəyi yemiş kişilərin nəslindəndi, eləcə də qazilərimiz.*

*Yadımdadır, Birinci Qarabağ savaşında qəhrəmancasına vuruşan oğullarımıza Boz qurd deyirdilər...*

*... İkinci Qarabağ savaşında, Vətən müharibəsində də bu torpaq uğrunda, bu dövlət, bu millət uğrunda ölümə gedən igidlərimiz də Boz qurd işarəsi göstərirdi...*

*... Ermənilərin isə bir generalı vardı, ləqəbi "Səhra tülküsü" idi.*

*O vaxt belə bir şeir də yazmışdım:*

*Tülkülər də qəh-qəh çəkir Boz qurda.*

*Amma qəh-qəh çəkə bilmədilər. Qurd ürəyi yemiş bozqurdlarımız o səhra tülkülərini çıxdıqları deşiyə qədər qovdular.*

*Bu xalq Qurd ürəyi yemişlərin nəslidi.*

## *Krımdan Türkiyəyə çağırış: Boykot edin!*



**Krımın etnik icmalarının nümayəndələri Türkiyəni "Krım platforması" sammitini boykot etməyə çağırıb.**

**Bu barədə "RİA Novosti" məlumat yayıb. "Rusiya və Türkiyə liderləri arasında qarşılıqlı hörmət və həmrəylik, xalqlarımız arasında mehriban qonşuluq münasibətlərinin inkişaf etdirilməsi prinsiplərinə əsaslanaraq, Türkiyə rəhbərliyini "Krım platforması" sammitini boykot etməyə çağırırırq. Krımla əlaqədar Rusiya əleyhinə fəaliyyətlərdə iştirak etməyin", - müraciətdə bildirilib.**

## *Taliban: Türkiyəyə çox ehtiyacımız var*



**Bütün infrastrukturumuz çökdü. Əfqanıstanı yenidən quracağıq. Bu sözləri Taliban sözçüsü Süheyl Şahin deyib.**

**"Bu baxımdan ən çox Türkiyəyə ehtiyacımız var. Əfqanıstan zəngin yeraltı sərvətlərə malikdir. Amma bunları emal etmək kimi gücümüz yoxdur. Türkiyə ilə səhiyyə, təhsil, iqtisadiyyat, inşaat və enerji sahələrində və yeraltı sərvətlərin işlənməsində əməkdaşlıq etmək istəyirik.**

**Ən böyük gözləntimiz türk qardaşlarımızın daxili balanslar tam formalaşdıqdan sonra bu məsələlərdə fəal rol oynayacaqlarıdır", - deyə sözçü bildirib.**

**MEHRİBAN**



Nicat NOVRUZOĞLU

# Övlad itirmiş anaların göz yaşından utanın

*Dünən Baş Prokurorluq məlumat yayıb. Məlumatı olduğu kimi diqqətinizə çatdırırıq: "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhər Sabunçu rayon idarəsinin vəzifəli şəxslərinin qanunsuz əməllərinə dair həmin Xidmətdən daxil olmuş material üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanaraq ibtidai istintaqı aparılır. İstintaqla Babayev Rövşən Əlixan oğlunun 08.11.2016-cı il tarixdən 08.05.2019-cu il tarixədək müddət ərzində SHXÇDX-nin Bakı şəhər Sabunçu rayon idarəsinin rəisi vəzifəsində işləyərkən idarənin Həqiqi hərbi xidmətə çağırış şöbəsinin baş zabiti Hüseynov Yaşar Ağahüseyn oğlu (hazırda SHXÇDX-nin Xəzər rayon idarəsinin şöbə rəisi) və digər şəxslərlə birgə qanuni əsaslar olmadan 11 şəxsin hərbi xidmətə yararsız hesab edilməsi müqabilində müxtəlif məbləğdə pul vəsaitini rüşvət qismində alması, vəzifə səlahiyyətlərindən sui-istifadə, habelə vəzifə saxtakarlığı etməsinə əsaslı şübhələr müəyyən edilib. Rövşən Babayev və Yaşar Hüseynova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 341.2.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma bir qrup şəxs tərəfindən törədildikdə), 341.2.3 (vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma, ağır nəticələrə səbəb olduqda), 311.3.1 (rüşvət alma, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə), 311.3.2 (rüşvət alma, təkrar törədildikdə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib. Prokurorluğun təqdimatı əsasında məhkəmə tərəfindən Rövşən Babayev barəsində həbs, Yaşar Hüseynov barəsində isə vəzifədən kənarlaşdırma, eləcə də istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib".*



*Doğurdan da bu əsl faciədir. Bunun ən pis tərəfi ondan ibarətdir ki, faciəni bizə yaşadanlar sapı bizdən olan baltalardı.*

*Mən evin bir övladıyam. Yadınıza düşərsə vaxtilə evin 1 övladlarını hərbi xidmətə aparmırdılar. 97-ci ildə ali təhsilimi bitirdikdən sonra baxmayaraq ki, dövlət bizlərə güzəşt edirdi qərara gəldim ki, gedim əsgərliyə. Yasamal rayonunun hərbi komissarlığında biləndə ki, güzəştim ola-ola əsgərliyə getmək istəyirəm fikirləşdilər ki, yəqin hansısa marağı var və o üzdən hərbi bilet üçün əsgərliyə getmək istəyir. Bu üzdən bir az təmənnaları oldu. Mən də fikirləşdim ki, niyə də əsgərliyə getməyə görə pul verməliyəm ki?! O üzdən həmin dövr hərbi xidmətə yollanmadım. Elə ki, qanun dəyişildi və mənə çağırış göndərildi, baxamayaraq ki, artıq 29 yaşım var idi yollandım hərbi xidmətə. Hərçənd, o vaxt mən də hərbi xidmətdən yayınmaq üçün hansısa bir sənəd düzəldə bilərdim. Və bu gün də qəbul etdiyim qərara görə peşman deyiləm.*

*İndi bu məlumatı oxuyanda fikirləşirəm ki, 29 ildir ki, müharibə şəraitində yaşayan bir ölkənin vətəndaşı necə özünü pul verib hərbi xidmətə yararsız hesab etdirə bilir?! 29 ildir ki, müharibə şəraitində yaşayan bir ölkənin hərbi komissarı pul alıb sağ-salamat olan "eşşək" boyda gədələri necə hərbi xidmətə yararsız hesab edə bilər?! O hərbi biletlə evdə, çöldə necə gəzmək olar?! O saxta hərbi biletə görə aldığın pulla necə övladına oyuncaq tapanca ala bilərsən?! Sağında qazi, solunda şəhid qapısı olan bir məmləkətdə bu cür saxtakarlıq edənlər vətən xainindən betərdilər. Öz Vətənini, doğmalarını qorumamaq üçün pul verənlər, şərəfini və andını pula satanlar nə vaxt tükənəcək?*

*O şəhidlərimizin qanlı köynəyindən utanın, o yetim qalmış övladlarımızın qürurundan utanın, o övlad itirmiş anaların, ataların baxışlarından utanın, o yarını itirmiş bacılarımızın sevgisindən utanın, o Zəfərimizdən utanın. İşğaldan azad olunmuş ərazilərimizə səfərlərində dünyaya sığmayan Prezidentimizin hərbi geyimindən utanın. Utanın ki, sizin də başınıza dəmir yumuruq dəyməsin.*

## Nur dolu kitab

*Hər bir kitab təkcə söz toplusu, fikir mücrüsü deyil. O həm də yaxşı bir həmsöhbət, yol yoldaşı və dostdur. Bu mənada nəşriyyatlarımızın oxuculara hədiyyə etdiyi yeni çap məhsulları həmişə maraq doğurur. Təbii ki, söz adamları, yazı-pozuya meyilli insanlar bu işdən daha çox qazanırlar. Onların qazancı yeni həmsöhbət tapmaq, yeni söz dünyasına baş vurmaqdır.*




*"Azərbaycan" nəşriyyatında yerləşən və özünün çap etdiyi məhsulları ilə həmişə diqqəti çəkən "Maarif" nəşriyyatının direktoru İsmayıl müəllim bugünlərdə mənə bir kitab bağışladı. Əlboyda olan bu kitabın üstündə qirayət edən oğlan uşağının şəkli var. Doğrusu, kitabın üz qabığındakı şəkil mənə çox maraqlı gəldi. Elə kitabın adı da maraq doğururdu. Qeyd edim ki, "Yol" adlanan bu kitab "Seyid Hüseyn oğulları" tərəfindən 2021-ci ildə Tovuz şəhərində hazırlanıb və paytaxtda çap olunubdur. Onu araya-ərsəyə gətirən gənc naşir dostum Fariz bəydir. Bütün bunları ona görə ən xırda detallara qədər vurğulayıram ki, kitab həqiqətən dəyərlidi. Kitab hər kəsin diqqətini, sevgisini qazanmış və ölkənin imanlı təbəqəsinin yaxşı tanıdığı İmam Əlidən bəhs edilir. Daha doğrusu, məhz İmam Əlinin ən məşhur kəlamlarından biri olan "Elm şəhərin qapısıdı" deyiminə istinadla hazırlanıb və həm də kitaba "İmam Əlinin qısa kəlamları" adı verilibdir. O ki qaldı, "Yol" adına, bu, əslində həmin kəlamlardan nəticə çıxarıb, öyrənib, elmin yolu ilə sabaha getməyə bir çağırışdı. Kitabda İmam Əlinin 345 kəlamı yer alıb. Onların hamısı da insanlığa, mərifətə, elmə, dostluğa, sevgiyə, sədaqətə köklənib. Məsələn, İmam Əli söyləyir ki, "Əvvəl yol-yoldaşını tap, sonra yolu axtar" və yaxud "Ağıl o qədər kifayətdir ki, zülümlərdən səni işığa çıxardır", "Arzulara bənd olmayın, insanları aldadandır", "Layiqli həmdəm tapmaq gözəl səadətdir" və s.*

*Bəli, hər kəsin hətta cibində gəzdirə biləcəyi bu ibrətamiz kəlamlar kitabını araya-ərsəyə gətirən naşirlərə, ona maliyyə dəstəyi verənlərə mən bir oxucu olaraq təşəkkürümü bildirirəm. Sonda onu da vurğulayım ki, kitab pulsuzdur, satılmır, ancaq bağışlanır.*

*Əbülfət MƏDƏTOĞLU*



Fariz Çobanoğlu

# Qarabağ zəfərinin şahidi 83 yaşlı yazıçının sevinci...

## Rəfiqə Məmmədova bu gün loğman yaşındadır

**Rəfiqə Allahverən qızı Məmmədova Azərbaycan uşaq ədəbiyyatının tanınmış simalarından biridir. 50 illik yaradıcılıq təcrübəsi olan yazıçı-şair ömrünün 90-cı pilləsinə doğru inamla yeriyir. Torpaqlarımızın işğaldan azad olunması ömrünün bu ixtiyar çağında ona təsvirəgəlməz bir fərəh, sevinc hissi yaşadıb. Düşünürəm ki, bu fərəh, bu sevinc onun ömrünü daha da uzadacaqdır.**

Rəfiqə Məmmədova haqqında hər zaman xoş düşüncələrlə rastlaşırıq. Bu düşüncələrin birində deyilir: "Nəğməkar poeziyanın mahir rəssam lövhələrinə bənzər təsvirlərin, uşaq yaddaşına hopan şeirlərin, hekayələrin, mayası vətənpərvərlikdən yoğrulan povestlərin, körpə duyğularına şəkər qatan nağıl, novellaların müəllifidir Rəfiqə Məmmədova".

Bildirim ki, Rəfiqə xanım özünün bədii yaradıcılıq nümunələrilə təkcə uşaqların yox, həm də böyüklərin sevimlisidir. Onun indiyədək qələmə aldığı əsərləri ədəbiyyatımızın səhifələrini zənginləşdirməyə xidmət edib. Şeir və hekayələri, eləcə də digər bədii-sənət nümunələri həyat sevgisiylə yazılıb. Təbiətə heyranlıq, insanlığa hörmət, ehtiram duyğuları Rəfiqə xanımın kitablarının əsas işıq mənbəyidir. Onun əsərlərindəki ülvi duyğular, həyata və varlığa sevgi oxucularına hər zaman müsbət təsirilə fərqlənir.

1970-ci ildə yaradıcılığa başlayan Rəfiqə Məmmədovanın əsərləri Sovet dönəmindən bugünə qədər müxtəlif qəzet və jurnallarda öz sevimli oxucusunun könül qapısını döyüb. Onun Azərbaycan radiosunun arxivində hekayə və şeirlərinin səsyazıları qorunub-saxlanır. Yazıçının indiyədək bir çox kitabı çap olunub. "Dolu", "İnam", Uğurlu ov", "Könül", "Şəfəq müğənnisi", "Qar işığı", "Mənim Şahinim" və s. kitabları ədəbi dünyamızın rəngarəng səhifələri kimi oxunmaqla yanaşı, həm də yazıçının dəyərli irsi kimi ədəbi-bədii yaddaş nümunəsinə çevrilmədə.

Həyatının ahıl çağlarını yaşayan yazıçının bu gün də ədəbi



mühitlə ünsiyyət bağları qırılmayıb. Ədəbi orqanlar, təşkilatlar onu daim yada salır, xatırlayır, təltif edərək yaradıcılığını hər zaman yüksək qiymətləndirirlər.

Rəfiqə xanım bugünlərdə yenə təltif olunub. Azərbaycan Yazıçılar Birliyi Rəfiqə xanımı Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə fəxri diplomla təltif edib. Bu barədə Azərbaycan Yazıçılar Birliyinin rəsmi internet səhifəsində də xəbər verilib. Sevimli yazıçıya, nəğməkar şairə ömrünün ixtiyar çağında da qayğıkeşliklə yanaşılması təkcə Rəfiqə xanımı yox, onun bütün oxucularını, elə bizi də sevindirir.

Ancaq daha bir əlamətdarlıq da ondan ibarətdir ki, yazıçının təltif olunması onun doğum günü ərəfəsinə təsadüf edir. 21 avqust həyatının böyük bir hissəsini ədəbi-bədii yaradıcılığa həsr etmiş yazıçının doğulduğu gündür. Nə böyük xoşbəxtlikdir ki, 30 ilə yaxın ayrılıqdan sonra doğma diyarın azadlığı müjdəsini eşidəsən. Rəfiqə xanım nəsil-şəcərə etibarilə demək olar ki, bütün Qarabağı əhatə edir. Bir tərəfdən Cəbrayıla, bir tərəfdən Ağdama, Füzuliyə, Şuşaya bağlı... Onun Cəbrayıla olan sevgisinin rəngi də tamam başqadır. Cəbrayıl haqqında hər zaman fərqli duyğularla danışır. Cəbrayıl kəhrizinin üstündəki qocaman Xan Çinarı məhəbbət dolu bir nisgillə xatırlayır. Rəfiqə xanım bədii yaradıcılıqda, sənət üfüqlərində heç bir iddiası olmayan, heç bir təmənna güdməyən yazıçı olduğu kimi, həm də ailəsinin şərəfini hər şeydən uca tutan fədakar bir anadır. Tale elə gətirib ki, Onunla ailə quran "Dövlət Üzümçülük Və Şərabçılıq" Komitəsində sədr müavini kimi məsul vəzifədə çalışmış Əmir kişinin sonsuz Azərbaycan sevgisi də daim bu ailənin başı üzərində dalğalanan bayrağına dönüb. Azərbaycanın ən qədim təhsil ocaqlarından biri-Azərbaycan Dövlət Pedaqoji Universitetilə üzbəüz binadakı mənzildən həyata iki dəyərli övlad pərvazlanıb. Rəfiqə ananın indi iki gözəl, istedadlı nəvəsi Ayanla Selin - bu nəvələrdən bəhs edən kitabları da var. Ailənin böyük oğlu Şakiri, kiçik qardaşı Azər kimi yaxından tanımasam da, onun da Azər qədər mehriban, cəmiyyətdə açıq baxışlı fikirləriylə seçilən biri olduğunu düşünürəm. Azərə gəldikdə isə, məmləkət sevgisiylə atasının, anasının Azər çağırdığı bu oğul bu gün xarici ölkələrdə Azərbaycançılıq ənənələrini öz bütöv xarakteri, davranışı, ətraf mühitlə qurduğu sağlam ünsiyyətilə təmsil edir. Bu, çox böyük bir məsələdir - Vətəni, yurdu, doğulduğun ocağı, oymağı daim özünlə daşımaq qədər ağır və məsuliyyətli...

Qayıdaq yazıçı, şair simasının arxasındakı şəxsiyyətə - Rəfiqə xanımın özünə... ***Sənətşünas Təranə xanım Əlizadə deyir: "...Bəli, Rəfiqə xanım balacalara qapalı yox, açıq qapıları nişan verir. Bəlkə də o qapıların açarı-***


AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ
FƏXRİ DİPLOM
MƏMMƏDOVA RƏFİQƏ ALLAHVERƏN QIZI
*Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə Azərbaycan Yazıçılar Birliyinin Fəxri Diplomu ilə*
TƏLTİF OLUNUR
Azərbaycan Yazıçılar Birliyi
*Bakı, 31 iyul 2021-ci il*

***nı da verir, nə bilim, mən ki uşaq deyiləm. Amma çox istəyərdim ki, uşaq olum. Rəfiqə xanımın şeirlərinin əl-ələ verib yaratdığı bu böyük halqanın çənbərin ortasında bir anlıq mən də qaçmaq, dünynın başıma fırlanmağını istədim".***

Bu fikirlər R.Məmmədovanın 80-ci baharına həsr olunmuş "Sözün Rəfiqəsi" monoqrafiyasına yazılmış ön sözdən bir parçadır. Həmin parça bizi yenidən yazıçının rəngarəng dünyasına qovuşdurur. Diqqət çəkən bir məqam da var. Təranə xanım qeyd edir ki, yazıçının sənət və iç dünyasında hamı hamıdan körpə, hamı hamıdan qoca, hamı hamıdan cavan, hamı hamıdan ucadır. Məncə, ön sözün müəllifi yazıçının dünyaya və həyata ədalətli baxışışını qiymətləndirmək istəyir - heç kəs heç kəsdən üstün deyil prinsipi. Ortada Şeyx Nizami demiş, bircə nə qalır? Elm məsələsi.

***Qüvvət elmdədir, başqa cür heç kəs,***
***Heç kəsə üstünlük eyləyə bilməz.***

Rəfiqə xanımın başı həmişə ucadır - istər gəlib çatdığı ömür, istərsə də sahib olduğu mənəviyyat zirvəsində. Rəfiqə xanım o qədər kövrək, o qədər həlim, dürüst və aydın bir insandır ki, ondan danışanda Mövlananın bir fikrini də xatırlamasam olmur."İnsan kamilləşəndə nəfsani qidalardan əl çəkib loğmana dönər".

Rəfiqə Məmmədova bu gün loğman yaşındadır. Yaşadığı qəza, qədər - Vətən ayrılığı, Vətən həsrəti, həyatın bəxş etdiyi müxtəlif çeşidli izdirabları, həm də ömrün 83-cü baharında doğma Qarabağa qovuşan duyğularıyla.

...Rəfiqə xanımı təbrik edir, ömrün yüzüncü baharına doğru bundan sonra da sağlıqla, inamla yeriməsini arzulayırıq.

Rəfiqə xanım əslən qarabağlıdır. Onun Qarabağ sevgisini, Qarabağ həsrətini, ayrılığını ifadə edən nə qədər şeiri, hekayəsi bizim "Qarabağa aparan yol" qəzetində də oxucuların görüşünə gəlib.

**Deyir, gözünə hər zaman qüssə, kədər, ayrılıq qatdığım yazılarımı qəzetinizdə dərc etmisiniz. Arzum o idi ki, o həsrət, o qüssə zəfər şeirlərilə əvəzlənsin. Məni arzuma çatdıran Allahıma, prezidentimə, əsgərimə minnətdaram. Məni də başa düşün, 83 yaşımda Qarabağ zəfərinin şahidi olmağımdan keçirdiyim sevinc, fərəh hissini ifadə etməkdə çətinlik çəkirəm. Tanrıdan möhnət istəyirəm ki, indən sonra Qarabağ sevincimi zəfər nəğmələrimlə ifadə edim...**

# Məni qoymasanız da, qeyri-qanuni yollarla Ağdama gedəjəm




Əntiqə Rəşid

**Onsuzda ora qanunsuz gedəcəyəm, day məni heç kim saxlaya bilməz! Həbs edəcəksiniz? Edin! Çıxan kimi bir də qanunsuz olaraq kəndimizə gedəcəm...**

**MƏNİ 9AYDIR YURDUMA HƏSRƏT QOYAN "QANUNLARINIZA" ETİRAZ EDİRƏM!**

**İlk öncə deyim:** 7 nəsil şəcərəmi dəqiq bilirəm. Köküm Qarabağ bəylərindən - Kəkilbəyovlardan, nəslim Vəlibəyovlardandı. Yəni, əsil Qarabağlı, əsil Ağdamlıyam. Baş Qərvənddənəm!

**İkincisi,** I Qarabağ müharibəsindən əvvəl atamın maşını vardı deyə yazın son ayında payızın ilk ayına qədər dağlarda, yaylaqlarda olardıq. Şuşa, Kəlbəcərin İsti suyu, Harov bulaq, (Hadrut) Damcı bulaq (Ağdamda) Zülfüqarlı, Narınclar (Narıştar), Çıraqlı ,Ağdərənin bir neçə kəndi bizim istirahət, gəzinti siyahımıza daxil idi. Laçının Kəlbəcərə yaxın bir kəndində də olmuşam -adı yadımdan çıxıb...

Bir sözlə, yeniyetmə vaxtı ayağım dəyən yerlərin gözəlliyi, qoxusu, cəlalı yaddaşımda əbədi həkk olub. O yerlərə getmədiyim bu 30 ildə hər gecə, hər dəfə gözümü yumanda getdim, gəzdim gəldim.. Yuxularımı elə gerçək görürdüm ki, ayılanda bir müddət harda olduğumu anlaya bilmirdim Bir də uşaqlığımın, yeniyetməliyimin ən şirin, qaygısız günləri keçən rayonumuz, kəndimiz gözlərim qarşısından heç getmir.

10 noyabr 2020-ci ildən sonra ürəyimdə böyük bir inam yaranmışdı ki, tez bir zamanda Əppəkli dərəni, Kəhrizlərin başını, Tosu arxının üstünü, Örüş yerini (düzən), Güllü məhləni, İbadullu, Kəkilbəyli tirəsini ziyarət edəcəyəm. Atamın, qardaşımın gözlərilə də oralara baxacağam. Çox ümidli idim. Bəzən yurdumla o möhtəşəm görüşü xəyalıma gətirib kövrəlirdim. Uzun sözün qısası, o yerlərdən ötrü nəinki 30 il elə indi də burnumun ucu, ürəyimin başı göynəyir.

**Üçüncüsü -** I Qarabağ müharibəsi gözlərim qarşısında başladı. O qanlı -qadalı günləri bütün acılığı, kədəri- dərdi ilə birgə yaşadım. Evimizə yığışıb gələn köçkünlər, kəndimizin şəhidlərinin yas mərasimləri, Xocalıdan pənah gətirən faciə görmüş insanlar, yaralılar... heç nəyi unutmamışam...unuda bilmirəm.

Üstəgəl bütün köçkünlər kimi də köçkünlüyün ağrısını-acısını düz 28 ildir yaşayıram... və təəssüf ki bu yaşantılarım hələ də davam edir. Ötən ildən də lap artıb.

**Dördüncüsü** isə odur ki, düz 20 ildən çoxdur ki, peşəkar jurnalistikadayam və yaradıcılığımın 85 faizi də sırf Qarabağa həsr olunub. Qarabağın hər şeyindən yazmışam... alimindən sənətkarından, şəhidindən, əlilindən, köçkünündən, kəndindən, şəhərindən, yaylağından, dağından, daşından, gülündən, çiçəyindən, ağacından , meşəsindən bulağından çayından... həm xatırlamışam, həm xatırlatmışam... Hesab edirəm, (təvözakarlıqdan uzaq olsa da) özünü Qarabağa həsr edən cəmi bir neçə hörmətli jurnalistlərimizdən geri qalmamışam. Harda Qarabağa aid tədbir varsa orda oldum...

Yeri gəlmişkən, Prezidentimiz dəfələrlə çıxışlarında vurğulayırdı ki, sizi narahat edən bir problem olanda mənə müraciət edin, dərdinizi mənə deyin. Söz ağlımda qalmışdı. Bir gün yurdum üçün ürəyim qubar edəndə Prezidentimə müraciət ünvanladım. Arzumu dilə gətirdim, ev istəmirəm, mükafat istəmirəm, maşın, fəxri ad istəmirəm, yurdumu, kəndimizi, evimizi istəyirəm-dedim. Var olsun İlham Əliyevi müraciətimin ili tamam olmamış torpaqlarımız uğrunda 44 günlük müharibə başladı və çox şükür ki, torpaqlarımızın böyük bir hissəsi əlimizdədir. Amma müharibə başlamamışdan əvvəl məhz bu müraciətimə görə şəxsimə qarşı hücumlar oldu. Keçmiş iş yerimdən- "Qarabağ" qəzetindən işimdən oldum düz iki il məhkəmələrdə haqqımı aradım, üzərimə gələn hücumların qarşısını aldım. Nəisəki məhkəməni qazandım!Var olsun dövlətimi! haqqımı haqsıza yedirmədi.Bir sözlə, son 2 ildə başım çəkməyən bəla qalmadı.



**Beşincisi -** 44 günlük müharibə başladı. Mənə əziz olan hər şeyi arxada buraxıb (az yaşlı övladımı, 77 yaşlı anamı, qazi həyat yoldaşımı), cəbhə bölgəsinə getdim. düz 44 gün müharibə ərazisində, bombardman altında qalan yeganə qadın jurnalist idim! Haralarda olmadım, camaatımın imtahan günüydü, elə mənimdə!gücüm catan, çatmayan hər işin altına çiyin verdim!: Hərbi hissələrdə, hospitalda, bombardman olan nöqtələrdə, sığınacaqlarda. harda olay var orda. Əlimdən nə gəldi etdim.. ***(Bunu oxuyan şahidlərim yəqin ki təsdiqləyəcəklər).*** Dəfələrlə ölümlə göz-gözə qaldım. Vaxt olub bombalanan ərazidə gizləndiyim çuxurdan (səngərdən) çıxa bilməmişəm Sutkayla ac qaldığım zamanlar olub. Geri çəkilməmişəm. Bərdə bombalananda video çəkmək əvəzinə qorxudan şok olmuş uşaqları, qocaları zirzəmilərə daşımışam. Ağlımın ucuna da gəlməyibdi ki, mən ölə bilərəm, şikəst ola bilərəm yağış kimi yağan qəlpələrin altında..

Bakıdan döyüş mövqelərində olan əsgərlərimizə yardım gətirən dostlara yetişmək üçün Ağcabədiyə, bəzən Beyləqana getmək üçün sübh tezdən evdən çıxırdım. ***(O vaxt saat 6-dan tez olmayaraq heç bir minik maşını işləmirdi. Quzanlı atəş xətti idi deyə ümumiyyətlə o ərazidə avtobuslar yox idi)*** Ağcabədinin kəndlərindən qoyun almağa gedən köhnə, iydən baş çartlayan "Raf"larda sərnişin olmuşam. Nə bilim, hər addımda həyatıma mail olacaq böyük risklər etmişəm. İndi soyuq başla düşünürəm... Ay Allah mən nə böyük risqlər edirmişəm... Heyrət edirəm! Heyrət!

İşğaldan azad olmuş ərazilərə ilk turlar təşkil olunanda səbr elədim, növbəmi gözlədim, amma ora gedənlərin siyahısını görəndə anladım ki, bu dünyanın mizan-tərəzisi dövrəl -qədimdən necədirsə, eləcə də gedir. Haqsızlıq gördüm! Siyahıda prezidentdən Qarabağını tələb edən vətənpərvəri işindən azad edən qanıdolaşıqlar vardı, qanıdolaşıqları müdafiə edənlər vardı. Qarabağın adını bir dəfə dilinə gətirməyənlər, onun şəhidinin, əlilinin birinin adını çəkib xalqa tanıtmaq meylində olmayanlar, 44 günlük müharibə dövründə Bakıdan çıxmayanlar, ordumuza maddi demirəm ən azı mənəvi dayaq olmayanlar Qarabağda - Ağdamda, Cəbrayılda, Şuşada və s. selfi yarışına girdi. Haqqı olmayanlar həyasızcasına oralara axışdıqca, o yerlərdə balasının qanı tökülmüş şəhid yaxınları küsdülər, incidilər, I Qarabağ müharibəsində o yurd üçün vuruşub indi də şikəst həyatı yaşayanlar yurduna tamarzı qalıb, yaralı-yaralı süründüyü torpağa həsrətdi...

Bir belə haqqı olanlara bir də mən qoşuluram! 9 aydı susuram və sizdən ədalət gözləyirəm! Niyə mənə kəndimizi ziyarət etməyə imkan vermirsiniz? Hansı günahıma, səhvimə, nöqsanıma görə, bu əzab-əziyyəti mənə yaşadırsınız?

İndiyənə qədər susdum! Sizin icad etdiyiniz "qanun"dan çıxmadım. Yetər! Amma indi baxarsaınız! Sizin mənim həsrətimə qoyduğunuz "qanunu" görün mən necə ayaqlarım altına atıram?! Sizin "qanun"unuza görə, düz 9 aydı evimə gedə bilmirəm!

İndi mən ora qanunsuz gedəcəm, qanunlarınızı pozaraq gedəcəyəm! Düşəcəm yolun ağına, gedəcəm! O yerləri-cığırları heç kim mənim qədər yaxşı tanımaz! Gedəcəyəm! Həm də bir dəfə yox, 10 dəfə! Hər həsrət çəkdiyim ay üçün bir gediş edəcəyəm! Baxarsınız!

Cəza verəcəksiniz? Dama basacaqsınız? Çıxacağam və birdə gedəcəyəm!

**Mən 9 aydı ağıllı-ağıllı gözləyirdim ki, siz də ağıllı- ağıllı hərəkət edəsiniz! Etmədiniz ki? Etməyin! İndi görün mən dəli-dəli nələr edəcəyəm!**

**Baxarsınız!**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 76 (2257) 21 avqust 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# Azərbaycanın bir parçası olan Cəlilabad

**Azərbaycanın cənub bölgələrindən biri olan Cəlilabad rayonunun tarixinə nəzər salanda məlum olur ki, bu bölgənin adı tariximizin ən qədim dövrlərində özünü nişan verib. Belə ki, hələ eramızdan əvvəlki ikinci minillikdə Cəlilabad ərazisində mövcud olmuş Həməşəra şəhəri bu məkanın bir qədim yaşayış məskəni olduğunu özündə ifadə edibdi. Təbii ki, yadelli işğallar, əsrlərin bir-birini əvəz etməsi bütün dünyada olduğu kimi bu bölgədə də bir çox şəhərləri tarixin arxivinə hopdurub. Həmin arxivlərdə özünü bir ünvan kimi yaşadan adıçəkilən şəhərdə yalnız tarixçilərin və bir də arxeoloqların sayəsində özünü, varlığını bugünümüzə qədər çəkib gətirə bilibdi.**

Məlum olduğu kimi 1930-cu ildə, yəni Sovet dönəmində Cəlilabad rayonu yaradılmış və bir kənd təsərrüfatı rayonu olaraq, 1967-ci ildə Astaraxanbazar adı dəyişdirilərək, böyük yazıçı, dramaturq Cəlil Məmmədquluzadənin şərəfinə Cəlilabad adlandırılmışdır. Doğrudur, həmin illərdə Cəlilabada Biləsuvarı da birləşdirmişdilər. Lakin bir il sonra həmin qərar ləğv edilmiş və Biləsuvar müstəqil rayon kimi formalaşmışdır. Bu xatırlatmadan sonra qeyd etmək istərdim ki, Azərbaycanın digər rayonları kimi Cəlilabad da Azərbaycan Prezidentinin sərəncamı ilə yeni iqtisadi zona elan edilmiş və bu ərazi iqtisadi zonada təbii ki, özünün iqtisadi, siyasi və həm də coğrafi məzmununda öz ifadəsini tapmışdır.

Bu gün Cəlilabad rayonu bir iqtisadi zona olaraq daha çox kənd təsərrüfatı məhsullarının istehsalına hesablanmış və bu sahənin genişləndirilməsi üçün planlaşdırılma həyata keçirilmişdi. Yəni, rayon ərazisində mövcud olan torpaq sahələrində əkinçiliyin, heyvandarlığın yeni müstəvidə daha effektli və məhsuldar olması üçün kompleks işlər görülməyə başlamışdı. Ölkə prezidentinin imzaladığı Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq Cəlilabadda taxılçılıq, kartofçuluq, üzümçülük sahələrinin inkişafına böyük diqqət yetirilməklə, bu sahələrin məhsuldarlığı artırılmışdır. Ona görə də son illərdə Cəlilabad daha çox taxılçılıq və kartof istehsal edən bölgə kimi diqqət mərkəzinə çıxmışdır. Qeyd etmək yerinə düşər ki, hələ Sovet dönəmində Cəlilabad üzümçülərinin böyük uğurları bir tarixi fakt kimi hər kəsin yadında qalmaqdadır. Elə həmin təcrübəyə söykənən cəlilabadlılar son illərdə rayonda fərdi təsərrüfatlarda, eləcə də fermerlərin, iş adamlarının nəzarətində olan torpaq sahələrində üzümçülüyə yenidən önəm verməyə və bu sahənin, necə deyərlər, həyata qaytarmağa başlayıblar. Elə bunun da nəticəsidir ki, artıq respublikanın bazarlarında, həmçinin böyük ticarət sahələrində, eləcə də üzüm emalı ilə məqşğul olan müəssisələrdə Cəlilabad torpağında yetişdirilən üzümün, sözün yaxşı mənasında Cəlilabadda yetişdirilən üzüm məhsulları ilə qarşılaşa bilirik. Bu həm şirələr, həm meyvə, həm də şərab məhsulları kimi bazarlarımızda özünü göstərir. Oxuculara onu da xatırlatmaq istərdim ki, artıq Azərbaycanın ticarət müəssisələrində, fərdi satış obyektlərində və bazarlarında Cəlilabadda yetişdirilən çiyələk, sarımsaq və digər bostan-tərəvəz məhsulları da geniş yer tutur. Deməli regionun kənd təsərrüfatı planlı inkişaf etdirildiyindən, məhsulların çeşidi və məhsuldarlığı da günbəgün artır. Qazanılan uğurlar Cəlilabadı Azərbaycanın taxılçılıq, üzümçülük, kartof istehsal edən, çiyələk yetişdirən ən qabaqcıl rayon kimi fərqləndirib. Əldə olunan nailiyyətlərin kökündə böyük zəhmətlə yanaşı, həm də rayon rəhbərliyinin, yerli iş adamlarının, sahibkarların, fermerlərin, fərdi əmək adamlarının xidməti dayanır. Fikrimizi bir daha açıqlasaq, onu da deyə bilərik ki, cəlilabadlılar yaşadıqları ərazidə nə və necə becərmək lazım olduğunu yaxşı bilirlər. Onlar mövsümə, şəraitə və torpağa uyğun məhsul yetişdirməklə məşğul olurlar. Bax, bu mənada son illərdə rayonda yenidən pambıq istehsalına, noxud, sarımsaq, soğan və digər zəruri tələbat məhsullarının istehsalına da rayonda maraq xeyli artıbdır. Rayon ərazisində yaşayanların heyvandarlıqla məşğul olması təbii haldır. Bu mənada Cəlilabadda heyvandarlığın inkişafına da xüsusi diqqət yetirilir. İribuynuzlu mal-dava ilə yanaşı, bu bölgədə quşçuluğa da zaman-zaman maraq olub və bu gün də həmin sahə perspektivli və məhsuldar olması ilə iş adamlarının qazanc mənbəyinə, gəlir tarixinə çevrilibdir. Cəlilabad rayonunda tikinti-abadlıq, quruculuq işləri də son illərdə diqqətçəkən sahələrdəndir. İnzibati ərazi vahidi kimi Cəlilabad şəhərində, həmçinin rayonun kəndlərində aparılan abadlıq, yenidənqurma bu bölgəyə səfər edən hər kəsin diqqətini çəkir. Yolların, küçə və səkilərin abadlaşdırılması yeni məktəb səhiyyə ocaqlarının tikilib istifadəyə verilməsi mədəniyyət sahəsinə göstərilən diqqət bu cənub bölgəsini Azərbaycanın inkişaf edən rayonları ilə bir cərgəyə çıxarır.



Əgər rəqəmlərlə ifadə etmiş olsaq, onda görərir ki, bu gün Cəlilabad rayonunda Olimpiya İdman Kompleksinin tikintisi də uğurla davam etdirilir ki, bu kompleksdə ən müasir idman qurğuları yerləşdiriləcəkdir ki, bu da həm asudə vaxtın təşkilində, həm də sağlam həyat tərzin formalaşmasında öz sözünü deyəcəkdir. Artıq Cəlilabadda şəhər və kənd xəstəxanaları, tibb məntəqələri, son illərin tibbi avadanlıqları ilə təchiz edilib. Ona görə də buradakı Regional Diaqnostika Mərkəzinin fəaliyyəti və İcbari Tibbi Sığorta üzrə Cəlilabad Regional filialının mövcudluğu həm cəlilabadlıların, həm də bölgənin sakinlərinə xidmət göstərməklə, onların paytaxtda və digər şəhər və rayonlarımıza üz tutması kimi problemi demək olar ki, aradan qaldırıbdı.

Bu gün Cəlilabad rayonunda dövrün tələbinə uyğun olaraq yeni iş yerlərinin yaradılması, sakinlərin maddi rifah halının yüksəldilməsi üçün planlı şəkildə addımlar atılır. Ölkə prezidentinin tapşırığına uyğun olaraq Cəlilabad rayon icra hakimiyyətinin başçısı və onun komandası demək olar ki, rayon ərazisində sosial obyektlərin və müəssisələrin, sənaye məhsulları istehsal etmək arzusunda olan iş adamlarının təkliflərini vaxtında qiymətləndirir və onlara dəstək olurlar. Təbii ki, bu da Cəlilabadda tikinti işləri aparan, şirələr istehsal edən ayrı-ayrı iş adamların, sahibkarların öz fəaliyyətlərini genişləndirməsinə imkan verir. Xüsusilə, rayona turistlərin cəlb edilməsi həm ölkədaxili, həm də xaricdən gələn insanların bu ərazidəki tarixi abidələrlə tanışlığına şərait yaratmaq həm rayon büdcəsinə, həm də bu sahədə fəaliyyət göstərən insanların maddi durumuna kifayət qədər təsir etmək imkanı verir və onu da daha da artıra bilər. Yəni, bu gün Cəlilabad rayonu ərazisində 50-yə yaxın tarixi arxeoloji abidə mövcudur. Həmin abidələrlə tanışlıq, onlar barəsində bilgilərin verilməsi özü-özlüyündə həm Cəlilabada səfər edənlərə mənəvi xidmətdir, həm də bu mədəniyyət sahəsinin inkişaf etdirilməsi tariximizə verilən qiymət, ona olan sevginin əyani artımına köməklik deməkdir. Axı Cəlilabadda mövcud olan Əliköməktəpə və Mişarçay yaşayış yerləri, eləcə də dördüncü minilliyə aid Qurudərə və Cinlitəpə yaşayış yerləri, həmçinin buradakı xurqan qalıqları, xüsusilə Pirhəsən, Pirxəncər, Zərdüşt daxmaları kimi yerlər Azərbaycan tarixində böyük önəmi olan abidələrimizdəndir. Məhz bu cür abidələrin araşdırılması, tanıdılması, qorunması tariximizə, eləcə də Cəlilabadın tarixinə maraq və diqqətin artımı deməkdir. Sonda isə bu diqqət bir xidməti sahəsinə yönəlir ki, o da burada çalışan insanlar üçün təkcə iş yeri yox, həm də tariximizə xidmət kimi dəyərli bir missiyanı özündə cəmləşdirir.

**Bəli, coğrafiyası, tarixi, iqtisadiyyatı və ən vacibi isə, bugünkü durumu ilə önəmli ərazi iqtisadi rayonlarımızdan biri olan Cəlilabadın inkişaf etdirilməsi, yeni zamanın tələblərinə uyğun bir bölgəyə çevrilməsi Azərbaycanın, bütövlükdə çiçəklənməsində yaxşı bir nəticə kimi ifadə olunarsa, bundan öncə xalqımız qazanmış olar. Azərbaycan Prezidentinin də vurğuladığı kimi, hər kəs bu dövlət, bu xalq üçün işləməli və onun uğurlarını təmin etməlidir. Düşünürəm ki, Cəlilabadda bunu hər kəs məndən də yaxşı bilir.**

**Əbülfət MƏDƏTOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# "Gülüstan" poeması



Bəxtiyar Vahabzadə

*İpək yaylığıyla o, asta-asta*
*Silib eynəyini gözünə taxdi.*
*Əyilib yavaşca masanın üstə*
*Bir möhürə baxdı, bir qola baxdı.*

*Kağıza həvəslə o da qol atdı,*
*Dodağı altından gülümsəyərək.*
*Bir qələm əsrlik hicran yaratdı,*
*Bir xalqı yarıya böldü qılınc tək.*

*Öz sivri ucuyla bu lələk qələm,*
*Dəldi sinəsini Azərbaycanın.*
*Başını qaldırdı,*
*Ancaq dəmbədəm*
*Kəsdilər səsini Azərbaycanın.*

*O güldü kağıza qol çəkən zaman,*
*Qıydı ürəklərin hicran səsinə.*
*O güldü haqq üçün daim çarpışan*
*Bir xalqın tarixi faciəsinə.*

*Əyləşib kənarda topsaqqal ağa,*
*Hərdən mütərcimə suallar verir.*
*Çevrilir gah sola, baxır gah sağa,*
*Başını yellədib təsbeh çevirir.*

*Qoyulan şərtlərə razıyıq deyə,*
*Tərəflər qol çəkdi müahidəyə...*
*Tərəflər kim idi?*
*Hər ikisi yad!*
*Yadlarmı edəcək bu xalqa imdad?!*

*Qoy qalxsın ayağa ruhu Tomrisin.*
*Babəkin qılıncı parlasın yenə.*
*Onlar bu şərtlərə sözünü desin,*
*Zənciri kim vurdu şir biləyinə?*

*Hanı bu ellərin mərd oğulları,*
*Açın bərələri, açın yolları.*
*Bəs hanı bu əsrin öz Koroğlusu*
*- Qılınc Koroğlusu, söz Koroğlusu?*

*Babaların şəni, şərəfi, əlbət,*
*Bizə əmanətdir, böyük əmanət...*

*Yoxmu qanımızda xalqın qeyrəti?*
*Belə saxlayarlar bəs əmanəti?*

*Qoy ildırım çaxsın, titrəsin cahan!*
*Ürəklər qəzəbdən coşsun, partlasın.*
*Daim haqq yolunda qılınc qaldıran*
*İgid babaların goru çatlasın!*

*Qoy əysin başını vüqarlı dağlar,*
*Matəmi başlandı böyük bir elin.*
*Mərsiyə söyləsin axar bulaqlar,*
*Ağılar çağırsın bu gün qız, gəlin!..*

*Tərəflər sakitdir, qəzəbli deyil,*
*Məhv olan qoy olsun, onlara nə var.*
*İmzalar atılır bir-bir, elə bil,*
*Sevgi məktubuna qol çəkir onlar.*

*Atıb imzasını hər kəs varağa*
*Əyləşir sakitcə keçib yerinə.*
*Eynəkli cənabla, təsbehli ağa,*
*Qalxıb əl də verir bir-birinə.*

*Onların birləşən bu əllərilə*
*Ayrılır ikiyə bir el, bir Vətən.*
*Axıdıb gözündən yaş gilə-gilə,*
*Bu dəhşətli hala nə deyir Vətən?*

*Bir deyən olmadı, durun ağalar!*
*Axı bu ölkənin öz sahibi var.*
*Siz nə yazırsınız, bayaqdan bəri,*
*-Bəs hanı bu yurdun öz sahibləri?*

*Bəs hanı həqiqət, bəs hanı qanun?*
*Böyükdür bu yurdun tarixi, yaşı.*
*Bəs hanı köksünə sərhəd qoyduğun,*
*Bir vahid ölkənin iki qardaşı?*

*Görək bu hicrana, bu müsibətə,*
*Onların sözü nə, qərəzi nədir?*
*Bu xalq əzəl gündən düşüb zillətə,*
*Öz doğma yurdunda yoxsa kölədir?*

*Necə ayırdınız dırnağı ətdən*
*-Ürəyi bədəndən, canı cəsəddən?*
*Axı kim bu haqqı vermişdir sizə,*
*Sizi kim çağırmış, Vətənimizə?*

*Neçə vaxt səngərdə hey ulaşdılar,*
*Gülüstan kəndində sövdalaşdılar*
*Bir ölkə ikiyə*
*Ayrılsın deyə!..*
*Göy də buludlamış deyirlər o gün,*
*Çölləri, düzləri buludlar sarmış.*

*O göy gumltusu Oğuz xaqanın*
*Ruhuymuş, hönkürüb fəryad qoparmış.*

*Gülüstan kəndinin gül-çiçəkləri*
*Bir günün içində soldu, saraldı.*
*"Gülüstan" bağlandı, o gündən bəri,*
*Bu kəndin alnında bir ləkə qaldı.*

*Bağrı köz-köz oldu "Yanıq Kərəm"in*
*Tellər inildədi, yandı, nə yandı.*
*Aşığın sazında daha bir həzin,*
*Daha bir yanğılı pərdə yarandı.*

*Həmin gün ölkəni apardı sel, su,*
*Tutuldu çöhrəsi Günün, Ayın da.*
*Qoca Nəbacinin eşqi, arzusu,*
*O gün batmadımı Arpa çayında?*

*Ağlayıb dağlardan əsən küləklər,*
*Bu məşum xəbəri aləmə yaydı.*
*Sanki dilə gəldi güllər, çiçəklər:*
*"Bu işə qol qoyan qollar sınaydı".*

*Arazın suları qəzəbli, daşqın,*
*Şirin nəğmələri ahdır, haraydır,*
*Vətən, quşabənzər qanadlarının*
*Biri bu taydırsa, biri o taydır.*

*Quş iki qanadla uçar, yüksələr,*
*Mən necə yüksəlim tək qanadımla?*
*Ürəklər bu dərddən tüğyana gələr,*
*Axar gozümüzdən yaş damla-damla.*

*Cənablar, bir anlıq düşündünüzmü?*
*Verdiyiniz hökmün ağırlığını?*
*Bu hökmün dəhşəti əllimi, yüzmü?*
*Biz necə götürək bu gözdağını?..*

*Başı kəsiləndə bu məğrur elin*
*Könül fəryadını hiss etdinizmi*
*Qoca Füzulinin, igid Babəkin*
*Etiraz səsini eşitdinizmi?*

*Cənablar, bir damcı mürəkkəblə siz*
*Düşünün, nələrə qol çəkmisiniz?*
*Bir damcı mürəkkəb bir vətəndaşı*
*Qanına bulayıb ikiyə böldü.*
*Bir damcı mürəkkəb olub göz yaşı*
*İllərlə gözlərdən axdı, töküldü.*

*Min ləkə vurdular şərəfimizə*
*Verdik, sahibimiz yenə "ver" - dedi.*
*Lap yaxşı eyləyib doğrudan, bizə*
*Biri "baran" - dedi, biri "xər" - dedi.*

*Bizi həm yedilər, həm dəmindilər,*
*Amma arxamızca gileyləndilər.*
*Hökmü gör nə qədər böyükmüş anın.*
*Möhür də basdılar varağa təkrar.*
*Yox, varağın deyil, Azərbaycanın*
*Köksünə dağ boyda dağ basdı onlar.*

*İmzalı, möhürlü ey cansız varaq,*
*Nə qədər böyükmüş qüvvətin, gücün.*
*Əsrlər boyunca vuruşduq, ancaq*
*Sarsıda bilmədik hökmünü bir gün.*

*Ey kağız parçası, əvvəl heç ikən,*
*Yazılıb, qollanıb yoxdan var oldun.*
*Böyük bir millətin başını kəsən,*
*Qolunu bağlayan hökmdar oldun.*

*Bir eli ikiyə paraladın sən*
*Özün kağız ikən paralanmadın,*
*Köksünə yazıları qəlb atəşindən,*
*Niyə alışmadın, niyə yanmadın?*

*Araz sərhəd oldu, əsdi küləklər,*
*Sular yatağında qalxdı, köpürdü.*
*Üstü dama-dama taxta dirəklər,*
*Çayın kənarıda səf çəkib durdu.*

*Sular, sizdən təmiz, nə var dünyada?*
*Ləkədən xalidir axı qəlbiniz.*
*Bağrınız alışıb niyə yanmadı*
*Bu çirkin əmələ qol qoyanda siz?*

*Ey Araz, səpirsən, göz yaşı sən də*
*Keçdikcə üstündən çölün, çəmənin.*
*Səni arzulara sədd eyləyəndə,*
*Niyə qurumadı suların sənin?*

*Dayanıb Arazın bu tayında mən*
*"Can qardaş" deyirəm, o da "can" deyir.*
*Ey zaman, sorğuma cavab ver, nədən*
*Səsim, yetən yerə əlim yetməyir...*

*Qarışıb gözümdə, qarışıb aləm,*
*Dərd dərdi doğrayır, qəm qəmdən keçir.*
*Arazın üstündən keçə bilmirəm,*
*Araz dərdim olub, sinəmdən keçir.*

*Taxta dirəkləri torpağa deyil,*
*Qoydular Füzuli divanı üstə.*
*Yarıya böləndü yüz, yüz əlli il*
*Gəraylı, bayatı, muğam, şikəstə.*

*Dəmir çəpərləri eşqim, diləyim*
*Tarixim, ənənəm üstə qoydular.*

*Yarıya bölündü canım, ürəyim,*
*Yarıya bölündü Arazda sular.*

*Taxta dirəkləri qoydular, ax, ax!..*
*Qəlbimin, ruhumun dilimin üstə,*
*Biz güldük, ağladıq, yenə də, ancaq*
*Bir sazın, bir telin, bir simin üstə.*

*Ürəkdən ürəyə körpü? Bir dayan!*
*Dərdimiz dinirsə bir sazın üstə.*
*Şəhriyar yaralı misralardan,*
*Körpü salmadımı Arazın üstə?!*

*Bu taydan o taya axışdı sel tək*
*Gözə görünməyən könül telləri.*
*Bu selin önünü nə çay, nə dirək,*
*Kəsə bilməmişdir yüz ildən bəri.*

*Ağalar bilmədi birdir bu torpaq*
*Təbriz də, Bakı da - Azərbaycandır,*
*Bir elin ruhunu, dilini ancaq*
*Kağızlar üstündə bölmək asandır.*

*Böl, kağız üstündə, böl, gecə-gündüz,*
*Torpağın üstünə dirəklər də düz,*
*Gücünü, əzmətini tök də meydana,*
*Qoşundan silahdan sədd çək hər yana.*
*Torpağı ikiyə bölərsən, ancaq*
*Çətindir bədəni candan ayırmaq!*

*Ayırmaq kimsəyə gəlməsin asan,*
*Bir xalqın bir olan dərdi-sərini.*
*O taydan bu taya Mustafa Payan*
*Oxuyur Vahidin qəzəllərini.*

*Dolandı zəmanə, döndü qərinə,*
*Şairlər od tökdü yenə dilindən.*
*Vurğunun o həsrət nəğmələrinə*
*Şəhriyar səs verdi Təbriz elindən:*

*"Heydər baba, göylər qara dumandı.*
*Günlərimiz bir-birindən yamandı.*
*Bir-birizdən ayrılmayın, amandı,*
*Yaxşılığı əlimizdən aldılar,*
*Yaxşı bizi yaman günə saldılar.*

*Bir uçaydım bu çırpman yelinən,*
*Qovuşaydım dağdan aşan selinən,*
*Ağlaşaydım uzaq düşən elinən,*
*Bir görəydim ayrılığı kim saldı,*
*Ölkəmizdə kim qırıldı, kim qaldı".*

## "Самый подлый народ в мире"dən sonra Duqin: "Əqli cəhətdən geridə qalmış xalq"



*Bir neçə gün əvvəl "Google" (Quql) axtarış sistemi ürəyimi açan, könlümüzü sevindirən bir olayı diqqətimizə çatdırmışdı. Bu axtarış proqramı erməniləri dünyanın ən alçaq xalqı kimi tanıdı. sözügedən axtarış sisteminə rus dilində "camıy podlıy narod v mire" yazdıqda erməni xalqı və Ermənistan barədə məlumat gəlir.*

*Yeri gəlmişkən Google-yə inglis dilində dünyanın ən acıqlı ölkəsi (angriest country) yazdıqda da Ermənistan haqqında məlumat çıxır.*

*Təbii ki, ermənilər haqqında çox-çox qədimlərdən pis fikir yaranıb və heç şübhəsiz ki, bu əsassız deyildir, əsası olmasaydı bütün bir xalq haqqında, həm də müxtəlif dövrlərdə belə bir fikir yarana bilməzdi*

### Növbədə Duqindi

*Bir neçə gün əvvəl ermənilər Qarabağ münaqişəsi ilə bağlı 30 il ərzində ölü nöqtədən bir addım belə tərpənə bilmədilər. Onlar bu illər ərzində əlverişli şəraitə malik ola-ola heç nəyə nail ola bilmədilər. Nəticədə bu əraziyə nəzarəti itirdilər. Nə qədər əqli cəhətdən geridə qalmış xalq olmalısan ki, 30 il nəzarətin altında olan torpaqları itirəsən. Kütbeyin xalq, dar düşüncə...*

*Adalet.az xəbər verir ki, bu fikirləri Beynəlxalq Avrasiya Hərəkatının lideri, rusiyalı filosof Aleksandr Duqin bölüşüb.*

*"Onlar hər şeyi etməyə macal tapdılar, Qarabağda mümkün olan hər şeyi dağıtdılar, Rusiya ilə münasibətləri korladılar, Paşinyanı seçdilər, rəsmi Bakının bütün təşəbbüslərini blokadaya saldılar... Nəticədə hər şey itirdilər!*

*Bəs indi elə həmin Ermənistan hökuməti sizcə ağıllanıb, hansısa qaydalara riayət edəcək? Hazırda Ermənistanda tam ağlasığmazlıq müşahidə olunur. İndi ermənilərdən tez toparlanacaqlarını, özlərinə gələcəklərini və normal xalq olacaqlarını gözləmək real deyil. Odur ki, Azərbaycan səbirli olmalıdır. Hələlik Ermənistan tərəfindən hansısa adekvat addımlar gözləməyə dəyməz", - rusiyalı ekspert qeyd edib.*

*Əntiqə*

# Canından keçməyi bacara bilən jurnalist



**Ömrünün 43 ilini jurnalistikaya həsr edən Faiq Sadıqov 65 illik yubileyini qeyd edir. Jurnalistika ixtisasdır və hər bir ixtisasın arxasında insan faktoru dayanır. İnsanlar isə müxtəlifdir, qorxağı da var, cəsarətlisi də. Ola bilsin ki, başqa ixtisas sahiblərinə cəsarət anlamı elə də vacib deyil, amma jurnalistikada bu keyfiyyət kəm olanda qabarıq nəzərə çarpır.**

Əməkdar jurnalist Faiq Sadıqov da Azərbaycan dövlətinə və dövlətçiliyinə sadiq, peşəkar yazar olmaqla yanaşı həm də cəsarətli jurnalist kimi onu tanıyanların böyük hörmətini qazanıb. Faiq müəllimi tanıyan dostları, tanışları, tələbələri onun necə bir vətənpərvər, təvazökar, səmimi insan onduğunu yaxşı bilirlər.

1956-cı ilin avqustunda Ağdaş rayonun Ləki qəsəbəsində anadan olan Faiq Sadıqov, 12 uşaqlı ailənin ilk oğlan övladı olub. Məhz buna görə də hələ uşaq və yeniyetmə yaşlarından zəhmətkeşliyinə görə yaşıdlarından fərqlənib.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistrika fakültəsinə daxil olub. Ali təhsilini başa vurduqdan sonra Dövlət Tele-Radio Komitəsinin Yevlax radio verilişləri redaksiyasında redaktor kimi əmək fəaliyyətinə başlayıb. Qarabağda erməni separatizmi və terrorizmi baş qaldıran ilk günlərdən isə bir vətənpərvər kimi bu vəşiliyə qarşı mübarizənin ön sıralarında yer alıb, 4 il həyatını təhlükəyə ataraq "Ədalət" qəzetinin cəbhə müxbiri kimi birinci Qarabağ savaşının ən qaynar nöqtələrindən xəbərlər, reportajlar hazırlayıb. Müharibə başlayandan atəşkəsə qədər döyüş nöqtələrindən qəzetə operativ xəbərlər verib, müharibənin dəhşətlərini əks etdirən yazılar göndərib.

Yaşadığı Yevlax rayonundan avtobusla, yaxud da təsadüfi avtomobillərlə Ağdama, Füzuliyə, Goranboya, Tərətərə və digər döyüş bölgələrinə yollanan, Faiq Sadıqov oradan lap ön xəttə getməkdə çətinlik çəkdiyi üçün Qarabağdakı hərbi hissələrin birinə döyüşçü kimi üzv yazılıb, səngərlərdə gecələyib, ən qaynar nöqtələrdən xəbərlər, reportajlar hazırlayıb.

Təəssüf ki, məğlubiyyətimizlə bitən bu müharibə onun da xatirələrində dəhşətli izlər qoyub. O izlər ki, son 30 ildə Faiq Sadıqov yuxularında da həmin ağrı-acıları yayaşıb.

Müharibə zamanı gördüyü dəhşətlərdən hazırladığı materillar, cəbhə xatirələri onun "Qarabağdan xəbər var" adlı kitabında toplanıb və həmin kitab bir növ birinci Qarabağ müharibəsinin tarixidir. Təsadüfi deyil ki, Millət vəkili, yazıçı-pulisist Aqil Abbas həmin kitaba yazdığı ön sözdə bu cəfakeş insanı " canından keçməyi bacaran jurnalist" kimi xarakterizə edib. Faiq müəllim mətbuata verdiyi müsahibələrin birində belə deyib:

"30 il idi ki,şəxsən mən heç bir bayramı xüsusi sevinclə, şövqlə qeyd edə bilmirdim. Şəxsən mən belə hesab edirdim ki, - ifadəmə görə üzr istəyirəm- biz şərəfsiz bir ömür yaşayırdıq. Qəddimiz əyilmiş, ləyaqətimiz tapdanmışdı. Azadlığımızı, suverenliyimizi yarımçıq hesab edirdim. Bu dəfəki ad günümü çox böyük sevinclə qeyd edirəm. Çünki bu, Vətən müharibəsindəki misilsiz qələbəmizdən sonra keçirdiyim ilk yubileydir. Ali Baş Komandan İlham Əliyev və onun qəhrəman əsgərləri 44 günlük müharibədə Azərbaycanın dövlətçilik tarixində nadir təsadüf olunan bir zəfərə imza atdılar -haqq-halal torpaqlarımızla birlikdə şərəfimizi, ləyaqətimizi, mənliyimizi, bütövlüyümüzü bizə qaytardılar. Mən bu möcüzəni yaradan dövlət başçısı və hərbçilərimiz qarşısında baş əyirəm. Şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Həyatımda 2 dəfə hönkürtü ilə ağlamışam- bir 1993-cü Qarabağdakı sonuncu yaşayış məntəqəsini tərk edərkən dönüb geriyə baxdığım zaman, bir də Ali Baş Komandan Şəhidlər Xiyabanında Şuşanın azad edilməsini elan edəndə".

Faiq Sadıqov birinci Qarabağ müharibəsi dayandıqdan sonra yenidən Azərbaycan Televiziyasına qayıdaraq ən məsul işlə məşğul olub- Ümumilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin xarici səfərlərindən, bölgələrdə vətəndaşlarla görüşlərindən və digər rəsmi dövlət tədbirlərindən reportajlar və videomateriallar hazırlayıb.

Faiq Sadıqovun jurnalist kimi məhsuldar yaradıcı fəaliyyəti, fədakar əməyi Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirlilib. O, dövlət başçısı tərəfindən "Əməkdar Jurnalist" fəxri adına layiq görülüb.

**Qayğıkeş ailə başçısı olan Faiq Sadıqovun iki övladı, 5 nəvəsi var. Övladlarından biri mənəm -**

**Pərvin SADIQOV,**
**jurnalist**

## Müğənni qalmaqallı "Porsche"dən sonra yeni maşınını nümayiş etdirdi



**Müğənni Aysel Əlizadə haqqında vaxtaşırı dedi-qodu yayılan məşhurlardandı. Bir neçə il əvvəl onun haqqında: "45 yaşlı, iki uşaq atasını özünə sevgili edib" kimi rüsvayedici ittihamlar var. Həm də bu ittihamları özgəsi deyil, adı hallanan "45 yaşlı, iki uşaq atasını"nın Turanə Nəcəfova adlı xanımı Xoşqədəm Hidayətqızının aparcısı olduğu verlişə zəng edərək xəbərin gerçək olduğunu təsdiqləmişdi .**

Aysel haqda çıxan xəbərdə həm də bildirilirdi ki, həmin şəxs Bakıda məşhur avtoqalereyanın sahibi Elçindir. O, Aysel Əlizadə üçün son model olan "Porsche" almaqla yanaşı, xüsusi məna kəsb edən dövlət nömrə nişanı da hədiyyə edib. "90 EA 333" seriyalı nömrədə cütlüyün adlarının baş hərfləri əks olunmuşdu.

Artıq bir ilə yaxındır ki, dedi-qodular səngiyib və Ayseldən yeni xəbər var.

Adalet.az xəbər verir ki, müğənni yenidən bir dedi-qoduya mövzu olacaq fotoları sosial media hesabında paylaşıb.

Beləki Ayselin "İnstagram" hesabındakı yeni lüks avtomobilinin fotoları izləyicilərinin marağına səbəb olub.

Qeyd edək ki, müğənni özü vaxtı ilə belə bir etirafla gündəmə gəlmişdi:"Mən Aysel Əlizadə olaraq çox şükür öz ayaqlarımın üstə durmağı bacarıram. Bu gün müəyyən qədər qazancım var. Heç Aysel Əlizadə olmasın, olsun hansısa xanım. Heç müğənni deyil. Açıq danışacağam. İki-üç min qazanan insan bu məbləğdə qazanca, bu yaşayış tərzinə öyrəşib. Bu insanın ailə qurma şansı yaranır. Ailə quracağı insan isə ayda heç 300-400 manat qazanmır. Amma deyirlər ki, sən kasıb oğlana gedərsən? Mən məntiqlə başa salmaq istəyirəm ki, elə adama gedərəm ki, həyatımı eyni şəkildə yaşamağım üçün lazım olan hər şeyi təmin etsin. Ailə quracağım insan indi necə yaşayıramsa, bax o həyatı mənə yaşada bilməlidir. Yoxsa, depressiyaya düşərəm",

# HƏYATIMIZDAKI MÖCÜZƏ

Esse

**Nədir möcüzə? Mən təlimi və tədrisi mümkünsüz olan, İlahinin əmriylə peyğəmbərlərə haqq olduqlarını sübut etmək üçün verilən xüsusi bacarıqdan danışmıram. Yaşadığımız həyat özü əslində bir möcüzədir. İnsan özü, orqanizmi, saçdan dırnağa qədər canlı hüceyrə quruluşu, hər birinin öz vəzifəsi olan daxili orqanların universal sistemi, irsi və genetik kod gizlənən DNA ən mükəmməl möcüzədir. "İbadətlərin ən gözəli təbitdən gələn ibadətdir", deyir Hz.Əli. Bəli, yaşadığımız dünya okeanı başdan ayağa möcüzədi. Min illərlə var olan, amma yenə sirli qalan, minlərlə alimin baş sındırdığı sirrin yenə Yaradanın izn verdiyi qədər açılan əzəli dünya qanunları, müqəddəs kitabımız Quranın yazdığı həqiqətlərin də elmə söykəndiyi artıq çoxdan təsdiq edilməkdədir.**

Möcüzə haqdır, həqiqətdir, bəzən insan ən çətin bir durumda olarkən gözlər möcüzəni, yəni qeyri-adi sonluğu, müşkülün asana çevrilməsini. İnanar, o qədər inanar ki, istədiyi başa varar. İnsan, hər qaranlıq sabahın bir işıqlı gündüzü olacağı fikrinin cazibəsinə elə düşər ki, həmin o sabah özü utanar, əgər gəlməzsə. Həyatımızın hər dönəmində möcüzəyə ehtiyacımız var. Özünü ateist adlandıran adam da ayağı büdrəyəndə yenə -"ay Allah"- deyir! Hər şeydən əlin üzüləndə möcüzə gözləyirsən, əlini göylərə açıb dualar edir və vəziyyətin xeyrinə dəyişməsinə dəli kimi inanırsan...

***Söylə, nədən gileylisən,***
***Fikir içib, qəm yeyirsən.***
***Özgə sirdaşı neynirsən,***
***Dünya, aç mənə sirrini..***

***...Ucuz alver, köhnə bazar,***
***Kimə cənnət, kimə məzar.***
***Günahından keçdi bəlkə-***
***Tut üzünü göyə yalvar,***
***Dünya, aç mənə sirrini.***

Mən həkiməm, işimə həmişə "Bismillah"la başlayıram, təkcə sənətimdə deyil, elə hər işimdə. Erix Mariya Remark "Zəfər Tağı" əsərində yazır ki, sevən adam möcüzəyə inanmırsa, bitib! Xüsulisə ağır xəstələrlə işləyəndə bu hiss qəlbimə hakim olub, inanmışam, 90% ölü xəstədə həyat nişanələri görəndə sevincimdən ağlamışam! Pediatriya tibbin çətin və çox məsuliyyətli sahələrindən öndə olanıdır. Uşaqla işləmək, ona aid tibbi prosedurları yerinə yetirmək həkimdən əməllibaşlı səriştə tələb edir. Amma kənddə işləyən həkim həm də ailə həkimi vəzifəsini bütünlüklə boynuna götürmüş olur. Deməli ikiqat səriştə və ikiqat məsuliyyət gərəkir!

İndi yadımdan çıxan o qədər ağır xəstələrim olub ki! Amma bəzilərini heç unuda bilmədim... Kolleqalarım xəstəni qəbul etməyə qəti etiraz etdikləri halda mən sinəmi irəli verirdim. Təəccüblənirdilər, deyirdilər:

-Özünə yazığın gəlsin, göndər getsin şəhərə..., sağalsa heç, amma işdi qurtara bilməsən haqqında xoş danışmayacaq xəstə sahibləri.

Düz deyirdilər, amma enerji dolu gəncliyim və sənətimə sonsuz sevgim kəsirdi qarşımı. Kənd adamlarının bir xüsusiyəti var, əgər xəstəsi yerli xəstəxanada müalicə olunursa vəziyyətin yüngül olduğunu düşünür və ya əksini. Bayaq dedim axı, gərək kənd həkimi həm də ailə həkimi ola. Bir hamilə qadının keçirdiyi doğuşu indi də xatırlayır və yenə həmin günün həyəcanını yaşayıram:

-Orta tibbi təhsilli mama-ginekoloq evdə doğuşa getmiş, çətinlik qarşısında qalanda isə məni köməyə çağırmışdı. Gecə yarıdan çoxdan keçmişdi, təcili hazırlaşıb arxamca gələn maşına oturub getdim və xalatımı geyinib elə yubanmadan da işə başladım. Evin ortasında yataqda uzanmış qadını tez müayinə etdim, təzyiqi də, uşaqın gəlişi də normal idi, amma dar çanaq olduğundan doğuş yubanırdı. Olduqca çətin vəziyyət yaranmışdı, ananın təbii gücü də tükənirdi, uşağın boğulmaq təhlükəsi vardı, xəstəni rayon mərkəzinə çatdırmaq isə gec olacaqdı... Ürəyimdə Allaha dualar edir, yalvarırdım, möcüzə gözləyirdim...

Həyəcanımı boğur, heç nə biruzə verməməyə çalışırdım. Ümidlə mənə baxan qadını da sakitləşdirib, dediklərimə əməl etməyini tapşırdım və belə etsə hər şeyin tez və rahatlıqla bitəcəyinə əminliklə söz verdim. Onu sakitləşdirdikcə özüm də aram olurdum, amma vəziyyətin heç də asan olmadığını gözəl bilirdim. Bu inam və daxili gücün mənə hardan gəldiyini də bilmirdim. Vaxt keçdikcə gərginlik artırdı, ta az qala əlim hər yandan üzülmüşdü. Bax elə belə bir anda sanki gözəgörünməyən bir əl qeybdən köməyə uzandı, əlimin altnda kiçik çanağın dar sümük qəfəsinin ani olaraq genişləndiyini hiss etdim və uşağı da, ananı da sağ-salamat qurtardıq.. Mən də, tibb işçisi də bərk həyəcan keçirmişdik, əslində Keyser əməliyyatına göstəriş olan bir doğuşu idarə etmiş və Allahın möcüzəsi sayəsində uğurla başa çatdırmışdıq. Möcüzə baş verməsə nəticəsi çox pis ola bilərdi.

***Əllərin heç yana çatmayanda,***
***bir tək Allaha çatar.***
***Bir söz söyləmədən***
***düşüb gələr yanına.***
***Axı, o Allahdı,***
***kəsir bilməz şanına,***
***xəta gəlməz adına..***

***Səsini heç kəs eşitməyəndə***
***bir tək o eşidər.***
***Səsinin həyəcanı***
***göylər boyda Allahı üşüdər.***

...Bir neçə dəfə insult keçirən xəstə komaya düşür və aparata qoşulur. Lakin vaxt keçir, xəsətədə heç bir həyat işarəsi görünmür. Həkim komissiyası artıq xəstənin öldüyünü təsdiqləyir və aparatdan ayrılmasına qərar verir. Bununla razılaşmayan ata isə qərarla razılaşmayaraq həkimlərdən bir az da zaman istəyir. Özü isə bu müddətdə oğlunun yanında oturub əllərini əlindən buraxmır, aramsız dualar edir, Tanrıya yalvarır və möcüzə olacağına ümidini bir an da kəsmir. Saatlar keçir, ata göz yaşlarına boğulur, bu dəfə oğluna da yalvarır, yalvarır ki, onu tərk etməsin... Qəfildən əlinin zəifcə sıxıldığını hiss edir, sonra sıxmalar bir az da güclənir və beləcə oğlu real ölümdən dönür!..

Qarabağ döyüşlərində əsir düşən və sonradan qaçmağa imkan taparaq xilas olan bu gəncin dediklərinə necə inanmayasan axı!? Dörd nəfərlə qaçış planı qurub həyata keçirən bu adamların yolu sonda erməni postundan keçməli olur:

-Uzaqdan erməni əsgərlərini görür və burdan keçməyin mümkünsüzlüyünü də anlayırdıq. Geriyə qayıda bilməzdik, yeganə ümid yerimiz Allahın möcüzəsi idi, dedim, İlahi, necə edirsən et, ya bizi göylə apar, ya onların gözlərini bağla ki, bizi görməsinlər.

Bu dəm arxadan eşitdiyi səs əsgəri dksindirir, amma səs bir də təkrar edir:

-Qalx, düz get!..

Yüksək mərtəbəli binadan yıxılaraq möcüzə nəticəsində sağ qalan uşaq, yüksək gərginlikli elektirk vurmasından ölməyən qadın, suya düşərək boğulmaqdan qurtulan kişi..., sayı artırmaq da olar. Hələ aldığı travma nəticəsində müxtəlif qeyri-adi bacarığı meydana çıxanları demirəm... Axı adi vəziyyətdə insan beyin hüceyrələrinin ən çox 2-3%-dən istifadə etdiyi halda fövqəladə hallarda beyin aktivliyi bir neçə dəfə yüksəlir.

...Əslində ən böyük möcüzə elə insan özüdür. Yaradanın qeyri-müyyənlikdə, müəmma və sirdə gizlətdiyi, möcüzə şəklində aşikar etdiyi sevgidədir, eşqdədir möcüzə. İnsan nə qədər saf və mükəmməldirsə möcüzələr də olacaq. Həyatı yaşamanın iki yolunu göstərir A. Eynşteyn: " Biri heç bir şey möcüzə deyilmiş kimi, digəri isə hər şey möcüzəymiş kimi yaşamaq..."

Həyatınızın hər anını möcüzəyə çevirin, hər günü Tanrı hədiyyəsi olaraq qəbul edin, sevin, sevilin, xoşbəxt edin və özünüz də xoşbəxt olun. Bütün möcüzələr mənbəyini sevgidən götürür, mayasını eşqin aram etdiyi ürəkdən tutur. Möcüzə sizin özünüzsünüz, yaxşılığı təmənnasız edin, yıxılana əl verin, kimsəsizə arxa durun. Unutmayın ki, içdən bir-birinə sıx bağlı olan Təbiətdə hər şeyin öz yeri var, nadir hallarda yerlərin dəyişik düşməsidir möcüzə yaradan...

**Şahnaz Şahin**

# İnsanlıq və xeyirxahlıq işığında

**Hər bir insanın özünəməxsus ömür payı, tale yolu vardır. Hər kəs öz yol ilə addımlayır, irəliləyir, ömür payını yaşayır. Kim ki, inamlı, qətiyyətli addımlar atır, çətinliklərə sinə gərir, həyatda heç vaxt büdrəmir, yeni-yeni uğurlar qazanır.**



Ağcabədi rayonunun Rəncbərlər kənd sakini 52 yaşlı Qalib İbrahimov məhz belə ömür yolu keçmiş insanlardandır. Onun atası Nəsirullah Abdulov vaxtilə Ağcabədidə süd məhsullarının emalı ilə məşğul olan təcrübəli mütəxəssislərdən sayılıb. O, uzun illər rayon yağpendir zavodunda sex ustası işləyib, bölgənin iqtisadi həyatında önəmli xidmətlər göstərib. Gəncə Texnologiya İnstitutunun kənd təsərrüfatı məhsullarının konservləşdirilməsi fakültəsində təhsilini başa vuran Qalib İbrahimov bir müddət rayonda fəaliyyət göstərən yağpendir, çörək və pambıq emalı zavodlarında müxtəlif vəzifələrdə çalışıb. Bacarıqlı gənc həmin sənaye müəssisələrində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, kollektiv üzvlərinin hörmət və nüfuzlunu qazanıb. O, gənc olmasına baxmayaraq, rayonun ictimai həyatında fəal iştirak edib, öz xeyirxahlığı ilə əhali arasında sayılıb, seçilib.

SSRİ dağıldıqdan sonra Qalib müəyyən çətinliklərlə üzləşib, hətta bir müddət işsiz qalmalı olub. Lakin fədakar gənc ruhdan düşməyib atası Nəsirullah kişinin və həmkəndlilərinin dəstəyi ilə özündə cəsarət tapıb, toparlanıb, müstəqillik dövrünün sınaqlarla dolu qaynar həyatına atılıb. O, həmin vaxtlar sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qərarına gəlib, özünə məxsus olan mağazada kənd əhalisinə ticarət xidməti göstərib.

Qalib əldə etdiyi qazancla ailəsini çətinliklərdən çıxarıb, həyat şəraitinin yüksəlməsinə, dolanışığının yaxşılaşmasına müvəffəq olub. Necə deyərlər, ailəsini də dolandırıb, başqalarına da əl tutub.

Q.İbrahimov bir neçə ildir ki, mağazasını yeməkxana ilə əvəz edib. O, burada əhaliyə nümunəvi iaşə xidməti göstərilməsi üçün hər cür şərait yaradıb. Müştərilər yeməkxanada onlara göstərilən xidmətdən həmişə razılıq edirlər. Yeməkxanada imkansız insanlara, xüsusilə yolçulara yardımlar edilir, köməkliklər göstərilir.

Qalib 44 günlük Vətən müharibəsi dövründə müxtəlif cəbhə bölgələrindən köçkün düşmüş soydaşlarımıza öz xeyirxah əlini uzadıb. Həmin vaxt erməni hücumları nəticəsində yurd-yuvasından didərgin salınmış insanları yeməkxanada yerləşdirib, şəxsi vəsaiti hesabına onları lazımi ərzaq və yeməklərlə təmin edib. Didərgin şəxslərin bir qisminə yeməkxananın həyətində olan binada müvəqqəti sığınacaq da verilib.

Bu fədakar insan 2016-cı il aprel döyüşləri zamanı da rayonumuza pənah gətirib, yollar boyunca məskunlaşan didərgin əhaliyə ərzaq bağlamaları ilə yardımlar təşkil edib. Özünün dediyinə görə, bu xeyirxahlıq ona atasından miras qalıb. Dövrünün imkanlı şəxslərindən sayılan Nəsirullah Abdulov Rəncbərlər kəndi ərazisində öz vəsaiti ilə 2 artezian vurdurub. Bundan başqa, sözügedən kənd qəbiristanlığına işıq, su xətti və hasar çəkilməsi də onun adıyla bağlıdır.

Qalib İbrahimov qayğıkeş, tələbkar ailə başçısı kimi də tanınır. O, vətənpərvər, əqidəli 3 övlad böyüdüb, boya-başa çatdırıb. Təsadüfi deyildir ki, o, oğlu İbrahim İbrahimovu özünün layiqli davamçısı kimi görür.

**Qalib İbrahimov xalqımıza öz qanı və canları bahasına böyük Qələbə sevinci bəxş edən şəhidlərimizin ölməz ruhları qarşısında baş əyir, qazilərimizə, bütün əsgərlərimizə uca Tanrıdan cansağlığı arzulayır. O, ölkəmizdə firavan həyat, əminamanlıq şəraiti yaratdığına, sahibkarlara, əmək adamlarına göstərdiyi yüksək diqqət və qayğıya görə möhtərəm Prezidentimiz İlham Əliyevə dərin təşəkkürünü və minnətdarlığını bildirir.**

**Adil MİSİRLİ**

# Sərdar Fərəcov: "Yaradıcılıqda millilik böyük önəm daşıyır"...

**Avropada simfonik musiqinin tarixini 15-16 əsrə təsadüf edirlər. Yəni bizdən 4-5 əsr əvvəl yaranıb. Amma Azərbaycan bəstəkarlıq məktəbi Avropanın 4-5 əsrə qət etdiyi yolu 40-50 ilə keçdi və az zamanda gözəl əsərlər meydana gəldi. Yzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun çox gənc yaşlarında yazdığı əsərlər dünyanı mat qoydu. O gənc bu gün niyə yoxdur? Bəlkə not qurtarıb, gənclər tapa bilmirlər?**



Sualımızı cavablandıran tanınmış bəstəkar, Xalq artisti Sərdar Fərəcov bildirdi ki, bu gün düyanın musiqi mənzərəsi 60-70 il əvvəlkindən çox fərqlilidir.

"Bunu həm zənginlik, həm də qarışıqlıq adlandırmaq olar. Və gənc bəstəkar ilk addımlarını atan kimi qarışıq mənzərə ilə rastlaşır. Çox vaxt da bu qarışıqlıqda özünü itirir",- deyən xalq artistinin sözlərinə görə, bunun üçün mütləq klassik musiqini bilmək lazımdır:

"Bilirsinizmi, müasir musiqiinin də öz klassikası var. Şostakoviç müasir musiqinin ən görkəmli nümayəndəsi sayılır. Əgər Şostakoviçin musiqisi Bethovenin vaxtında da səslənsəydi maraqla qarşılanardı. Çünki onun əsərlərində kamillik var, klassik özülün üstündə yaranıb. Amma elə əsərlər var ki, müasir musiqidir, amma qocalıb... Ondansa 300 il bundan əvvəl bəstələnmiş Baxın musiqisi daha təravətlidir. Musiqinin həmişə yaşar olması üçün əbədiliyin cövhərini duymaq lazımdır. 22 yaşlı o zaman şedevr əsər yaradır ki, öz istedadını düzgün istiqamətə yönəldir".

"Mən Ayaz Qəmbərlinin əsərlərini təqdir etmək istəyirəm. O cüsmlədən Tahir İbişovun əsərlərinə də simpatiyam var. Lakin onların da yaradıcılığında ardıcıllıq görmürəm. Bir gün bir üslübda, sabah başqa üslubda yazırlar. Hələ özlərini tapmayıblar. Mən bəzən gənclərimizin millilikdən uzaqlaşmasından narahatçılıq keçirirəm. Çünki 30 il əvvəl bütün qapılar bağlı olduğuna görə gənclərin informasiyası az idi. Amma indi gənclər asanlıqla xarici ölkələrə gedə bilirlər. Xaricə gedəndən sonra da onlar kimi yazmağa çalışırlar. Ümumiyyətlə, yaradıcılıqda millilik böyük önəm daşıyır. Yəni azərbaycanlı bəstəkarın musiqisindən mütləq Azərbaycan ətri gəlməlidir. Bu gün bütün dünya Stravinskinin "Petruşka"sına böyük məmnuniyyətlə qulaq asır. Nəyə görə, xalis rus musiqisidir, bununla belə bəşəri musiqidir. Fikrət Əmirovun musiqisi son vaxtlar tez-tez Azərbaycana təşrif buyuran xarici orkestrlər tərəfindən ifa olunur. Çox valeh olurlar bu musiqiyə.

Qara Qarayevin, Arif Məlikovun baleti dünyada Çaykovski səviyyədə qəbul edilir. İnsan ilk növbədə öz anası, bacısı və qardaşı ilə dil tapıb danışa bilmirsə, başqası ilə necə danışacaq. Bu gün dünyada elə festivallar var ki, başqa millətlərin bəstəkarlarını ora cəlb edib, ideyaların özünüküləşdirib öz musiqilərini inkişaf etdirirlər. Ona görə də, gənclərimiz bir az ehtiyatlı olmalıdırlar".

**İltifat HACIXANOĞLU**

## Cütlük ilk dəfə uşağının üzünü göstərdi: Fuad



**Ötən ilin sentyabrında "Vicdan haqqı" serialı ilə məşhurlaşan aktrisa Ülviyyə Xəlilbəyli və aktyor Murad İsmayılın övladı dünyaya gəldi. Adını Fuad qoyduqlarını da uşağın anası öz sosial şəbəkə hesabında paylaşdı. İndiyənə qədər uşağın üzünü mediaya göstərməyən cütlük artıq qərarını dəyişmişə oxşayır.**

Adalet.az xəbər verir ki, Murad İsmayıl sosial media hesabındakı paylaşımı ilə diqqət çəkib.

Murad "Instagram" hesabında yeni foto paylaşıb. Fotoda Muradın oğlu Fuad da yer alıb. Onun paylaşımı izləyicilərin marağına səbəb olub.

Qeyd edək ki, bir ara cütlüyün boşanması ilə bağlı dedi-qodular yayılsa da, xəbər rəsmən təsdiqlənmədi.

## Həmkarımız əməliyyat olundu: Xərçəngdən əziyyət çəkən məşhurlar...

**Xərçəng müasir dövrün ən böyük bəlalarından biridir və 200-dən artıq növü var. Ən çox yayılanı isə döş, ağciyər, bağırsaq xərçəngidir.**

Elə Azərbaycanda da yetəri qədər xərçəngin müxtəlif formasından əziyyət çəkən insanlar var. Uşaqların da daxil olduğu statistikaya əsasən qadınlar arasında döş xərçəngi daha çox yayılıbsa, kişilər ağciyər xərçənginə düçar olur.



Bir müddət öncə xərçəngdən əməliyyat olunan jurnalist, ARB TV-nin aparıcısı Tahirə Məmmədqızının səhhəti yenidən pisləşib.

Adalet.az xəbər verir ki, Tahirə Milli Onkologiya Mərkəzi Xəstəxanasına yerləşdirilib.

Tahirə sosial media hesabında əməliyyatdan öncəki görüntülərini paylaşıb. Görüntüləri izləyən izləyicilər kövrələrək ona Allahdan şəfa diləyiblər.

Amma həyat bir mübarizədir, insan mübariz olarsa, hər şeyə qalib gələr deyibən etiologiyası bu günədək tibbə məlum olmayan bu xəstəliklə, xərçənglə mübarizə aparanlar da az deyil. Azərbaycanda da 35 mindən çox insanın əziyyət çəkdiyi xərçəng xəstəliyinə tutulanlar arasında digər məşhurlar da var.

Xərçəngdən əziyyət çəkən xalq artisti Könül Xasıyeva, əməkdar artistlər Kübra Əliyeva, Kəmalə Müzəffər, Coşqun Rəhimov, Tünzalə Əliyeva, xeyriyyəçi Hacı Nuran, aparıcı-aktrisa Zümrüd Qasımova və adlarını unutduğumuz digərlərinə Allahdan şəfa diləyirik! Mübarizliyinizi itirməyin!

**Əntiqə Rəşid**

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hirkan Milli Parkının həmkarlar ittifaqına məxsus möhür itdiyi üçün etibarsız sayılsın.

Nəbi Muxtarov ailə üzvləri ilə birlikdə **Azər Namazova** anası

**Qənirə Cəmil qızının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aslan Mehdiyev ailə üzvləri ilə birlikdə **Azər Namazova** anası

**Qənirə Cəmil qızının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə **Azər Namazova** anası

**Qənirə Cəmil qızının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**



**Tiraj: 1500**
**Sifariş: 119**
Çapa imzalanmışdır:
20.08.2021